# Journal of Baku Engineering University

BAKU ENGINEERING UNIVERSITY

ISSN 2521-6341

## ECONOMICS AND ADMINISTRATION

Volume 2
Number 2

2018

Journal is published twice a year
*Number-1. June, Number-2. December*

*An International Journal*

http://journal.beu.edu.az

**Founder**

*Havar Mammadov*

**Editor-in-chief**

*Niftali Qodjayev*

**Editor**

*Nasimi Kamalov*

**Editorial board**

*Altay Ismayilov (Azerbaijan, Khazar University)*
*Elvin Mammadov (Azerbaijan,Baku Engineering University)*
*Firudin Sultanov (Azerbaijan, Baku Engineering University)*
*Hazi Eynalov(Azerbaijan, Baku Engineering University)*
*Mayis Azizov (Azerbaijan, Baku Engineering University)*
*Murad Isgandarov(Azerbaijan,Baku Engineering University)*
*Sarvar Gurbanov (Azerbaijan,Baku Engineering University)*
*Tarbiz Aliev (ANAS, Institute of Economy)*
*Tayyar Mustafayev (Azerbaijan,Baku Engineering University)*
*Vilayat Valiyev (Azerbaijan, Institute for Scientific Research on Economic Reforms)*
*Khanlar Haydarov (Azerbaijan, Baku Engineering University)*
*Shahriyar Muhtarov (Azerbaijan, Baku Engineering University)*
*Yadullah Hasanli (Azerbaijan, Azerbaijan State University of Economics)*

**International Advisory board**

*Alina Daniłowska (Poland, Warsaw University of Life Sciences)*
*Alp Malazgirt (Rep. of Korea, SolBridge International School of Business)*
*Anthony Adamthwaite (USA, University of California Berkeley)*
*Frederick Joutz (USA, George Washington University)*
*Gregory R. Quinet (USA, Southern Polytechnic State University)*
*James Dingley (UK, Francis Hutcheson Institute)*
*James F. Rinehart (USA, Troy University)*
*Manouchehr Mokhtari (USA, University of Maryland)*
*Mark S. Hiatt (USA, Southern Polytechnic State University)*
*Manuela Tvaronaviciene (Litva,Vilnius Gediminas Technical University)*
*Nalan Basturk (Netherland, Erasmus University Rotterdam)*
*Robert Powel (USA, University of California Berkeley)*
*Ronny L. Richardson (USA, Southern Polytechnic State University)*
*Tara Sinclair (USA, George Washington University)*
*William Patrick Leonard (Rep.of Korea, SolBridge Inter. School of Business)*

**Executive Editors**

*Shafag Alizade*

**Assistant Editors**

*Rufat Mammadov*

**Design**

*Ilham Aliyev*

**Contact address**

*Journal of Baku Engineering University*
*AZ0101, Khirdalan city, Hasan Aliyev str. 120, Absheron, Baku, Azerbaijan*
***Tel:*** *00 994 12 - 349 99 66/78* ***Fax:*** *00 994 12 349-99-90/91*

**e-mail:** jr-eco.adm@beu.edu.az
**web:** http://journal.beu.edu.az
**facebook:** Journal Of Baku Engineering University

*Copyright* © Baku Engineering University

ISSN 2521-6341

ISSN 2521-6341

# Journal of Baku Engineering University

## ECONOMICS AND ADMINISTRATION

Baku - AZERBAIJAN

# Journal of Baku Engineering University

## ECONOMICS AND ADMINISTRATION

**2018. Volume 2, Number 2**

# CONTENTS

**AZƏRBAYCANDA VERGİDƏN YAYINMAYA TƏSİR EDƏN FAKTORLAR: EMPİRİK ANALİZ**
*Xətai Alıyev, İlkin Qasımov* _____ *97*

**FİSKAL SİYASƏT VƏ İQTİSADİ ARTIM. DÖVLƏT XƏRCLƏRİNDƏ OPTİMALLIQ PRİNSİPLƏRİ**
*Ceyhun Abbasov* _____ *108*

**AZƏRBAYCANIN ÜMUMİ TARAZLIQ MODELİ (AZMOD) ƏSASINDA KAPİTAL QOYULUŞLARININ ÖLKƏ İQTİSADİYYATINA TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ**
*Arzu Süleymanov, Rauf Musayev* _____ *117*

**QEYRİ-NEFT SEKTORUNUN İXRAC POTENSİALININ TƏNZİMLƏNMƏSİNİN QANUNVERİCİLİK BAZASI VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ**
*Cavanşir Əsədov, Sədaqət İbrahimova* _____ *129*

**EĞİTİMDE PROJE TABANLI ÖĞRENME YAKLAŞIMININ ÜNİVERSİTE-SANAYİ İŞBİRLİĞİNİN GELİŞMESİNDEKİ ROLÜ**
*İsa Qasımov, Ensar Lokmanoğlu* _____ *134*

**BEYNƏLXALQ MALİYYƏ BAZARLARINDA ÖZƏL SEKTOR İSTİQRAZLARININ İNKİŞAFI**
*Füzuli Əliyev, Aydın Sadıqlı* _____ *143*

**İNVESTİSİYA CƏLBEDİCİLİYİNDƏ İQTİSADİ AZADLIQLARIN YERİ VƏ ROLU**
*Süleymanov Elçin Bəhman, Talıblı Məmməd Səfər, Əlirzayev Elvin Vahid* _____ *149*

**KƏND ƏHALİSİNİN HƏYAT SƏVİYYƏSİNİN YAXŞILAŞDIRILMASINDA KƏND TURİZMİNİN ROLU VƏ ONUN MÖVCUD VƏZİYYƏTİ**
*Əliyeva Jalə R.* _____ *159*

**AZƏRBAYCANDA BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN İQTİSADİ ARTIMA TƏSİRLƏRİ: EMPİRİK BİR ANALİZ**
*Nigar Hacıyeva* _____ *164*

*2018. Volume 2, Number 2* *Pages 97-107*

*UOT: 336.22*

# AZƏRBAYCANDA VERGİDƏN YAYINMAYA TƏSİR EDƏN FAKTORLAR: EMPİRİK ANALİZ

**Xətai ALIYEV**[a,b]

[a] UNEC Empirik Tədqiqatlar Mərkəzi / Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

[b] Dünya İqtisadiyyatı Kafedrası / Bakı Mühəndislik Universiteti

*khatai.aliyev@unec.edu.az*

**İlkin QASIMOV**

İqtisadi İslahatlar Elmi – Tədqiqat İnstitutu

*gasimovilk@gmail.com*

**XÜLASƏ**

Məqalədə Azərbaycan nümunəsində vergidən yayınmaya təsir edən əsas faktorlar empirik olaraq araşdırılmışdır. Nəticələrə əsasən vergi dərəcələri və vergidən yayınma meyilliliyi arasında müsbət və statistik olaraq əhəmiyyətli əlaqə mövcuddur. Firma ölçüsü və firmaların fəaliyyət göstərdikləri sektorun isə vergidən yayınma üzərində statistik olaraq əhəmiyyətsiz təsiri olduğu məlum olur.

İqtisadi faktorlarla müqayisədə leqal və institutsional faktorların vergidən yayınmaya daha güclü şəkildə təsir etdiyi üzə çıxmışdır. Belə ki, empirik təhlik nəticəsində istər vergi orqanlarının firmaların fəaliyyətinə maneə hesab edilən müdaxilələrinin və firmalar tərəfindən əlaqədar orqanlara qeyri-leqal ödənişlərin və ya hədiyyələrin verilməsi və məhkəmə orqanlarının fəaliyyəti ilə vergidən yayınma arasında statistik əhəmiyyətli əlaqənin olması nəticəsinə gəlinmişdir.

**Açar sözlər**: vergidən yayınma, vergi dərəcələri, qeyri-leqal ödənişlər, institutsional faktorlar, hüquqi sistemin effektivliyi.

**FACTORS AFFECTING TAX EVASION IN AZERBAIJAN: AN EMPIRICAL ANALYSIS**

**ABSTRACT**

Main factors impacting the tax evasion in case of Azerbaijan was empirically investigated in the paper. According to results there is positive and statistically significant relationship between tax rates and intention of tax evasion. It becomes clear that there is statistically insignificant link between firm size, operational sectors and tax evasion.

It became obvious that compare with economic factors legal and institutional factors impacts the tax evasion more. So that, according to empirical results either interfering by tax authorities which are accepted as obstacles or illegal payments and gifts by firms to relevant authorities has statistically significant impact on tax evasion.

**Key words**: tax evasion, tax rates, illegal payments, institutional factors, effectiveness of the legal system.

**ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА УКЛОНЕНИЕ ОТ НАЛОГОВ В АЗЕРБАЙДЖАНЕ: ЭМПИРИЧЕСКИЙ АНАЛИЗ**

**РЕЗЮМЕ**

В статье основные факторы, влияющие на уклонение от уплаты налогов в Азербайджане исследованы эмпирически. Согласно результатам, существует положительная и статистически значимая связь между налоговыми ставками и уклонением от уплаты налогов. Известно, что размер фирмы и сектора, в котором работают фирмы, статистически незначимы в уклонении от уплаты налогов. Известно, что размер фирмы и сектора, в котором работают фирмы, статистически незначимы в уклонении от уплаты налогов.

По сравнению с экономическими факторами, правовые и институциональные факторы оказали сильное влияние на уклонение от уплаты налогов. Таким образом, в результате эмпирического анализа была выявлена статистически значимая корреляция между вмешательством налоговых органов в деятельность фирм и передачей незаконных платежей или подарков соответствующим органам и уклонением от налогов в деятельности судебных органов.

**Ключевые слова**: уклонение от уплаты налогов, налоговые ставки, незаконные платежи, институциональные факторы и эффективность правовой системы.

## 1. Giriş

Düzgün vergi siyasətinin qurulması bazar iqtisadiyyatı sistemində dövlətin effektiv müdaxilə imkanlarının qorunub saxlanılmasına və uzunmüddətli iqtisadi inkişafın təmin olun-

ması üçün mühüm əhəmiyyət daşıyır. Bu isə güclü vergi qanunvericiliyinin mövcudluğunu və effektiv tətbiqini tələb edir. Çünki, vergi qanunvericiliyinin təkmilləşdirilməsi ölkələrdə iqtisadi artıma birbaşa təsir göstərir [28, 29, 30, 32]. Optimal vergi dərəcələrinin müəyyən olunması və vergidən yayınmaların minimallaşdırılması, nəticədə isə iqtisadi inkişafın stimullaşdırılması vergi siyasətinin "uğur" göstəricisi hesab oluna bilər.

Vergidən yayınma anlayışı demək olar ki, "vergi" məfhumunun yarandığı gündən mövcuddur. Zaman və məkan amilindən asılı olmayaraq fərdlər müəyyən olunan vergilərdən yayınmaq, ödəməmək və ya mümkün qədər daha az ödəmək üçün fərqli yollara axtarışında olur. Bu zaman eyni məqsədə yönəlmiş iki fərqli davranış tərzi ön plana çıxır: *vergi qaçaqçılığı (tax evasion)* və *vergidən yayınma (tax avoidance)*.

*Vergiqaçaqçılığı* vergiləndirmədən qaçmaq üçün istifadə olunan çoxsaylı qeyri-leqal cəhdləri özündə əks etdirir: vergi obyekti olan gəlir və digər fəaliyyətlərin gizlədilməsi, gəlirin miqdarı və mənbəyi ilə bağlı yanlış informasiyanın təqdim olunması, vergi ödənişi miqdarını azalda biləcək endirimlər və azadolmaların şişirdilmiş şəkildə göstərilməsi [Bax 4]. Bu çərçivədə, rəsmi olaraq qeydə alınmadan göstərilən iqtisadi fəaliyyətlər də vergi qaçaqçılığının obyekti hesab olunmalıdır. Lakin, *vergidən yayınma (tax avoidance)* isə tamamilə mövcud qanunvericilik çərçivəsində baş verir və qanunvericiliyin tələblərini pozmadan vergi öhdəliyini azaldacaq strateji vergi planlaması fəaliyyətlərini özündə əks etdirir [17]. Əslində isə, hər iki halda yerinə yetirilən fəaliyyətlər vergi gəlirlərini azaltdığı üçün buna qarşıqanunvericilik çərçivəsində mübarizənin aparılması vacibdir. Bu məqalədə "vergidən yayınma" dedikdə qeyd olunan hər iki anlayış əhatə edilmiş olacaq.

Bu tədqiqatın məqsədi Azərbaycanda vergidən yayınmaya təsir edən faktorların empirik qiymətləndirmə metodlarından istifadə olunmaqla müəyyən olunmasıdır. [18] və [22]vergidən yayınmaya təsir edən faktorları iqtisadi (gəlir səviyyəsi, gəlirin mənbəyi, vergi dərəcəsi, cəzaların miqdarı, yoxlama tezliyi, və s.), demoqrafik (yaş, cinsi mənsubiyyət və təhsil) və davranışsal faktorlar (vergi ədalətliliyi, vergi sisteminin mürəkkəbliyi, vergi ödəyicilərinin vergi orqanları ilə bağlı düşüncələri, sosial adətlər, vergi əxlaqı, və s.) kimi qruplaşdırır, [19] isə "leqal və institutsional faktorlar"ı da bu klassifikasiyaya əlavə edir. Bu tədqiqatda isə Dünya Bankının dəstəyi ilə keçirilən *Enterprise Surveys*[11] statistik məlumat bazası istifadə ediləcək.

## 2. Ədəbiyyat xülasəsi

Yuxarıda da qeyd olunduğu kimi, vergidən yayınmaya çoxsaylı faktorların təsiri var. [18] empirik qiymətləndirmə əsasında müəyyən etmişdir ki, vergidən yayınmaya ən güclü təsir edən faktorlar qeyri-iqtisadi faktorlardır – xüsusilə də vergi sisteminin mürəkkəbliyi, təhsil, gəlir qaynağı, ədalətlilik və vergi əxlaqı. Bu nəticə [35] tərəfindən son dövrlərdə aparılan tədqiqatda da öz təsdiqini tapmışdır.

Riahi-Belkaoui tərəfindən 30 ölkəni əhatə edən tədqiqat nəticələri göstərmişdir ki, vergidən yayınma dərəcəsi ilə iqtisadi azadlıq dərəcəsi, rəqabət qanunlarının effektivliyi və yüksək əxlaq normalarının mövcudluğu arasında mənfi əlaqə var [34]. Yəni, ölkələrin iqtisadi azadlıq səviyyəsi və rəqabət qanunlarının effektivliyi artdıqca vergidən yayınma azalır.

Aparılan tədqiqatlar vergi ödəyiciləri arasında vergidən yayınmaya meyilliliyin ödəyicilərin yaşı ilə tərs mütənasiblik olduğunu göstərir [45]; [50]; [10]; [12]; [15]. Çünki, gənc vergi ödəyiciləri daha çox riskə gedən və cəzalara qarşı daha az həssas olur (Tittle, 1980).

Vergidən yayınmada vergi ödəyicisinin cinsi mənsubiyyətinin də əhəmiyyətli rol aldığı mövcud tədqiqatlarda öz təsdiqini tapmışdır. [49] və [25] göstərir ki, qadın vergi ödəyiciləri kişilərə nisbətən vergidən yayınmaya qarşı daha az meyilli olur. Lakin, sonrakı tədqiqatlarda cinsi mənsubiyyətə görə yaranan bu fərqin daha azadfikirli qadınlar nəslinin yaranması ilə aradan qalxdığı müşahidə olunur [45]. Sonrakı tədqiqatlarda müxtəlif nəticələr əldə olunmuşdur [2]; [6].

Vergidən yayınmaya təsir edən digər əhəmiyyətli faktor isə ödəyicilərin bilik səviyyəsidir.[42] və [50] ümumi təhsil səviyyəsi ilə vergidən yayınma arasında mənfi əlaqənin olduğu nəticəsinə gəlir. Təhsilli vergi ödəyicilərinin vergi əxlaqı digərləri ilə müqayisədə daha yüksək olur [8]. Lakin, bu zaman vergi ödəyicilərinin "ümumi fiskal bilik səviyyəsi" və "vergidən yayınma imkanları ilə bağlı spesifik bilik səviyyəsi"nin təsiri fərqləndirilməlidir [18].[18] iddia edir ki, ödəyicilərin ümumi fiskal bilik səviyyəsi artdıqca vergidən yayınmaya meyillilik azalır. Bununla belə, ikinci halda vergi ödəyiciləri daha çox yayınmaya meyl edir.

Gəlis səviyyəsinin vergidən yayınmaya təsiri də tədqiqatçılar üçün diqqət mərkəzində olmuşdur. [25] və [50] orta gəlir təbəqəsinə aid olanların vergi qanunvericiliyinə daha uyumlu olduğunu, aşağı və yüksək gəlir kateqoriyasına aid olanların isə daha çox yayınmaya meyilli olduğunu müəyyən edir.

Vergi dərəcəsinin yayınmalara təsiri ilə bağlı tədqiqatlarda müxtəlif nəticələr əldə olunur. [7] və [24] vergi dərəcələri ilə yayınmalar arasında müsbət, [12] və [5] isə mənfi əlaqənin olduğunu müəyyən edir.Aparılan tədqiqatlar vergidən yayınmalara vergi ədalətliliyi ilə bağlı ödəyicilərin düşüncələrinin də ciddi mənfi təsirinin olduğunu göstərir (Jackson və Milliron, 1986; Richardson və Sawyer, 2001; Spicer, 1974; Song və Yardbrough, 1978; Hite və Roberts, 1992).

Vergi sisteminin mürəkkəbliyinin vergidən yayınmaların əsas səbəblərindən biri olduğu əvvəlki tədqiqatlarda öz təsdiqini tapmışdır [35; 49; 7; 27; 36]. Bundan başqa, vergi ödəyiciləri ilə vergi işçiləri arasında əlaqənin səviyyəsi də vergidən yayınmalara ciddi müsbət təsir edir [20-21; 2] və bu əlaqəni minimallaşdıran vergi sisteminin qurulması vergidən yayınma ehtimalını əhəmiyyətli dərəcədə azalda bilər [44; 39; 44]. [38]-ə görə hökümətə inamın artması vergidən yayınmaların azalmasına səbəb olur. Lakin, hüquqi çərçivədə sanksiyaların vergidən yayınmalara ciddi təsiri yoxdur [38]. Eyni zamanda, aparılan tədqiqatlar vergi əxlaqı ilə vergidən yayınma arasında da mənfi əlaqənin mövcud olduğunu göstərir [43; 41; 45;46].

İqtisadi inkişafın vergidən yayınmalara təsiri də diqqət mərkəzində olmuşdur. [35] bu iki dəyişən arasında ciddi bir əlaqənin olmadığı nəticəsinə gəlsə də sonrakı tədqiqatlar [48; 36; 13] bu əlaqənin statistik olaraq əhəmiyyətli dərəcədə mənfi olduğunu müəyyən etmişdir.

Azərbaycan nümunəsində vergidən yayınmalara təsir edən faktorların empirik təhlili ilə bağlı aparılan tədqiqatları sayı olduqca azdır. [31] Cənubi Qaqaz ölkələri üçün aparılan empirik tədqiqatın Azərbaycan hissəsində vergidən yayınmalara təsir edən əsas faktorlardan birinin böyük həcmli kölgə iqtisadiyyatının olması müəyyən olunmuşdur. Azərbaycanda kölgə iqtisadiyyatının həcmini qiymətləndirən [3] görə bu göstərici 52%-dir. Buna görə də vergidən yayınmalarda kölgə iqtisadiyyatının çəkisi olduqca böyükdür. Bundan əlavə, [31] məhkəmə sistemi, vergi administrasiyası və korrupsiya ilə bağlı problemlərin də Azərbaycanda vergidən yayınma hallarını artırdığını müəyyən etmişdir.

## 3. İstifadə olunan verilənlər

Tədqiqatın məlumat bazasını Dünya Bankının dəstəyi ilə keçirilən "sahibkarlıq sorğuları (enterprise surveys)" təşkil edir. Azərbaycanda 2013-cü ildə qeyd olunan sorğu 343 firma arasında keçirilib. Empirik qiymətləndirmədə istifadə olunacaq dəyişənlərin qısa izahı aşağıdakı kimidir:

*TAXEVASİON* asılı dəyişəndir. Sorğu obyekti olan firmalarda vergidən yayınmaya doğru cəhdlərin hansı tezlikdə olması ilə bağlı cavablarını özündə əks etdirir. Sorğuda respondentlərə seçim üçün təqdim olunan cavablar: (0) *heç vaxt (never), (1) nadir hallarda (seldom), (2) bəzən (sometimes), (3) tez-tez (frequently), (4) əksər hallarda (very frequently), (5) həmişə (always).* Empirik qiymətləndirmədə istifadə üçün artan tezlik istiqamətində 0-5 aralığında qiymət verilərək rəqəmsal hala gətirilmişdir.

***İqtisadi faktorlar:***

*TAXRATE* firmaların vergi dərəcələrini öz fəaliyyətləri üçün hansı dərəcədə maneə hesab etdiklərini göstərən sərbəst dəyişəndir. Respondentlər verilən alternativlərindən birini seçərək cavablandırırlar: *(0) heç bir (no obstacle), (1) cüzi dərəcədə (a minor obstacle), (2) əhəmiyyətli dərəcədə (a moderate obstacle), (3) ciddi dərəcədə (a major obstacle), (4) olduqca ciddi dərəcədə (very severe obstacle).* Rəqəmsal hala gətirmək üçün cavablar alternativlər üzrə artan sıralamada 0-4 olaraq qiymətləndirilmişdir.

*SMALL* və *MEDİUM* sorğu keçirilən firmaların böyüklüyünə əsasən yaradılan fiktiv dəyişənlərdir, 0 və ya 1 qiymətləri alır. Sorğunun metodologiyasına əsasən işçi sayı 20 nəfərdən az olan firmalar kiçik (SMALL), 20-99 nəfər olanlar orta ölçülü (MEDİUM), 100 nəfərdən çox işçisi olanlar isə böyük ölçülü (LARGE) firmalar olaraq qruplaşdırılmışdır. Bu çərçivədə, SMALL fiktiv dəyişəni kiçik ölçülü firmaları təmsil edir. Əgər respondent kiçik ölçülü firmadırsa 1, digər hallarda isə 0 qiyməti alır. Eyni qaydada, əgər respondent orta ölçülü firmadırsa MEDİUM fiktiv dəyişəni 1, bütün digər hallarda isə 0 qiyməti alır. Empirik qiymətləndirmədə böyük ölçülü (LARGE) firmalar müqayisə (base) qrupu olaraq götürülmüşdür.

*MANUFACTURİNG* və *RETAİL* sorğu keçirilən firmaların fəaliyyət sahələrinə uyğun olaraq yaradılan fiktiv dəyişənlərdir, yalnız 0 və ya 1 qiyməti alır.Əgər respondent firma emal (manufacturing) sahəsində fəaliyyət göstərirsə MANUFACTURİNG 1, digər bütün hallarda isə 0-a bərabər olur. RETAİL fiktiv dəyişəni isə sorğuda iştirak edən firma pərakəndə satışla məşğuldursa 1, digər bütün hallarda isə 0 qiyməti alır. Modeldə bu konteksdə müqayisə qrupu olaraq bu iki qrupa daxil olmayan digər firmalar götürülüb.

***Leqal və institutsional faktorlar:***

*TAXADMİNİSTRATİON* firmaların yerinə yetirdikləri fəaliyyətlər üçün vergi orqanlarının (tax administration) fəaliyyətlərini hansı dərəcdə maneə hesab etdiyini göstərir. Bu dəyişən üçün qiymətləndirmə TAXRATE ilə tamamilə eynidir. Firmalar üzrə ifadə olunan maneənin ciddilik dərəcəsinə görə artan sırada cavablar 0-4 aralığında qiymət verilərək rəqəmsallaşdırılıb.

*İNFORMALİTY* vergi ödəyicilərinin öz sahələrində firmaların fərqli situasiyalarda (gömrük, vergi, lisenziya, və s.) nəzərdə tutulan işlərin yerinə yetirilməsi üçün qeyri-qanuni "əlavə ödəniş və ya hədiyyələr"in verilməsi tezliyi ilə bağlı cavablarını özündə əks etdirir. Qiymətlədirmə forması TAXEVASİON ilə tamamilə eynidir, 0-5 aralığında qiymətlər alır.

*COURT_FAİR*biznes problemlərinin həllində ölkə məhkəmələrinin ədalətliliyinə və tərəfsizliyinə respondentlərin inanc səviyyəsini göstərir. Sorğuda iştirak edənlər təqdim olunan 3 cavabdan birini seçir: *(0) bilmirəm (don't know), (1) meyl edirlər (tend to), (2) çox (strongly)*. Verilən cavablar artan istiqamətdə 0-2 aralığında qiymətləndirilməklə rəqəmsal hala gətirilmişdir.

*COURT_QUİCK* respondentlərin biznes problemlərinin həllində məhkəmələrin çevik qərar verməsinə olan inanc səviyyəsini göstərir. Qiymətləndirmə metodologiyası COURT_FAİR ilə eynidir, 0-2 aralığında qiymət alır.

*COURT_ENFORCE*biznes problemlərinin həllində hüquqi sistemin respondentlərin bağlanmış müqavilələr və müəllif hüquqlarını qoruyacağına və qarşı tərəfin öhdəlikləri yerinə yetirməyə məcbur ediləcəyinə inancını özündə əks etdirir. Qiymətləndirmə metodologiyası COURT_FAİR ilə tamamilə eynidir, 0-2 aralığında qiymət alır.

*CORRUPTION* firmaların korrupsiyanı öz fəaliyyətləri üçün hansı dərəcədə maneə hesab etdiyini göstərir. Qiymətləndirmə metodologiyası TAXRATE ilə tamamilə eynidir, 0-4 aralığında qiymət alır.

*LABORREGULATION*firmaların əmək bazarının tənzimlənməsi fəaliyyətlərini öz fəaliyyətləri üçün nə qədər maneə hesab etdiyini göstərən sərbəst dəyişəndir. Qiymətləndirmə metodologiyası TAXRATE ilə tamamilə eynidir, 0-4 aralığında qiymət alır.

Nəzəri olaraq İNFORMALİTY və TAXEVASİON arasında ciddi əlaqənin olacağını gözləmək olar. Çünki, firmaların vergidən yayınmaq və ya daha az vergi ödəmək üçün vergi orqanlarında işləyən şəxslərə qeyri-leqal ödəniş və ya hədiyyələr verməsi ehtimalı hər zaman var. Buna görə də hər iki dəyişən üzrə nümunə qrupun tezliklər üzrə statistikasına baxmaq maraqlıdır.

Qeyd edək ki, hər iki sual 339 firma tərəfindən cavablandırılıb, 4 respondent cavablandırmaqdan imtina edib. Şəkil 1-də vergidən yayınma cəhdləri tezliyi ilə bağlı firmaların cavabları ümumiləşdirilərək əks olunub.

Respondentlərin təxminən 57%-i vergidən yayınmaq məqsədiylə heç vaxt addım atmadığını bildirmişdir. Bu o deməkdir ki, firmaların təxminən 43%-i vergidən yayınmağa meyillidir. Şəkil 1 və 2-ni müqayisəli təhlil etdikdə bu özünü daha aydın biruzə verir.

**Şəkil 1:** Vergidən yayınma cəhdləri tezliyi




*Qaynaq: müəllif tərəfindən verilənlər bazası əsasında hazırlanıb.*

**Şəkil 2:** Qeyri-leqal ödənişlər və ya hədiyyələr verilmə tezliyi




*Qaynaq: müəllif tərəfindən verilənlər bazası əsasında hazırlanıb.*

Təhlil nəticələri göstərir ki, firmaların 58%-ə yaxını müxtəlif məqsədlərlə hər hansı qeyri-leqal ödəniş və ya hədiyyə vermədiyini iddia edir. Lakin, 42% hallarda bu cür qanuna zidd hadisələrin baş vermə ehtimalı var. Sorğu nəticələrinə əsasən görünür ki, Azərbaycanda firmaların vergidən yayınma meyilliliyi birbaşa olaraq qeyri-qanuni olaraq ödəniş və hədiyyələrin verilməsi halları ilə bağlıdır və bu empirik qiymətləndirmələrdə də öz əksini tapacaq.

## 4. Empirik qiymətləndirmə metodologiyası

Bu tədqiqatda sorğu əsasında toplanılmış kəsilən verilənlər məlumat bazasından istifadə edilir. Təyin olunan modelin qiymətləndirilməsində Ən Kiçik Kvadratlar (OLS) metodu istifadə olunur. Empirik qiymətləndirmədə istifadə ediləcək baza modelin riyazi-ekonometrik ifadəsi aşağıdakı kimidir:

$$Taxevasion_i = \gamma_0 + \gamma_1 * Taxrate_i + \gamma_2 * Taxadministration_i + \gamma_3 * Informality_i + \gamma_4 * Court_{fair_i} + \gamma_5 * Court_{quick_i} + \gamma_6 * Court_{enforce_i} + \gamma_7 * Court_{fair_i} * Informality_i + \gamma_8 * Court_{quick_i} * Informality_i + \gamma_9 * Court_{enforce_i} * Informality_i + \gamma_{10} * Corruption_i + \gamma_{11} * Laborregulation_i + \gamma_{12} * Small_i + \gamma_{13} * Medium_i + \gamma_{14} * Manufacturing_i + \gamma_{15} * Retail_i + u_i$$

Burada $\gamma$-lar reqressiya əmsallarını ifadə edir. $u_i$ hər bir $i$-ci müşahidə üçün xətanı ifadə edir. Hər bir dəyişənin qısa izahı əvvəlki bölmədə verilmişdir. Qeyd edək ki, ilkin olaraq qurulmuş modeldə funksional misspesifikasiya problemi aşkar olunduğuna görə "qarşılıqlı təsir dəyişənləri" (*interaction terms*) modelə əlavə edilmişdir. Ramsey-Reset testi ilə təkrar yoxlama zamanı misspesifikasiya probleminin olmadığı müəyyən edilmişdir.

## 5. Modelin qiymətləndirilməsi və nəticələrin şərhi

Baza modeli əsasında aparılan qiymətləndirmə nəticələri aşağıdakı cədvəldə öz əksini tapmışdır. Qeyd edək ki, daha anlaşıqlı olması üçün sərbəst dəyişənlər müxtəlif qruplar halında təqdim olunur. Hər bir dəyişənin əmsalı və standard xətası, həmçinin də statistik əhəmiyyətli olub-olmaması cədvəldə öz əksini tapır.

Empirik qiymətləndirmə nəticələri həm nəzəri, həm də praktiki baxımdan olduqca maraqlıdır. Tədqiqat vergi dərəcələrinin respondentlərin vergidən yayınma meyilliliyinə müsbət təsiri olduğunu ortaya çıxarır. Təsir müsbət və statistiki olaraq əhəmiyyətlidir ($p < 0.05$). Lakin, vergidən yayınmanın götürülən digər iqtisadi faktorlarla ciddi əlaqasi yoxdur. Tədqiqat nəticələri göstərir ki, firmaların böyüklüyünün (kiçik, orta ölçülü və ya böyük olmasının) vergidən yayınma meyilliliyinə statistik olaraq əhəmiyyətli təsiri yoxdur. Bütün hallarda əhəmiyyətlilik dərəcəsi 10%-dən böyükdür ($p > 0.1$). Eyni nəticə firmaların fəaliyyət göstərdiyi sektorlar üçün də keçərlidir. Empirik nəticələr sektoral fərqliliyin də vergidən yayınma üzərində statistik olaraq əhəmiyyətli təsirinin olmadığını göstərir ($p > 0.1$).

**Cədvəl 1:** Empirik qiymətləndirmə nəticələri

| Dəyişənlər | Əmsallar | Əmsalların standard xətası |
|---|---|---|
| | *İqtisadi faktorlar* | |
| $Taxrate$ | 0.0364 | 0.0453 |
| $Small$ | 0.0018 | 0.1339 |
| $Medium$ | 0.0418 | 0.1394 |
| $Manufacturing$ | 0.0932 | 0.0883 |
| $Retail$ | -0.0158 | 0.1019 |
| | *Leqal və institutsional faktorlar* | |
| $Taxadminstration$ | 0.1464*** | 0.0759 |
| $Informality$ | 0.8096*** | 0.1218 |
| $Court_{fair}$ | -0.1445* | 0.0712 |
| $Court_{quick}$ | -0.2982*** | 0.1057 |
| $Court_{enforce}$ | 0.4004*** | 0.1090 |
| $Court_{fair} * informality$ | -0.0826 | 0.1188 |
| $Court_{quick} * informality$ | 0.3713** | 0.1697 |
| $Court_{enforce} * informality$ | -0.3322** | 0.1647 |
| $Laborregulation$ | 0.0442 | 0.0612 |
| $Corruption$ | 0.1218* | 0.0737 |
| $R^2$ | *0.5879* | |
| *Reqressiyanın standard xətası* | *0.6284* | |

***Qeyd:*** *Asılı dəyişən $Taxevasion$.***, ** və * müvafiq olaraq 1%, 5% və 10% əhəmiyyətlilik dərəcəsində statistik olaraq əhəmiyyətliliyi göstərir.*

İqtisadi faktorlarla müqayisədə leqal və institutsional faktorların vergidən yayınmaya daha güclü təsiri olduğunu empirik qiymətləndirmə nəticələri də təsdiq edir. İlk növbədə, vergi orqanlarının firmaların fəaliyyətinə maneə hesab edilən müdaxilələri artıqca vergidən yayınma tezliyi ciddi şəkildə artmış olur. Belə ki, *Taxadministration* dəyişəninin asılı dəyişənə təsiri 1% əhəmiyyətlilik dərəcəsində statistik olaraq əhəmiyyətli və müsbətdir. Bu nəticə başqa nümunələr üçün aparılan empirk tədqiqatlarda da öz əksini tapmışdır.

Empirik qiymətləndirmə nəticələri müxtəlif məqsədlərə nail olmaq üçün firmalar tərəfindən əlaqədar orqanlara qeyri-leqal ödənişlərin və ya hədiyyələrin verilməsi və məhkəmə orqanlarının fəaliyyəti ilə vergidən yayınmaya meyillilik arasında güclü əlaqənin olduğunu təsdiq edir. Lakin, burada olduqca əhəmiyyətli nüans qeyri-leqal ödənişlərin və ya hədiyyələrin verilməsi və məhkəmə orqanlarının fəaliyyətinin həm də hər birinin vergidən yayınmaya təsirinə ciddi təsir göstərdiyi ilə bağlı ortaya çıxarılan situasiyadır.

Empirik nəticələr göstərir ki, qeyri-leqal ödəniş və ya hədiyyələrin olmadığı fərz olunarsa (informality =0) məhkəmələrin biznes problemlərinin həllində ədalətli və tərəfsiz yanaşacağı-

na ($p < 0.10$), həmçinin də operativ şəkildə qısa müddətdə qərar verəcəyinə inanc artdıqca vergidən yayınmaya meyillilik əhəmiyyətli dərəcədə azalır ($p < 0.01$).Lakin, maraqlıdır ki, eyni şərtlər daxilində biznes problemlərinin həllində məhkəmələrin bağlanmış müqavilələr və müəllif hüquqlarını qoruyacağına və qarşı tərəfin öhdəlikləri yerinə yetirməyə məcbur edəcəyinə inanc artdıqca vergidən yayınmaya meyillilik daha da artır və bu təsir 1% əhəmiyyətlilik dərəcəsində statistiki olaraq əhəmiyyətlidir. Daha bir maraqlı nüans isə məhkəmələrin ədalətli və tərəfsiz yanaşacağına olan inancın təsiri ilə müqayisədə hüquqi sistemin operativliyinin və məcbur etmə gücünün effektinin vergidən yayınmaya daha güclü təsir etdiyidir.

Digər tərəfdən, məhkəmələrin fəaliyyəti ilə bağlı firmaların məlumatsız olduğu və ya inancı olmadığı bir şəraitdə qeyri-leqal ödənişlər və hədiyyələrin vergidən yayınma meyilliliyi üzərində təsiri olduqca böyükdür. Reqressiya tənliyində *informality* dəyişəninin əmsalı (0.8096) həm iqtisadi, həm də statistik olaraq əhəmiyyətlidir ($p < 0.01$). Bu isə qeyri-leqal ödənişlər və ya hədiyyələrin verilməsi üçün yarana biləcək münbit şəraitin vergidən yayınma hallarını kütləviləşdirəcəyini deməyə əsas verir.

İndi isə "təsirə təsir" dəyişənlərinin əmsallarına baxaq. Qeyri-leqal ödənişlər və hədiyyələrin verilməsi üçün münbit şərait olan hallarda məhkəmələrin operativ qərar verməsinə olan inancın vergidən yayınmalara təsiri müsbətə doğru dəyişir və firmaları vergidən yayınmağa meyilliliyə stimullaşdırır ($p < 0.05$). Bu təsir məhkəmələrin məcbu retmə gücünə inancın effektini mənfiyə doğru dəyişir. Başqa sözlə, qeyri-leqal ödənişlər tezliyi artdıqca məhkəmələrin məcbur etmə gücünə olan inanc vergidən yayınmaya mütləq qiymətdə artan tendensiya ilə mənfi təsir etməyə başlayır.

Qiymətləndirmə nəticələri əmək bazarı ilə bağlı tənzimləmələrin vergidən yayınma üzərində əhəmiyyətli təsirinin olmadığını göstərir ($p > 0.10$). Lakin, korrupsiya vergidən yayınma üçün nisbətən əhəmiyyətli faktorlardan biri hesab oluna bilər. Çünki, korrupsiyanın biznes fəaliyyətləri üçün maneə hesab edilmə dərəcəsi ilə vergidən yayınmaya meyillilik arasında 10% əhəmiyyətlilik dərəcəsində statistiki olaraq əhəmiyyətli və müsbət əlaqə var. Bu nəticə başqa müəlliflər tərəfindən əldə olunan tədqiqat nəticələrini dəstəkləyir.

## 6. Nəticə

Vergilər iqtisadi siyasətin yerinə yetirilməsi üçün maliyyə resurslarının təmin edilməsi baxımından olduqca vacib rola malikdir. Optimal vergi dərəcələrinin müəyyənləşdirilməsi xaricində vergi siyasətinin əsas problemlərindən biri də vergidən yayınmaların minimallaşdırılmasıdır və qarşısının alınmasıdır. Vergidən yayınma problemi hər zaman əsas tədqiqat prioritetlərindən biri olmuşdur. İndiyə qədər aparılan tədqiqatlarda vergidən yayınmaya təsir edən çoxsaylı faktorlar əsasən iqtisadi, demoqrafik, davranışsal və leqal və institutsional faktorlar olmaqla 4 qrup şəklində tədqiq olunmuşdur.

Bu məqalədə vergidən yayınmaya təsir edən faktorların Azərbaycan nümunəsində empirik təhlili aparılır. Dünya Bankının dəstəyi ilə 2013-cü ildə Azərbaycanda keçirilən *Enterprise Surveys* nəticələri tədqiqatda məlumat bazası kimi istifadə olunur. Empirik qiymətləndirmədə kəsilən verilənlər əsasında çoxdəyişənli reqressiya tənliyi Ən Kiçik Kvadratlar metodu tətbiq olunmaqla qiymətləndirilmişdir.

Empirik qiymətləndirmə nəticələri götürülmüş iqtisadi faktorlardan yalnız vergi dərəcələrinin vergidən yayınmayı stimullaşdırıcı təsiri olduğunu, miqyas və sektoral təsirin isə sta-

tistik olaraq əhəmiyyətli olmadığını göstərir. Əvvəlki tədqiqatlarda da öz əksini tapdığı kimi vergidən yayınmanın daha çox qeyri-iqtisadi faktorlardan, xüsusilə də leqal və institutsional faktorlardan asılı olduğu qiymətləndirmə nəticələri əsasında öz təsdiqini tapmışdır. Bu zaman diqqət çəkən əhəmiyyətli nəticə firmaların vergi orqanlarının fəaliyyətini öz biznes fəaliyyətləri üçün maneə hesab etmə dərəcəsi ilə vergidən yayınmaya meyillilik arasında müsbət əlaqənin aşkar edilməsidir. Digər ən əhəmiyyətli faktor isə müxtəlif güzəştlər, lisenziya və s. Alınması məqsədiylə qeyri-leqal ödənişlər və hədiyyələrin verilməsi tezliyi və məhkəmə-hüquq sistemin fəaliyyətinə olan inanc səviyyəsi olaraq ortaya çıxır.

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, qeyri-formal ödənişlərin və hədiyyələrin verilməsi tezliyi ilə məhkəmə-hüquq sisteminin fəaliyyətinə olan inanc səviyyəsinin vergidən yayınmaya təsiri bir-birindən asılıdır. Bundan əlavə, respondentlərin korrupsiyanı öz fəaliyyətləri üçün maneə hesab etmə dərəcəsi ilə vergidən yayınma meyilliliyi arasında da müsbət əlaqənin mövcud olduğu öz təsdiqini tapmışdır.

Vergidən yayınmaların qarşısının alınmasının əhəmiyyəti nəzərə alınaraq empirik qiymətləndirmə nəticələri əsasında ilk növbədə məhkəmə-hüquq sisteminin fəaliyyətinə firmaların inancının yüksəldilməsi istiqamətində addımların atılması tövsiyyə olunur. Bu həm də qeyri-leqal ödəniş və hədiyyələrin verilməsi imkanlarını və vergidən yayınmaya təsirini azaltmış olacaq. Bundan başqa, vergi orqanlarını fəaliyyətinin firmalar tərəfindən öz fəaliyyətlərinə maneə hesab edilməyəcək şəkildə qurulması və birbaşa əlaqənin məhdudlaşdırılması da vergidən yayınmaların azaldılmasına öz töhfəsini verə bilər.

Qeyd edək ki, bu tədqiqat 2013-cü ildə aparılan sorğu nəticələri əsasında alınan nəticələri özündə əks etdirir. Buna görə də tədqiqat nəticələrinin hazırki dövr üçün aktuallığı və praktiki əhəmiyyəti haqlı olaraq müzakirə oluna bilər. Buna görə də anoloji sorğunun müstəqil agentlik və ya ekspertlər tərəfindən yenidən keçirilməsi və yenidən empirik qiymətləndirmələrin aparılması tövsiyyə olunur.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Andrew E. T., Jean M. D. "The business environment in Tanzania after socialism: challenges of reforming banks, parastatals, taxation and the civil service". The Journal of Modern African Studies. (2000). 38(4), s. 683-712.
2. Brooks N., Doob A.H. "Tax evasion: Searching for a theory of compliant behavior. In Securing compliance: Seven case studies", ed. M.L. Friedland. (1990), s. 122-164. Toronto: University of Toronto Press.
3. Buehn A., Schneider F. "Shadow economies around the world: novel insights, accepted knowledge, and new estimates". International Tax andPublic Finance. (2012). 19, s.139-171.
4. Chiumya C. "Counteracting tax evasion in Malawi: An analysis of the methods and a quest for improvement". (2006). MPRA (Munich Personal RePEc Archive) Paper No. 9892.
5. Christian C.W., Gupta S. 1993. "New evidence on secondary evasion". Journal of the American Taxation Association. (1993). 16, s.72-93.
6. Collins J.H., Milliron V.C., Toy D.R. "Determinants of tax compliance: A contingency approach". Journal of the American Taxation Association. (1992). 14, s.1-29.
7. Clotfelter C.T. "Tax evasion and tax rates: An analysis of individual returns". The Review of Economics and Statistics. (1983). 65, s. 363-373.
8. Cyan M. R., Koumpias A. M., Martinez-Vazquez J. (2016). "The determinants of tax morale in Pakistan". Journal of Asian Economics. (2016). 47, s. 23-34.
9. Dabla-Norris E., GradStein M., Inchauste G. "What causes firms to hide output? The determinants of Informality". JournalofDevelopmentEconomics. (2008). 85, s. 1-27.
10. Dubin J.A., Wilde L.L. "An empirical analysis of federal income tax auditing and compliance". National Tax Journal. (1988). 41, s. 61-74.

11. Enterprise Surveys (http://www.enterprisesurveys.org), The World Bank.
12. Feinstein J.S. "An econometric analysis of income tax evasion and its detection". RAND Journal of Economics. (1991). 22, s. 14-35.
13. Gabor R. "Relation between tax evasion and Hofstede's model". *European Journal of Management*. (2012). 12(1).
14. Grgić R., Terzić S. "Tax evasion in Bosnia and Hercegovina and business environment". Procedia- Social and Behavioral Sciences. (2014). 119, s. 957-966.
15. Hanno D.M., Violette G.R. "An analysis of moral and social influences on tax behavior". Behavioral Research in Accounting. (1996). 8, s. 57-75.
16. Hite A., Roberts M.L. "An analysis of tax reform based on taxpayers' perceptions of fairness and self-interest". Advances in Taxation. (1992). 4, s. 115-137.
17. International Tax Compact (ITC). "Addressing tax evasion and tax avoidance in developing countries". (2010). https://www.taxcompact.net/documents/2011-09-09_GTZ_Addressing-tax-evasion-and-avoidance.pdf 10.08.2018
18. Jackson B.R., Milliron V.C. "Tax compliance research: Findings, problems and prospects". Journal of Accounting Literature. (1986). 5, s. 125-165.
19. Khlif H., Achek I. "The determinants of tax evasion: a literature review". International Journal of Law and Management. (2015). 57(5), s. 486-497.
20. Klepper S., Nagin D. "The anatomy of tax evasion". Journal of Law Economics and Organization. (1989a). 5, s.1-24.
21. Klepper S., Nagin D. "The role of tax preparers in tax compliance". Policy Sciences. (1989b). 22, s.167-194.
22. Kong F., Wang C. "The Determinants of Tax Evasion: A Literature Review". Gdańskie Studia Azji Wschodniej. (2014). (Zeszyt 5), s. 70-78.
23. Mason R., Calvin L. "A study of admitted income tax evasion". Law and Society Review. (1978). 12, s. 73-89.
24. Mason R., Calvin L. "Public confidence and admitted tax evasion". National Tax Journal. (1984). 37, s. 489-496.
25. Mason, R., Lowry H. "An estimate of income tax evasion in Oregon". (1981). Corvallis, Oregon: Oregon State University, Survey Research Center.
26. Mawajje J. "Tax evasion, informality and the business environment in Uganda". ERPC. *Research Series*. (2013). 113.
27. Milliron V.C., Toy D.R. "Tax compliance: An investigation of key features". Journal of the American Tax Association. (1988). 10, s.84-104.
28. Musayev A.F. "Modernləşdirmə və aktiv vergi siyasəti", Azərbaycanın vergi jurnalı. (2012), 6.
29. Musayev A.F. "Vergi siyasətinin iqtisadi problemləri". CBS "Poliqrafiya". (2004). Bakı, 792 s.
30. Musayev A.F., Qarayev İ.Ə. "Sosial siyasət və iqtisadi inkişaf". Azərbaycanın vergi jurnalı.(2013), 1.
31. Nadirov O., Aliyev K. "Informality, Tax Evasion and the Quality of Business Environment: Evidence from South Caucasian Countries". European Journal of Business Science and Technology. (2015). 1(2), s. 114-127.
32. OECD . "Tax policy reform and economic growth".OECD tax policy studies. (2010), 20.
33. Rauch J. E. "Modeling the informal sector formally". Journal of Development Economics. (1991). 35, s. 33-47.
34. Riahi-Belkaoiu A. "Relationship between tax compliance internationally and selected determinants of tax morale". Journal of International Accounting, Auditing and Taxation. (2004). 13, s. 135-143.
35. Richardson G. "Determinants of tax evasion: a cross-country investigation". Journal of International Accounting, Auditing and Taxation. (2006). 15(2), s. 150-169.
36. Richardson G. "The relationship between culture and tax evasion across countries: additional evidence and extensions". Journal of International Accounting, Auditing andTaxation. (2008). 17(2), s. 67-78.
37. Richardson G. "The Determinants of Tax Evasion: A Cross-Country Study". In *Financial Crimes: Psychological, Technological, and Ethical Issues* (s. 33-57). Springer, Cham. (2016)
38. Richardson M., Sawyer A.J. "A taxonomy of the tax compliance literature: Further findings, problems and prospects". Australian Tax Forum. (2001). 16, s. 137-320.
39. Sarker T.K. "Improving tax compliance in developing countries via self-assessment systems - what could Bangladesh learn from Japan?" Asia-Pacific Tax Bulletin. (2003). 9, s.170-176.

40. Schneider F. "Shadow economies and corruption all over the world: what do we really know?". CESifo Working Paper No. 1806. (2006).
41. Spicer M., Lundstedt S. "Audit probabilities and the tax evasion decision: An experimental approach". Journal of Economic Psychology. (1976). 2, s. 241-245.
42. Song Y., Yarbrough T. "Tax ethics and tax attitudes: A survey". Public Administration Review. (1978). 58, s. 442-452.
43. Spicer M. "A behavioral model of income tax evasion". Unpublished Ph.D. thesis, Ohio State University. (1974).
44. Tanzi V. "Policies, institutions and the dark side of economics". Cheltenham, UK: Edward Elgar. (2000).
45. Tittle C. "Sanctions and social deviance: The question of deterrence". New York: Praeger. (1980).
46. Torgler B., Murphy K. "Tax morale in Australia: what shapes it and has it changed over time?". Journal of Australian Taxation. (2004). 7, s.298-335.
47. Torgler B. "Tax morale and tax evasion: Evidence from the United States". WWZ Discussion Paper 02/-7, Basel, Switzerland. (2003).
48. Tsakumis G.T., Curatola A.P., Porcano T.M. "The relation between national cultural dimensions and tax evasion". Journal of International Accounting, Auditing and Taxation. (2007). 16(2), s.131-147.
49. Vogel J. "Taxation and public opinion in Sweden: An interpretation of recent survey data". National Tax Journal. (1974). 27, s.499-513.
50. Witte A.D., Woodbury D.F."The effect of tax laws and tax administration on tax compliance: The case of the US individual income tax". National Tax Journal. (1985). 38, s. 1-13.

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2018. Volume 2, Number 2* *Pages 108-116*

***UOT:336.01/.02;339.7.01***

# FİSKAL SİYASƏT VƏ İQTİSADİ ARTIM. DÖVLƏT XƏRCLƏRİNDƏ OPTİMALLIQ PRİNSİPLƏRİ

**Ceyhun ABBASOV**
AMEA, İdarəetmə Sistemləri İnstitutu,
Bakı, AZƏRBAYCAN
*ceyhunabbasoglu@gmail.com*

**XÜLASƏ**

Tədqiqat işində dövlət xərclərinin optimal bölgüsünün tədqiqi ilə əlaqədar nəzəri müddəalar müzakirə edilmiş və neftlə zəngin ölkələrdə optimallaşdırma məsələsinin həlli üçün hesablamalar həyata keçirilmişdir. Məlumdur ki, dövlət xərcləri iqtisadi təsnifat üzrə kapital və cari olmaqla iki əsas istiqamətə ayrılır. Bu səbəbdən əsas tədqiqat obyektinə həm də tarazlıq məsələsinin quruluşu və həlli xüsusiyyətləri də daxil edilmişdir.Çünki, hökumətin kapital xərcləri ümumi buraxılışın inputu olduğu halda, cari xərcləri isə ev təsərrüfatlarının faydalılığının endogen dəyişəni olur. Müəyyən olunmuşdur ki, Azərbaycanda dövlət büdcəsinin kapital və cari xərclərinin iqtisadi artıma maksimum təsir etməsi üçün kapital xərclərinin büdcə xərclərindəki payı 24.8%, cari xərclərin payı 75.2% olmalıdır.

**Açar sözlər**: Fiskal xərclər, kapital və cari xərclər, ev təsərrüfatlarının faydalılığı, ümumi buraxılış funksiyası, dayanıqlı iqtisadi artım.

**FISCAL POLICY AND ECONOMIC GROWTH. PRINCIPLES OF OPTIMIZATION OF PUBLIC EXPENDITURE**

**ABSTRACT**

In the research work, the theoretical framework related with the aplication of the optimal composition of Government spending has been discussed and the calculation for solution of optimization problem was carried out for oil rich countries. It is known that, public spending is divided into two major areas - capital and current, as an economic classification. Therefore, the main research object also includes the structure and the solution of the equilibrium issue. Because the Government's capital expenditure is the input of a output function, while current expenditure is an endogenous variable in the households' utility function.It was determined that, the share of capital expenditures in state budget should be 24.8% and the share of current expenditures - 75.2% in order to maximize the economic growth in Azerbaijan.

**Key words**: Fiscal Expenses, capital and current expenses, the households' utility, output function, sustainable economic growth.

**ФИСКАЛЬНАЯ ПОЛИТИКА И ЭКОНОМИЧЕСКИЙ РОСТ. ПРИНЦИПЫ ОПТИМИЗАЦИИ ГОСУДАРСТВЕННЫХ РАСХОДОВ**

**РЕЗЮМЕ**

В исследовательской работе обсуждались теоретические рамки, связанные с применением оптимального состава государственных расходов, и были проведены расчеты для решения проблемы оптимизации для стран, богатых нефтью. Известно, что государственные расходы делятся на две основные области – капитал и текущую, как экономическую классификацию. Поэтому основной объект исследования также включает структуру и решение проблемы равновесия. Поскольку капитальные затраты правительства являются вкладом функция выхода, тогда как текущие расходы являются эндогенной переменной в функции коммунальных хозяйств. Было установлено, что доля капитальных затрат в государственном бюджете должна составлять 24,8%, а доля текущих расходов-75,2%, чтобы максимизировать экономическую роста в Азербайджане.

**Ключевые слова**: Бюджетные расходы, капитальные и текущие расходы, полезность домашнего хозяйства, функция вывода, устойчивый экономический рост.

## 1. Giriş

Fiskal xərclərin bu və ya digər formada bölüşdürülməsinin effektlərinin qiymətləndirilməsi ilə əlaqədar dünya miqyasında məşhur olan tədqiqat işləri kimi Barro [1] və Devarajan

[2] tərəfindən aparılmış tədqiqat işlərini misal göstərmək olar. Həmçinin Chen tərəfindən qiymətləndirilmiş və hökumətin investisiya və istehlak xərcləri ilə iqtisadi artım arasındakı əlaqəyə həsr olunmuş endogen artım modeli də ən çox maraq çəkən metodologiyalardan biridir [3]. O Barronun yanaşmasını əsas götürməklə içtimai istehlak xərclərini ev təsərrüfatlarının faydalılıq funksiyasına, məhsuldar olduğu fərz olunan investisiya xərclərini isə istehsal (ümumi buraxılış) funksiyasına əlavə etmiş və iddia etmişdir ki, məhsuldar içtimai xərclərin geniş payına malik olan ölkələr yüksək iqtisadi artıma da malik olurlar. Göründüyü kimi burada içtimai xərclərin (O hökumətin kapital və istehlak xərclərini nəzərdə tuturdu) mövcudluğu yox onun məhsuldarlığı və ya səmərəliliyi önə çəkilir. Digər tədqiqatçılardan Chen və b. [4], Lee və s. müəlliflər tərəfindən təqdim olunmuş tədqiqat işlərində də həmçinin hökumət büdcəsinin optimal bölüşdürülməsi və onların iqtisadi inkişafdakı rolu ilə əlaqədar maraqlı nəticələrə rast gəlmək olar.

Qeyd olunan bu tədqiqatçıların işləri ilə yanaşı dövlət büdcə xərclərinin optimal bölgüsünün tədqiqinə həsr olunmuş bir sıra digər beynəlxalq və yerli tədqiqat işləri də vardır ki, onlardan bəziləri barədə qısa şərhlər verməyə çalışacağıq. Məsələn; Chen hökumət xərclərinin iqtisadi artıma təsirinin səmərəliliyinin təhlil olunması məqsədi ilə bu xərclərin istehlak və investisya xərcləri arasında optimal bölüşdürülməsi problemini tədqiq etmişdir [5, s. 123-136]. Bundan başqa biz həmçinin Chun-Hung Chen və b. [4, s. 57–74], Yan and Mukai [6, s. 345–371], Pujowidianto, Lee, Chen[7], Hillestad [8, s. 1091-1098] və başqa tədqiqatçıların büdcə xərclərinin optimal bölüşdürülməsi məsələsi ilə əlaqədar təklif etdikləri tədqiqat işləri ilə də tanış olduq.

Bəzi yerli tədqiqat işlərində də bu problemlə yaxından əlaqəli olan problemlərin tədqiqinə rast gəlmək mümkündür. Belə ki, Türkiyədə təşkil olunmuş X Ekonometrika və statistika konfransına təklif edilmiş "Bütçe harclama kanallarının sosyo-ekonomik kalkınma göstergelerine etkisi" adlı tədqiqat işində [9] Azərbaycan iqtisadiyyatı üzrə büdcə xərclərinin fiskal və monetar siyasətin bir sıra göstəricilərinə (inflyasiya, əmək haqqı, ÜDM-in artımı və s.) təsiri ekonometrik qiymətləndirilərək təhlillər aparılmışdır. Bundan başqa Bakı şəhərində «Qloballaşma və regional iqtisadi inkişaf» mövzusunda keçirilən beynəlxalq konfransın "Müasir qloballaşma dövründə davamlı insan inkişafı konsepsiyası və insan kapitalı" adlı materialında investisiya xərcləri, o cümlədən büdcə xərclərinin (Təhsil, elm səhiyyə və s) İnsan kapitalı, İnsan İnkişafı İndeksinə təsirinin ekonometrik modeli verilmişdir.

Qeyd olunduğu kimi işin əsas məqsədi büdcə xərclərinin qeyd olunan xərc maddələri arasında optimal bölgüsünün müəyyən edilməsidir ki, hansı ki, bu bölgüdə büdcə xərclərinin hər nəfərə düşən gəlirlərin artımına maksimum təsiri təmin olunur. Optimallaşdırma kursundan məlumdur ki, xətti və qeyri-xətti proqramlaşdırma məsələləri optimal həllərin tapılmasında geniş istifadə olunurlar.

## 2. Metodologiya və əlaqəli ədəbiyyatlar

Bu problemin metodologiyası iki əsas fundamental makroiqtisadi məsələnin üzərində qurulmuşdur. Belə ki, dövlət xərclərinin iqtisadi artıma maksimum təsirinin tədqiq olunmasında faydalılıq və ümumi buraxılış funksiyalarından istifadə olunur. Gəlin əvvəlcə faydalılıq funksiyası ilə başlayaq. Chakravarty mənfi olmayan elastiklik əmsalı ilə verilən ümumi faydalılıq funksiyasının ilk dəfə D. Bernoul-li tərəfindən təklif olunduğunu göstərmişdir [10, s. 338-355]. Digər tərəfdən isə O optimal yığım səviyyəsini tədqiq edərkən bu məsələnin, yəni optimal yığım səviyyəsinin faydalılıq funksiyasının fonunda iqtisadi artıma təsiri məsələsinin ilk dəfə Ramsey [11, s. 543-559] tərəfindən araşdırıldığını qeyd etmişdir.

Doğrudur bizim problem yığımın optimal səviyyəsinin müəyyənləşdirilməsi problemi deyil, lakin hökumət xərclərinin iqtisadi artıma maksimal təsirinin tədqiqi də məhz faydalılıq funksiyasının strukturu ilə bağlıdır. Bu kontekstdə ilk öncə faydalılıq funksiyasının nəzəri məsələləri barədə müzakirələrimizi qurmağa çalışacağıq. Qeyd olunduğu kimi bu sahədə Ramsey ilk tədqiqatçılardan sayılır və biz müzakirələrimizə onun təqdim etdiyi metodoloji yanaşma ilə başlayacağıq. O belə bir sualı tədqiqatının əsas məqsədi kimi müəyyənləşdirmişdir. Milli gəlirin nə qədər hissəsi yığıma yönəldilməlidir? Ramsey [11, s. 544] $t$ zaman anında istehlakın ümumi həddini *x(t)*, əməyin ümumi həddini *a(t)* və kapitalın ümumi həddini isə *c(t)* ilə işarə edərək gəlirlərə kapitalın və əməyin ümumi funksiyası kimi baxmışdır. Ümumi makro iqtisadi əlaqələrə görə isə O yığım ($\dot{c} = \frac{dc}{dt}$) və istehlakın ($x$) cəmini gəlirlərə bərabər etmişdir. Bunu riyazi olaraq belə göstərmək olar [11, s. 544]:

$$\dot{c} + x = f(a, c) \tag{2.1}$$

O həmçinin U($x$) ilə istehlakın cəmi faydalılığını, V($a$) ilə əməyin cəmi faydasızlığını işarə edərək aşağıdakı ifadələri təhlilə daxil etmişdir [11, s. 544]:

$$u(x) = \frac{dU(x)}{dx} \tag{2.2}$$

$$v(a) = \frac{dV(a)}{da} \tag{2.3}$$

Burada, $u(x)$ istehlakın marjinal faydalılığını, $v(a)$ isə əməyin marjinal faydasızlığını ifadə edir.

Ramsey [11] fərz edir ki, istehlakın marjinal faydalılığı artmayan qanunauyğunluğa, əməyin marjinal faydasızlığı isə azalmayan qanunauyğunluğa malikdirlər. Doğrudan da, hər hansı bir məhsulun istehlakı zamanı hər sonrakı vahidin gətirdiyi faydanın əvvəlki vahidin verdiyi faydadan artıq olması inandırıcı deyil. Eləcə də, hər hansı bir şəxsin əmək sərfi zamanı istifadə etdiyi əməyinin hər sonrakı vahidinin gətirdiyi rahatsızlığın (faydasızlıq) əvvəlki vahidin verdiyi faydasızlıqdan az olacağına inanmaq çətindir. Deməli, $u(x) \leq 0$ və $v(a) \geq 0$ şərtləri bir qayda olaraq ödəniləcəkdir. Ramsey qəbul edir ki, kapitalın (c) verilmiş səviyyəsi sabit qalacaqdır. Bu şərt daxilində O fərdin xalis faydalılığını U(x)-V(a) kimi təyin edir. Məhz bu ifadə xalis faydalılığın maksimumunun tapılmasında əsas funksiya rolunu oynayır. Burada məhdudiyyət şərti isə ev təsərrüfatlarının cəmi istehlakının ölkədə ümumilikdə $a$ qədər əmək və $c$ qədər kapital vasitəsi ilə istehsal olunan məhsula bərabər olması şərtidir. Nəticə etibarı ilə xalis faydalılıq (U(x)-V(a)) kapitalın ($c$) funksiyasına çevriləcəkdir və deməli daha çox kapital daha çox xalis faydalılığı təmin etmiş olacaqdır. Lakin Ramsey qeyd edir ki, kapital səbəbindən xalis faydalılığın artımı iki səbəbdən dayana bilər. Belə ki, mümkündür ki, kapitalın artımı nə gəlirlərin nə də asudə vaxtın artımına səbəb olmasın. Məhz bu fenomeni O bu iki səbəbdən birincisi kimi qeyd etmişdir. Ramsey ikinci səbəb kimi qeyd edir ki, ola bilsin ki, artıq xalis faydalılığın çökük (yuxarıya doğru qabarıq) qrafikində ən yüksək nöqtəyə (maksimum qiymətə) çatılmışdır. Bu halda da O kapitalın artıq istifadəsinin gəlirlərin və asudə vaxtların artımına, dolayısı ilə isə xalis faydalılığın artımına səbəb olmayacağını ifadə etmişdir. Digər hallarda xalis faydalılıq kapitalın artımı ilə həmişə artıma malik olacaqdır. Bu halda yuxarıda qeyd olunan maksimum nöqtənin müəyyənləşdirilməsi mümkün olmasa da müəyyən limit yaxınlaşma ilə maksimum faydalılığa nail oluna bilər. Ramsey bu qiyməti *əldə oluna bilən maksimum faydalılıq* (ing: the maximum obtainable rate of enjoyment) kimi adlandırmışdır. O həmçinin əməyin marjinal gəlirliliyinin istehlakın marjinal faydalılığına hasilinin əməyin mar-

jinal faydasızlığına (rahatsızlığına) bərabər ola bilməsi amilini də irəli çəkərək bunu riyazi olaraq aşağıdakı kimi ifadə etmişdir [11, s. 546]:

$$v(a) = \frac{\partial f}{\partial a} u(x) \qquad (2.4)$$

Biz yuxarıda Ramseyin tədqiqatı ilə tanış olduq. Baxmayaraq ki, onun yanaşması bu fəslin mövzusuna bir-başa aid deyil, lakin bu tədqiqat faydalılıqla bağlı ilkin müddəaların mənbəyi sayıldığından onun haqqında fikir mübadiləsinin təşkil olunmasını məqsədə müvafiq hesab etdik.

Dövlət xərclərinin optimal bölüşdürülməsi və iqtisadi artım məsələsi ilk dəfə Barro tərəfindən tədqiq edilmişdir [12, s. 103-125]. O "Government Spending in a Simple Model of Endogeneous Growth" adlı əsərində dövlət xərclərinin iqtisadi artıma maksimum təsir edə biləcək optimal bölgüsünün müəyyənləşdirilməsi metodologiyasını işləyib hazırlamışdır. Onun konsepsiyası sabit gəlirli kapitala əsaslanan endogen artım modelinin üzərində qurulmuşdur. Barro fərz edir ki, hökumətin bütün xərcləri investisya (ing: productive) xarakterli xərclərdir [12]. Onun fikrincə sonsuz həyat, qapalı iqtisadiyyat şərtləri daxilində ev təsərrüfatları həmişə özünün faydalılığını maksimum etməyə rasional reaksiya göstərir. O qeyd olunan fadalılığı aşağıdakı funksiya ilə vermişdir [12, s. 104]:

$$U = \int_0^{\infty} u(c) e^{-pt} dt \qquad (2.5)$$

Burada, *c* hər nəfərə düşən istehlak, *p*>0 sabit zaman effekti, *u(c)* isə faydalılıq funksiyasıdır. Bu funksiyanı Barro əhalinin, dolayısı ilə işçilərin və istehlakçıların sayının sabit qalması fərziyyəsini qəbul edərək aşağıdakı kimi vermişdir [12, s. 104]:

$$u(c) = \frac{c^{1-\sigma} - 1}{1-\sigma} \qquad (2.6)$$

Burada, $\sigma>0$ marjinal faydalılığın sabit olması şərtini göstərir.

Doğrudan da,

$$\frac{du(c)}{dc} = c^{-\sigma} \qquad (2.7)$$

Növbəti mərhələdə Barro istehsal funksiyasını aşağıdakı formada vermişdir. Hansı ki, bu funksiya oprimallaşdırma məsələsinin məhdudiyyət şərtlərindən biri olacaqdır [12, s. 104].

$$y = f(k) \qquad (2.8)$$

Burada, *y* hər işçiyə düşən buraxılış, *k* isə hər işçiyə düşən kapitalı ifadə edir. O fərz edir ki, əmək qüvvəsi tam məşğulluq şəraitindədir və işçilərin boşdayanmaları mövcud deyil. Barro göstərir ki, (2.5) ifadəsi ilə təyin olunan ev təsərrüfatlarının toplam faydalılığı istehlak xərclərinin artım tempinin aşağıdakı kimi təyin olunmasına imkan yaradır [12, s. 105].

$$\frac{\dot{c}}{c} = \frac{1}{\sigma}(f' - p) \qquad (2.9)$$

Burada, $f'$ kapitalın marjinal buraxılışı, *p*>0 sabit zaman effekti, $\sigma>0$ (2.6)-da marjinal faydalılığın sabit olması şərtini göstərir.

Fəslin metodoloji əsasları ilə bağlı müzakirələrimizə S. Devarajan, V. Swaroop, və H. Zounun birgə müəllifliyi ilə yazdıqları "The composition of public expenditure and economic growth" adlı tədqiqat işinin müzakirəsi ilə davam edəcəyik [2]. Bundan sonra bu müəllifləri "Deverajan və b." adı altında təqdim edəcəyik. Yuxarıda qeyd etdik ki, Barro [12] hökumət

xərclərini yalnız bir tip olaraq (investisya xarakterli) qəbul etmişdir və özünün modelini bu fərziyyənin əsasında qurmuşdur. Ondan fərqli olaraq Deverajan və b. [2] hökumətin xərclərini investisiya xarakterli (ing: productive) və qeyri-investisiya xarakterli (ing: unproductive) olmaqla iki müxtəlif tip altında quruplaşdıraraq hökumət xərclərinin optimal proporsiyasını tədqiq etmişlər. Onların inkişaf etdirdikləri model hökumət xərclərinin bu iki istiqamət üzrə elə blgüsünü müəyyən edir ki, bu bölgüdə hökumətin xərcləri iqtisadiyyatın uzun müddətli artım tempinə maksimum müsbət təsir etmiş olur. Qeyd olunan tədqiqat işində müəlliflər məcmu istehsal funksiyasının üç arqumentdən – içtimai məcmu kapitaldan (k), investisiya xarakterli ($g_1$) və qeyri-investisiya xarakterli ($g_2$) hökumət xərclərindən asılı olduğunu fərz etmiş və bu istehsal funksiyasını CES (sabit əvəzetmə elastikliyinə malik istehsal funksiyası) tipli istehsal funksiyası kimi qiymətləndirmişlər. Beləliklə, Deverajan və b. optimallaşdırma məsələsini aşağıdakı kimi qurmuşlar [2, s. 316]:

Məqsəd funksiyası:

$$U = \int_0^{\infty} u(c)e^{-pt}dt \quad (2.10)$$

Burada,

$$u(c) = \frac{c^{1-\sigma}-1}{1-\sigma}$$

Məhdudiyyət şərtləri:

$$y = f(k, g_1, g_2) = \left[\alpha k^{-\xi} + \beta k^{-\xi} + \gamma k^{-\xi}\right]^{-\frac{1}{\xi}} \quad (2.11)$$

$$\tau y = g_1 + g_2 = g \quad (2.12)$$

$$g_1 = \phi\tau y \quad (2.13)$$

$$g_2 = (1-\phi)\tau y \quad (2.14)$$

$$\dot{k} = (1-\tau)y - c \quad (2.15)$$

Burada, $\alpha > 0$, $\beta \geq 0$, $\gamma \geq 0$, $\alpha + \beta + \gamma = 1$, $\xi \geq -1$ (sabit əvəzetmə elastikliyi), $\tau$ vergi daxilolmalarının ÜDM-də payı, $y$ümumi daxili məhsul (buraxılış), $\tau y$ hökumətin gəlirləri, $k$ içtimai məcmu kapital, $c$ istehlak xərcləri, $\phi$ investisya xarakterli ($g_1$) hökumət xərclərinin, $(1-\phi)$ isə qeyri-investisiya xarakterli ($g_2$) hökumət xərclərinin onun gəlirlərində payıdır.

Deverajan və b. [2] (2.10)-(2.15) optimizasiya məsələsini həll etməklə istehlak xərclərinin artım tempini Barroda [12] olduğu kimi (2.9) tənliyi vasitəsi ilə təyin etmişdilər.

Bu sahədə mövcud olan digər bir maraqlı tədqiqat işi Sugata Ghosh və Andros Gregoriou [13] tərəfindən aparılmış tədqiqat işidir. Bu iş "The Composition of Government Spending and Growth: Is Current or Capital Spending Better?" adı altında 2008-ci ildə nəşr olunmuşdur. Sugata Ghosh və Andros Gregoriou demək olar ki, Deverajan və b. Tərəfindən istifadə olunmuş modeldən istifadə etmişlər. Lakin, onlar Deverajan və b.-ından [2, s. 317] fərqli olaraq Barronun (2.9) tənliyini aşağıdakı kimi vermişlər [13, s. 488]:

$$\frac{\dot{c}}{c} = (1-\tau)\frac{\partial y}{\partial k} - p \quad (2.16)$$

Burada, istifadə olunan bütün parametrlər Deverajan və b. Tərəfindən istifadə olunduğu kimi eyni mənalara malikdirlər.

İndi isə gəlin daha bir tədqiqat işi barədə müzakirə aparaq. Bu tədqiqat işi Been-Lon Chen tərəfindən reallaşdırılmışdır [14]. O 2006-cı ildə yazmış olduğu "Economic Growth with an

Optimal Public Spending Composition" adlı məqaləsində hökumət xərclərinin iqtisadi artıma optimal təsir imkanlarını araşdırmışdır. Professor Chen Barronun əsas metodologiyasına əsaslanmışdır. Lakin O Deverajan və b., Sugata Ghosh və Andros Gregoriou kimi müəlliflərdən müəyyən qədər fərqli yanaşma irəli sürmüşdür. Əslində Been-Lon Chen də həmçinin Deverajan və b., Sugata Ghosh və Andros Gregoriou və başqa müəlliflər kimi Barrodan fərqli olaraq hökumətin xərclərini investisiya xarakterli (ing: productive) və istehlak xarakterli (ing: consumptive) (və yaxud qeyri-investisiya xarakterli (ing: unproductive)) olmaqla iki müxtəlif tipə ayırmışdır. Lakin bu müəlliflərdən fərqli olaraq O hökumətin istehlak xarakterli (ing: consumptive) xərclərini ev təsərrüfatlarının faydalılığının komponenti kimi, hökumətin investisya xarakterli (ing: productive) xərclərini isə məcmu buraxılışın komponenti kimi təqdim etmişdir [14, s. 126]. Bundan başqa Been-Lon Chen məcmu buraxılış funksiyası kimi Cobb-Douglas istehsal funksiyasından istifadə etmişdir. O Barronun [12] əsas fikrinə söykənərək iqtisadiyyatı sonsuz və kəsilməz proseslə, reprezentativ ev təsərrüfatlarının (han-sı ki, ölçüsünü (sayını) sabit fərz edir) mövcudluğu ilə xarakterizə etmişdir. Bundan başqa reprezentativ firmalar (hansı ki, bəlli istehsal proseslərinə malikdirlər ki, ev təsərrüfatları da bu istehsal prosesinin hissəsidir) və hökumət də iqtisadi prosesdə iştirak edirlər. Qeyd olunan bu fikirlər əsasında Been-Lon Chen optimallaşdırma məsələsini aşağıdakı kimi qurmuşdur [14, s. 126]:

Məqsəd funksiyası:

$$U = \int_0^{\infty} u(c)e^{-pt}dt \tag{2.17}$$

Burada,

$$u(c) = \frac{[c(t)^{\alpha} g_c(t)^{1-\alpha}]^{1-\sigma} - 1}{1-\sigma}$$

*c(t) t* zamanında istehlak xərcləri, $g_c(t)$ hökumətin *t* zamanında istehlak xərcləri, $p > 0$ zaman effekti parametri (Zamana görə dəyişmə həddi. Bu parametr sabit kimi fərz olunur), $0 < \alpha < 1$ və $0 < 1 - \alpha < 1$ müvafiq olaraq ev təsərrüfatlarının və hökumətin istehlak xərclərinin ev təsərrüfatlarının faydalılığında təsir payları, $\sigma$ isə əvəzetmənin elastiklik parametridir.

Məhdudiyyət şərtləri:

$$y(t) = Ak(t)^{\beta} g_I(t)^{1-\beta} \tag{2.18}$$

Burada, *y(t) t* zamanında hər nəfərə düşən məcmu buraxılış, *k(t) t* zamanında hər nəfərə düşən kapital ehtiyatı, $g_I(t)$ hər nəfərə düşən hökumətin *t* zamanında investisiya xarakterli (ing: productive) xərcləri, $A > 0$ texnaloji məhsuldarlıq səviyyəsi, $\beta$ və $1 - \beta$ müvafiq olaraq hər nəfərə düşən kapital ehtiyatının və hökumətin investisiya xarakterli (ing: productive) xərclərinin məcmu buraxılış funksiyasında təsir paylarıdır.

$$T(t) = \tau y(t) = g_c(t) + g_I(t) = g(t) \tag{2.19}$$

$$g_c(t) = s\tau y(t) \tag{2.20}$$

$$g_I(t) = (1 - s)\tau y(t) \tag{2.21}$$

$$\dot{k} = (1 - \tau)y(t) - c(t) \tag{2.22}$$

Burada, $\tau$ vergi daxilolmalarının ÜDM-də payı, $\tau y(t) t$ zamanında hökumətin gəlirləri, *s* istehlak xarakterli ($g_c(t)$) hökumət xərclərinin, (1-s) isə investisiya xarakterli ($g_I(t)$) hökumət xərclərinin onun gəlirlərində payıdır.

## 3. Büdcə xərclərinin səmərəliliyinin qiymətləndirilməsi

Beləliklə, yuxarıda müzakirə olunmuş nəzəri çərçivələrdən istifadə etməklə aparılmış hesablamalar nəticəsində dövlət büdcəsinin kapital xərclərinin optimal payının təyin olunması üçün optimallıq şərti aşağıdakı kimi müəyyən olunmuşdur:

Əgər $\omega_1^*$ dövlət büdcəsinin kapital xərclərinin optimal payıdırsa, hansı ki, bu bölgü ilə hökumət dayanıqlı iqtisadi artıma maksimum təsir edə biləcək, onda ümumi buraxılış funksiyasında $f_{g_1}$ və $f_{g_2}$ bərabər olmalıdırlar. Burada, $f$ ümumi buraxılış funksiyasıdır.

Deməli, $f_{g_1} - f_{g_2} = 0$ tənliyinin dövlət büdcəsinin kapital xərclərinin payına ($\omega_1$) nəzərən həlli bizə dövlət büdcə xərclərinin optimal bölgüsünü ($\omega_1^*$) verir. Beləliklə, əgər $\omega_1^*$ optimal həldirsə, onda dayanıqlı iqtisadi artımın ($\mu$) dövlət büdcəsinin kapital xərclərinin payına ($\omega_1$) nəzərən törəməsi bu nöqtənin ($\omega_1^*$) sol tərəfində müsbət ($\mu_{\omega_1} > 0$), sağ tərəfində isə mənfi ($\mu_{\omega_1} < 0$) olacaqdır. Bu belə bir məntiqi nəticəyə gəlməyə imkan verir ki, əgər $f_{g_1} > f_{g_2}$ olarsa, onda dayanıqlı iqtisadi artımın büdcənin kapital xərclərinə nəzərən törəməsi müsbət, yox əgər $f_{g_1} < f_{g_2}$ şərti mövcud olarsa, onda qeyd olunan marjinal dayanıqlı iqtisadi artım mənfi olacaqdır.

Bu bölmədə büdcə xərclərinin səmərəliliyi optimallaşdırma məsələsi vasitəsi ilə araşdırılmışdır. Optimallaşdırma məsələsi büdcə xərclərinin hər nəfərə düşən gəlirlərə maksimum təsirirnin müəyyənləşdirilməsi kimi qoyulmuşdur. Büdcə xərclərinin kapital və cari xərc maddələri arasında optimal bölüşdürülməsi məsələsinin nəzəri-metodoloji xüsusiyyətləri 2-ci bölmədə ətraflı müzakirə olunmuşdur. Əgər $\omega_1^*$ dövlət büdcəsində kapital xərclərinin optimal payı olarsa, onda istehsal və yaxud ümumi buraxılış funksiyasının dövlət büdcəsinin kapital xərclərinə nəzərən birinci tərtib törəməsi ($f_{g_1}$) ümumi buraxılış funksiyasının dövlət büdcəsinin cari xərclərinə nəzərən birinci tərtib törəməsinə ($f_{g_2}$) bərabər olmalıdır. Burada, $f$ istehsal və yaxud ümumi buraxılış funksiyasıdır. Bu funksiya empirik olaraq Abbasov və Gulaliyev [15] tərəfindən qiymətləndirilmişdir. Bu tədqiqat işində biz bu funksiyadan Azərbaycanın ümumi buraxılış funksiyası kimi istifadə edəcəyik. Bu funksiyadan $f_{g_1}$ və $f_{g_2}$ marjinal ifadələrini aşağıdakı kimi təyin edə bilərik:

$$f_{g_1} = \delta_2 \frac{1}{g_1} \tag{3.1}$$

$$f_{g_2} = \delta_3 \frac{1}{g_2} \tag{3.2}$$

Burada, $f$Abbasov və Gulaliyev [15] tərəfindən qiymətləndirilmiş istehsal və yaxud ümumi buraxılış funksiyasını, $g_1$ və $g_2$ uyğun olaraq dövlət büdcəsinin kapital və cari xərclərini, $\delta_2$ və $\delta_3$ uyğun olaraq dövlət büdcəsinin kapital və cari xərclərinin verilmiş empirik istehsal funksiyasındakı əmsallarını ifadə edir.

Beləliklə, Yuxarıda qeyd olunduğu kimi dövlət büdcəsinin kapital və cari xərclərinin istehsala və ya ümumi buraxılışa maksimum təsir etməsi üçün $f_{g_1}$ və $f_{g_2}$ bir-birinə bərabər olmalıdır. Bunu aşağıdakı kimi yaza bilərik:

$$\delta_2 \frac{1}{g_1} = \delta_3 \frac{1}{g_2} \tag{3.3}$$

(3.3) eyniliyində verilmiş $g_1$ və $g_2$ müvafiq olaraq dövlət büdcəsinin kapital və cari xərclərinin məbləğləridir. $\delta_2$ və $\delta_3$ əvvəlki bölmədə aparılmış qiymətləndirmələrdə $\delta_2 = 0.10$, $\delta_3 = 0.30$ kimi əldə olunmuşdur. Bu nəticəni (3.3)-də nəzərə alsaq,

$0.10\frac{1}{g_1} = 0.30\frac{1}{g_2}$

$0.10g_2 = 0.30g_1$

$g_1 = 0.33g_2$ (3.4)

olduğunu alarıq.

(1.47) və (1.48) şərtlərini (3.4) bərabərliyində yerinə yazaq və müəyyən çevrilmələr aparaq.

$\omega_1\tau y(1-\theta)^{-1} = 0.33\omega_2\tau y(1-\theta)^{-1}$

$\omega_1 = 0.33(1-\omega_1)$

$1.33\omega_1 = 0.33$

$\omega_1^* = 0.248$ və $\omega_2^* = 0.752$ (3.5)

Beləliklə, müəyyən olundu ki, Azərbaycanda dövlət büdcəsinin kapital və cari xərclərinin iqtisadi artıma maksimum təsir etməsi üçün kapital xərclərinin büdcə xərclərindəki payı 24.8%, cari xərclərin payı 75.2% olmalıdır. İndi isə əldə olunmuş optimallıq şərtindən istifadə etməklə dövlət büdcəsi xərclərinin səmərəliliyini təhlil edək. Məsələn, 2017-ci ilin 3-cü rübündə faktiki xərclənmiş kapital və cari xərclərin məbləğlərindən istifadə etməklə faktla optimal bölgüləri müqayisə edək. Qeyd olunan dövürdə dövlət büdcəsinin kapital xərcləri ($g_1$) nominal olaraq 1332.3 mln. manat, cari xərcləri ($g_2$) isə 2985.9 mln. manat təşkil etmişdir. Bu məlumatlardan istifadə etməklə 2017-ci ilin 3-cü rübündə dövlət büdcəsinin kapital və cari xərclərinin faktiki bölgüsünü aşağıdakı kimi müəyyən edə bilərik:

$\omega_1 = \frac{1332.3}{1332.3+2985.9} = 0.309$ (3.6)

$\omega_2 = \frac{2985.9}{1332.3+2985.9} = 0.691$ (3.7)

Optimal bölgüyə əsaslansaq onda 2017-ci ilin 3-cü rübündə dövlət büdcəsinin kapital və cari xərclərinin payları müvafiq olaraq 24.8% və 75.2% təşkil etməli idi. Lakin göründüyü kimi faktiki bölgü optimal bölgüdən müəyyən mənada kənarlaşmışdır. Qeyd etməliyik ki, reallıqda hökumət xərclərinin faktiki bölgüsünün optimal bölgülərə tam yaxın olması nadir halda mümkün ola bilər. Əsas məsələ bu kənarlaşmanın nə dərəcədə olmasının aydınlaşdırılmasından ibarətdir.

İndi gəlin (3.3)-də verilmiş optimallıq prinsipini yoxlayaq. Bunun üçün əvvəlki bölmədə aparılmış qiymətləndirmələrdə əldə olunmuş $\delta_2 = 0.10$ və $\delta_3 = 0.30$ əmsallarını və 2017-ci ilin 3-cü rübündə dövlət büdcəsinin kapital və cari xərclərinin nominal məbləğlərini (3.3)-də nəzərə alaq. Bunu aşağıdakı kimi edəcəyik:

$f_{g_1} = \delta_2\frac{1}{g_1} = \frac{0.10}{1332.3} = 0.00008 < f_{g_2} = \delta_3\frac{1}{g_2} = \frac{0.30}{2985.9} = 0.0001$ (3.8)

## 4. Nəticə

Beləliklə empirik təhlil göstərdi ki, 2005Q1-2017Q3 dövrü üçün Azərbaycanda ümumi buraxılış funksiyasının dövlət büdcəsinin kapital xərclərinə nəzərən marjinal dəyəri (birinci tərtib törəməsi) bu funksiyanın dövlət büdcəsinin cari xərclərinə nəzərən marjinal dəyərindən kiçik olmuşdur ($f_{g_1} < f_{g_2}$). Lakin müəyyən edildiyi kimi dövlət büdcəsinin kapital xərcləri o vaxt məhsuldar sayıla bilər ki, $f_{g_1} > f_{g_2}$ olsun. Başqa sözlə, dayanıqlı iqtisadi artımın dövlət büdcəsinin kapital xərclərinin payına nəzərən birinci tərtib törəməsi ($\mu_{\omega_1}$) o vaxt müsbət ola bilər ki, $f_{g_1} > f_{g_2}$ şərti ödənilsin. Tədqiqatın nəticəsi isə göstərdi ki, əksinə 2017-ci ilin 3-cü rü-

bündə ümumi buraxılış funksiyasının dövlət büdcəsinin kapital xərclərinə nəzərən birinci tərtib törəməsi, dövlət büdcəsinin car xərclərinə nəzərən birinci tərtib törəməsindən kiçikdir ($f_{g_1} < f_{g_2}$). Bu isə o deməkdir ki, büdcənin kapital xərcləri məhsuldar olmamışdır. Onun payının daha da yüksəldilməsi ölkənin dayanıqlı iqtisadi artımının dəyişiminə müsbət təsir etməyəcəkdir. Biz bu təhlili 2018-ci il üçün genişləndirə bilərik. Beləki, 2018-ci ildə dövlət büdcəsinin xərclərinin 20905.7 mln. manat olması proqnozlaşdırılır [16, s.22]. Deməli əgər dövlət bu xərclərin 5184.6 mln. manatını kapital yönümlü, 15721.1 mln. manatını isə cari xərclərə yönəltsə onda büdcə vəsaitinin bu cür xərclənməsi iqtisadi artıma maksimum artırıcı təsir göstərəcəkdir. Dövlət büdcəsinin səmərəliliyinin təhlili nəticəsində müəyyən edildi ki, Azərbaycanda dövlət büdcəsinin kapital və cari xərclərinin iqtisadi artıma maksimum təsir etməsi üçün kapital xərclərinin büdcə xərclərindəki payı 24.8%, cari xərclərin payı 75.2% olmalıdır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**


1. Barro R. J. Government Spending in a Simple Model of Endogeneous Growth // Journal of Political Economy, Vol. 98, No. 5, Part 2: The Problem of Development: A Conference of the Institute for the Study of Free Enterprise Systems (Oct., 1990), pp. S103-S125, 1990
2. Devarajan, S., Swaroop, V., and Zou, H. The composition of public expenditure and economic growth // Journal of Monetary Economics, 37, 313-344, 1996
3. Been-Lon Chen. Economic Growth with an Optimal Public Spending Composition // Oxford Economic Papers, Vol. 58, No. 1, pp. 123-136, 2006
4. Chen C. H., Donohue K., Yücesan E., Lin J. Optimal computing budget allocation for Monte Carlo simulation with application to product design // Simulation Modelling Practice and Theory, 11, pp. 57–74, 2003
5. Chen B. L. Economic Growth with an Optimal Public Spending Composition // Oxford Economic Papers, Vol. 58, No. 1, pp. 123-136, 2006
6. Yan D. and Mukai H. Optimization algorithm with probabilistic estimation // Journal of Optimization Theory and Applications, Volume 79, Issue 2, pp 345–371, 1993
7. Pujowidianto N. A., Lee L. H., Chen C. H. Optimal Computing Budget Allocation for constrained optimization / In proceedings of the 2009 Winter Simulation Conference, Institute of Electrical and Electronics Engineers, Inc., 2009
8. Hillestad R. J. Optimization Problems Subject to a Budget Constraint with Economies of Scale // Operations Research, Vol. 23, No. 6, pp. 1091-1098, 1975
9. Hasanli Y., Bulut C., Valiyev V., Baxışov N. Bütçe harclama kanallarının sosyo-ekonomik kalkınma göstergelerine etkisi // X Ekonometri ve istatistik sempozyumu bildiriler özet kitapçığı, Erzurum, Ataturk Unversitesi / Türkiye, 27-29 Mayıs, 2009
10. Chakravarty S. Optimal Savings with Finite Planning Horizon // International Economic Review, Vol. 3, No. 3 (Sep., 1962), pp. 338-355
11. Ramsey F. P. A Mathematical Theory of Saving // The Economic Journal, Vol. 38, No. 152 (Dec., 1928), pp. 543-559, 1928
12. Barro R. J. Government Spending in a Simple Model of Endogeneous Growth // Journal of Political Economy, Vol. 98, No. 5, Part 2: The Problem of Development: A Conference of the Institute for the Study of Free Enterprise Systems (Oct., 1990), pp. S103-S125, 1990
13. Ghosh S. and Gregoriou A. The Composition of Government Spending and Growth: Is Current or Capital Spending Better? // Oxford Economic Papers, New Series, Vol. 60, No. 3, pp. 484-516, 2008
14. Chen B. L. Economic Growth with an Optimal Public Spending Composition // Oxford Economic Papers, Vol. 58, No. 1, pp. 123-136, 2006
15. Abbasov J. and Gulaliyev E. (2018).
16. Azərbaycan Respublikasının Mərkəzi Bankı, Aylıq Statistik Bülletenləri. 2005-2014 s.4, s.7.

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2018. Volume 2, Number 2* *Pages 117-128*

*UOT: 338.2*

# AZƏRBAYCANIN ÜMUMİ TARAZLIQ MODELİ (AZMOD) ƏSASINDA KAPİTAL QOYULUŞLARININ ÖLKƏ İQTİSADİYYATINA TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Arzu SÜLEYMANOV, Rauf MUSAYEV**
İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu
Bakı / AZƏRBAYCAN
*suleymanov.arzu@gmail.com, musayev.rauf@yahoo.com*

**XÜLASƏ**

Məqalədə Azərbaycan iqtisadiyyatı üçün Ümumi Tarazlıq Modeli- AzMOD əsasında kapitaldan istifadəyə vergilərin dəyişməsi konteksində ssenari qiymətləndirməsi yerinə yetirilmişdir. AzMOD modeli Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi təqdim etdiyi Milli Hesablar Sistemini (MHS) bütövlükdə əhatə etməklə BMT-nin təlimatlarına tam uyğun şəkildə Azərbaycanın iqtisadiyyatını tam müfəssəl əks etdirən Sosial Hesablar Matrisi (SHM) bazasında İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda hazırlanmışdır. Kapitaldan istifadəyə vergilərin artırılıb azaldılması nəticəsində makroiqtisadi effektlər iqtisadi fəaliyyət növləri nöqteyi-nəzərindən qiymətləndirilmişdir.

Alınmış nəticələr göstərir ki, kapitaldan istifadəyə vergilərin artması dövlət gəlirlərini və xərclərini artırmaqla dövlət sektorunun payının yüksək olduğu sahələrdə müsbət təsirlər, lakin ümumilikdə cəmi investisiyaların həcmini azaldaraq ÜDM-ə mənfi təsir edəcəkdir. Həmçinin vergilərin artırılması əmək bazarına, o cümlədən sosial-iqtisadi göstəricilərə də mənfi təsir etmişdir. Eyni zamanda, kapitaldan istifadəyə vergilər azaldılarkən dövlət gəlir və xərcləri azalmışdır. Xalis ixrac azalmasına baxmayaraq cəmi investisiyalar, ÜDM və əmək bazarı göstəricilərində müsbət təsirlər alınmışdır.

**Açar sözlər:**Ümumi Tarazlıq Modeli, Kapital qoyuluşları, iqtisadi siyasət, makroiqtisadi təsirlər, dövlətin gəlir və xərcləri, Sosial Hesablar Matrisi.

## EVALUATION OF CAPITAL INVESTMENTS TO COUNTRY ECONOMY BASED ON GENERAL EQUİLİBRİUM MODEL FOR AZERBAİJANİ ECONOMY (AZMOD)

**ABSTRACT**

In this article scenario assessment was performed in the context of the change of tax on capital use, based on General Equilibrium Model for Azerbaijani Economy - AzMOD The AzMOD model covers the entire National Accounts System (MHS), which is officially presented by the State Statistical Committee of the Republic of Azerbaijan, developed at the Institute for Scientific Research on Economic Reforms based on the Social Accounts Matrix (SHM) which fully reflects Azerbaijan's economy in full compliance with UN guidelines. Macroeconomic effects have been assessed from the point of view of economic activity as a result of the reduction of taxes on capital utilization.

The results show that the increase in taxation on capital will have a positive impact on sectors with a high share of the public sector by increasing public revenues and expenditures, but in general will have a negative impact on GDP by reducing the total investment size. Also, a tax increase has had a negative impact on the labor market, including on socio-economic indicators. At the same time, lowering taxes on the use of capital led to a reduction in government revenues and expenditures. Despite the decline in net exports, total investment had a positive effect on GDP and labor market indicators.

**Key words:**General Equilibrium Model, Capital Investments, economic policy, macroeconomic effects, government revenue and expenditure, Social Accounts Matrix.

## ОЦЕНКА ВОЗДЕЙСТВИЯ КАПИТАЛОВЛОЖЕНИЙ В ЭКОНОМИКУ СТРАНЫ НА ОСНОВЕ МОДЕЛИ ОБЩЕГО РАВНОВЕСИЯ (AZMOD)

**РЕЗЮМЕ**

В статье дается оценка сценарий в контексте изменения налога на использование капитала на основе модели общего равновесия для экономики Азербайджана - AzMOD. Модель AzMOD была разработана Научно-Исследовательским Институтом Экономических Реформ на основе Матрицы Социальных Счетов

(МСС), которая в целом отражает экономику Азербайджана в полном соответствии с руководящими принципами ООН путем интеграции Системы национальных счетов (СНС), официально представленной Государственным Комитетом по Статистике Азербайджанской Республики. Макроэкономические эффекты были оценены по видам деятельности экономики в результате повышения или снижения налогов на использование капитала. Результаты показывают, что увеличение налогообложения капитала окажет положительное влияние на отрасли с высокой долей государственного сектора за счет увеличения государственных доходов и расходов, но в целом окажет негативное влияние на ВВП за счет сокращения общего объема инвестиций. Также повышение налогов оказало негативное влияние на рынок труда, в том числе на социально-экономические показатели. В то же время, при снижении налогов на использование капитала, сократились государственные доходы и расходы. Несмотря на сокращение чистого экспорта, общий объем инвестиций оказал положительное влияние на ВВП и показатели рынка труда.

**Ключевые слова:**модель общего равновесия, капитальные вложения, экономическая политика, макроэкономические эффекты, доходы и расходы государства, матрица социальных счетов.

## Giriş

Azərbaycanın sosial-iqtisadi inkişafının hazırkı mərhələdə əsas vəzifəsi sahələrarası əlaqələri nəzərə almaqla səmərəli investisiya siyasəti əsasında məhsul və xidmətlərin rəqabət qabiliyyətini artırmaq və ümumilikdə, innovasiya dayanıqlı ixrac potensialının artırılmasını təmin edən qeyri-neft sektorunun tarazlı inkişafına nail olmaqdır. Məhz bu səbəbdən, bütün iqtisadiyyatı və qarşılıqlı asılılıqları özündə birləşdirən və qeyri-xətti əlaqələri qiymətləndirməyə imkan verən və hal-hazırda dünya praktikasında geniş istifadə olunan Ümumi Tarazlıq Modellərindən istifadə olunması qarşıya qoyulmuş məqsədlərə çatmaqda faydalı hesab edilir.

Ümumi Tarazlıq Modellərinin qurulmasında əsas mərhələ məlumat bazasının formalaşdırılmasıdır. Bu modellərin məlumat bazası məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası balansı və Milli Hesablar Sisteminin (MHS) göstəriciləri əsasında formalaşdırılır.

Balans modelləri, Sosial Hesablar Matrisi (SHM) və onların multiplikator modelləri, eyni zamanda Ümumi Tarazlıq Modelləri istiqamətində İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun kifayət qədər təcrübəsi vardır. Belə ki, İnstitutda Azərbaycanın Ümumi Tarazlıq Modeli- AzMOD işlənmişdir.

Qeyd edək ki, Azərbaycanın Ümumi Tarazlıq Modeli- AzMOD əsasında investisiyaların əsas makroiqtisadi göstəricilərə təsirlərinin dövlət iqtisadi siyasəti baxımından analiz edilməsi iqtisadi proseslərdə və qərarların qəbul edilməsi istiqamətində mühüm rol oynayır. Bu məqsədlə də tədqiqat işində AzMOD modeli vasitəsilə kapitaldan istifadəyə vergilərin dəyişməsi əsasında ssenari qiymətləndirməsi yerinə yetirilmişdir.

## 1. Ədəbiyyat xülasəsi

Sahələrarası əlaqələri nəzərə almaqlavə SHM əsasında formalaşan ümumi tarazlıq modellərivasitəsilə iqtisadi təsirlərin öyrənilməsi həm yerli, həm də xarici ekspert və tədqiqatçıların daim tədqiqat obyekti olmuş və onların əsərlərində tədqiq olunmaqla müxtəlif ölkələr timsalında işlənilmişdir.

Yerli iqtisadçı alimlərdən idtisad elmləri doktoru, professor Yadulla Həsənli elmi əsərlərində həm balans modelləri, həm də ümumi tarazlıq modelləri əsasında tədqiqatlara geniş yer vermişdir [1].

İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda da balans modelləri və onların müxtəlif modifikasiya modelləri əsasında təsir analizlərinin aparılması istiqa-

mətində kifayət qədər işlər görülmüşdür. Məhz bu vəsilə ilə də Azərbaycanın Ümumi Tarazlıq Modeli- AzMOD İnstitutda işlənərək yerinə yetirilmişdir [2].

Bundan başqa qeyd edə bilərik ki, hazırda bir çox dövlət qurumlarında iqtisadi siyasətin həyata keçirilməsi və təsir analizlərinin aparılması baxımından balans modelləri, Ümumi Tarazlıq Modelləri və Dinamik Stoxastik Ümumi Tarazlıq Modelləri geniş istifadə olunur. Daha çox İqtisadiyyat Nazirliyi və Mərkəzi Bankın tədqiqatlarında qeyd olunan istiqamətlərdə işlərin olduğunu görmək mümkündür.

Dünya təcrübəsində də ümumi tarazlıq modellərindən geniş istifadə olunur. Dünya Bankı, Asiya İnkişaf Bankı, Ecomod Network kimi təşkilatlar bu istiqamətdə kifayət qədər işlər görmüş, eyni zamanda bu təcrübələri inkişaf etməkdə olan ölkələr nümunəsində praktiki tətbiq etmişlər.

Benjamin H. Mitra-Kahn çap etdirdiyi məqaləsində Hesablanabilən Ümumi Tarazlıq Modellərinin makroiqtisadi siyasət təhlillərində geniş istifadəsi imkanları və bu modellərin xüsusiyyətlərini araşdırmışdır. Eyni zamanda, bir neçə tarazlıq nəzəriyyələrini qarşılıqlı təhlil etmişdir[9].

Beynəlxalq Ərzaq Siyasəti Tədqiqatı İnstitutunun (IFPRI) tədqiqatçıları GAMS proqram paketində Standart Hesablanabilən Ümumi Tarazlıq Modeli adlı tədqiqatlarında SHM-in strukturunun xüsusiyyətlərinə yer verməklə Zimbabve iqtisadiyyatı üçün 1991-ci ilin statistik məlumatları əsasında SHM qurmuşlar. Daha sonra Ümumi Tarazlıq Modelinin formalaşması və GAMS proqram paketində həll edilməsi istiqamətində tədqiqatlarını tamamlayıblar[8].

Varvik Universiteti Gürcüstanda iqtisadi siyasət təhlillərini dəstəkləmək məqsədilə Ümumi Tarazlıq Modelindən istifadə edilməsi istiqamətində tədqiqat yerinə yetirmişdir [6].

Ümumilikdə baxdıqda qeyd olunan istiqamətdə beynəlxalq təcrübədə kifayət qədər işlər yerinə yetirilmişdir. Burada xüsusi qeyd edilmlidir ki, Ümumi Tarazlıq Modelləri üçün əsas təşkil edən SHM-in formalaşdırılması ölkədən ölkəyə onun spesifik xüsusiyyətlərinə görə dəyişir.

## 2. Ümumi Tarazlıq Modelləri və onların əsas xüsusiyyətləri

SHM multiplikatoru Leontyevin klassik xərclər buraxılış modelinin genişlənmiş formasıdır. Leontyev modelində daxili istehsal əlaqələri nəzərə alınırsa, SHM modeli həm də istehlak əlaqələrini nəzərə alır. Ona görə də, SHM multiplikator yanaşması gəlirlər və gəlirin bölüşdürülməsi məlumatlarından istifadə edir. SHM multiplikator modeli ticarət siyasətində və makroiqtisadi şoklarda, istehsal əlaqələri kimi geniş məzmunlu problemlərdə istifadə edilə bilər.

SHM multiplikator modeli xətti əlaqələri əks etdirən qiymətləndirmələrin aparılmasına imkan verir. Lakin qeyri-xətti əlaqələri qiymətləndirmək üçün məhs Ümumi Tarazlıq Modelindən istifadə olunur.

Ümumi tarazlıq modelləri struktural məsələlərin təhlili üçün güclü vasitələrdir və mikro və makro elementlərin qarşılaşdırılması üçün kifayət qədər dəyişəndir. İqtisadiyyatın ümumi tarazlıq modeli daxili və xarici soklara (təsirlərə) iqtisadiyyatın həssaslığını, qəbul oluna biləcək monetar və fiskal qərarların təsirlərini müəyyən zaman çərçivəsində təhlil etməklə, real makroiqtisadi vəziyyəti təhlil etməyə imkan verməklə yanaşı effektiv makroiqtisadi idarəetmə sistemi üçün verilən qərarların düzgünlüyünü və adekvatlığını təmin edir.

Ümumi tarazlıq modellərinin əsas üstünlüklərini ümumiləşdirərək aşağıdakıları qeyd etmək olar:

- Sabit makroiqtisadi əsasa malik olmaqla, balansda bütün iqtisadi vasitələrin optimallaşdırma davranışını təyin edir. Bu model iqtisadiyyat üzrə dəyişənlərin təhlilinə, habelə bölüşdürmə təsirlərinin müşahidə edilməsinə imkan verir;
- Modeldə daxili ardıcıllığı təmin edir, çoxsaylı nəticələrin və reaksiya təsirlərinin qiymətləndirilməsində faydalıdır;
- Ümumi Tarazlıq Modeli digər metodlara nisbətən daha konkret qiymətləndirmə, yəni, büdcə-vergi siyasətindəki dəyişikliklərə görə artımların və ya itkilərin hesablanmasına imkan verir.

## 3. Azərbaycanın Ümumi Tarazlıq modeli - AzMOD

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin iqtisadi idarəetmə gücünü qüvvətləndirmək məqsədi ilə Azərbaycan Respublikasının Ümumi Tarazlıq modeli(AzMOD) qurulmuşdur. Modelin məlumatlar bazası BMT-nin təlimatlarına tam uyğun şəkildə və MHS-i bütövlükdə əhatə etməklə Azərbaycanın iqtisadiyyatını tam müfəssəl əks etdirən SHM-dir. AzMOD dörd iqtisadi agentin iqtisadi vəziyyətini, davranışını birləşdirir: firmalar, ev təsərrüfatları, dövlət və xarici sektor. Qeyd olunan agentlər 19 iqtisadi sahə timsalında ümumiləşdirilmişdir. Modelin həll olunması ümumi tarazlıq nəzəriyyəsinə əsaslanmaqla GAMS proqram paketində həll olunur [10].

Firmalar. Ümumi tarazlıq modelləri fərdi firmaların davranışlarını nəzərə almır, lakin oxşar qruplar şəklində sahələrdə ümumiləşdirir. Bu modeldə firmaların vəzifəsi tam rəqabət bazarında fəaliyyət göstərmək və mənfəət artırmaq üçün mədaxil və məxaricin mümkün səviyyələrini müəyyən etməkdədir. Bundan əlavə, orta və marjinal xərclərə bərabər olan istehsal qiymətləri sabit gəlirli miqyas texnologiyası üçün mənfəətin maksimallaşdırılmasını güman edən şərtdir [7, 10].

Neft və qaz sektoru. Neft və qaz sektoru üçün istehsalçıların CES istehsal funksiyasına görə birinci mərhələdə təbii və qeyri-təbii ehtiyatlara ayrılaraq seçim edilir, ikinci mərhələdə, əlavə dəyər və aralıq girişlər arasında optimal qarışım Leontyev funksiyası ilə təmin olunur. Üçüncü mərhələdə əmək və kapital arasında mümkün seçim CES funksiyası ilə başqa bir optimallaşdırma prosesində həll olunur [7, 10].

Kənd təsərrüfatı sektoru. Kənd təsərrüfatı sahəsi üzrə istehsalçılar birinci mərhələdə digər və əlavə dəyər vergisi arasında CES funksiyasına uyğun seçim edirlər.İkinci mərhələdə sabit faktorlar (torpaq) və aralıq məhsullar arasında optimal qarışım CES funksiyası ilə müəyyən edilir. Yenidən ikinci mərhələdə kapital və əmək arasında optimal seçim verilir. Burada əvəzetmə mümkünlüyü CES funksiyası və kapital arasında göstərilir. Üçünçü mərhələdə orta gəlir arasında mümkün qarışım Leontyev funksiyası ilə təmin olunur.

Ev təsərrüfatları. Bütün gəlir qrupları üçün bir növ ev təsərrüfatı nümunəsi var. Ev təsərrüfatları kapital gəlirinin bir hissəsini (xalis istismar gəliri), əmək gəlirinin bir hissəsini hökumətdən işsizlik üstünlükləri və hökumətdən digər xalis transferləri alır. Göstərilən ev təsərrüfatları gəlir vergisi ödəyir və xalis gəlirin bir hissəsini qənaət edirlər [7, 10].

Dövlət sektoru. Hökumət gəlir və əmlak vergisi və məhsul və istehsala vergilər kimi bütün vergiləri toplayır. O, həmçinin, bütün sosial sığortaya ayırmaları toplayır. İşsizlik müavinətini təmin edir, ev təsərrüfatına transferlər edir, kapital gəlirini əldə edir və xarici sektordan transferlər edir [7, 10].

Xarici sektor. Xarici ticarətin xüsusiyyəti, kiçik ölkə ehtimalına əsaslanır. Hansı ki, burada ölkə idxal və ixrac bazarlarına qiymət qoyan mənasındadır. İdxal tərəfdən, Arminqtonfunksiyasına görə yerli istehsal olunan və idxal edilən məhsullar arasında qüsurlu əvəzetmə güman edilir. Belə ki, yerli istehlakçılar, CES funksiyasına görə uyğun idxal olunan kompleks məhsullardan və yerli istehsal olunan məhsullardan istifadə edirlər [7, 10].

Burada artıq qəbul olunan MGP (CGE) modellərin ümumi ehtimalı belədir ki, iqtisadiyyat ilkin olaraq vahidə bərabər əmtəələrin qiymətləri ilə normallaşdırılmış kəmiyyətlərlə tarazlıqdadır. Qiymətlərin sıfır dərəcəsi eyniliyinə görə model ancaq nisbi qiymətləri müəyyən edir. Ona görə də, bütün nisbi qiymətlərin hesablana bilməsinin əksinə ölçü standartını təmin etmək üçün səciyyəvi qiymət seçilib. Biz ÜDM deflyatorunu ölçü standartı kimi seçirik.

Bütün qeyd olunan yanaşmalar və modellər nəzərə alınmaqla tədqiqat işinin növbəti fəsillərində Azərbaycan iqtisadiyyatı üzrə empirik qiymətləndirmələr aparılacaq və nəticələri təhlil ediləcəkdir.

Beləliklə, yuxarıda şərh edilən model və üsullar müasir dövrdə əsas istifadə olunan alətlər hesab olunur. Dünya iqtisadiyyatında baş verən volatilliklərin ölkə iqtisadiyyatına təsirlərinin, o cümlədən investisiyaların dinamikasına təsir edən amillərin qiymətləndirilməsində ekonometrik üsullar və onlara əsaslanan modellər etibarlı və üstün hesab olunur. Eyni zamanda, sahəvi təsirlərin öyrənilməsində, prioritet sahələrin müəyyən olunmasında, simulyasiya qiymətləndirmələrinin aparılmasında və ortamüddətli proqnozların verilməsində balans modelləri və onlara əsaslanan ümumi tarazlıq modelləri praktiki və təhlil gücü baxımından uğurlu yanaşmalardır. Məhz bunlar nəzərə alınaraq, tədqiqat işində Azərbaycan iqtisadiyyatı üçün investisiyaların təsirləri qiymətləndirilmişdir.

## 4. AzMOD əsasında kapital qoyuluşları üzrə simulyasiya nəticələri

Məlumdur ki, bütün modellər qurularkən ilkin şərtlər və fərziyyələr müəyyənləşdirilir [5]. Bu başlanğıc şərtlərin əksəriyyəti sonda alınmış modellə işləyərkən dəyişdirilməz qəbul edilir. Azərbaycanın Ümumi Tarazlıq Modeli- AzMOD qurularkən müəyyən başlanğıc şərtlər qəbul edilmiş və modelin ancaq dövlət iqtisadi siyasətini tənzimləməsi baxımından vergi bloku üzrə simulyasiyaların edilə bilməsi imkanı qoyulmuşdur. Başlanğıc şərtlərin əsas olanlarını sadalayaq. Çünki bu başlanğıc şərtlər modellə qiymətləndirmə aparmaq və nəticələri təhlil etmək baxımından mühümdür. Qeyd edək ki, AzMOD modelində neft qiymətləri 60$, manatın məzənnəsi 0.78 olaraq verilmişdir. Həmçinin nəzəriyyədən məlum olan bir neçə eyniliklər nəzərə alınmışdır. Lakin yaxın illərdə neft qiymətlərində kəskin azalmalar müşahidə olunmuşdur. AzMOD modeli daha da təkmilləşdirilərsə, neft qiymətlərinin dəyişmələri nəzərə alına bilər. Bizim tədqiqat obyektimiz investisiyaların qiymətləndirmə modelləri olduğu üçün tədqiqat işində mövcud modelin imkanları çərçivəsində məsələyə yanaşılmışdır.

Digər bir məsələ isə modellərin qurulması zamanı hansı bağlanış qaydasının, yəni başlanğıcda qarşıya qoyulmuş məsələnin həlli baxımından sabit dəyişənlərin seçilməsi məsələsidir. AzMOD modelinin iki bağlanış qaydası mövcuddur: dövlətin cari xərclərinin ÜDM-ə nisbətinin sabit götürülməklə qənaətinin endogen müəyyənləşməsi və dövlətin Qalan Dünyadan aldığı və ev təsərrüfatlarına dövlət tərəfindən verilən transferlərin ÜDM-ə nisbətinin sabit seçilməsi. Tədqiqat işində birinci fərziyyə qəbul edilərək qiymətləndirmələr yerinə yetirilmişdir.

Ssenaridə investisiyaların qiymətləndirilməsi üçün kapitaldan istifadəyə vergilər və kapitaldan istifadəyə digər vergilər təsir analizinin vasitəsi kimi götürülmüşdür. Qeyd edək ki,

kapitaldan istifadəyə vergilər iqtisadi nəzəriyyə aspektindən baxdıqda da investisiya fəaliyyəti üçün təsirlərə malikdir. Həmçinin mənfəət vergisi investisiyaların maliyyələşmə mənbələrinə təsir edir. Mənfəət vergisinin azaldılması yaxud artırılması özəl sektorun investisiya imkanlarına təsir etməklə makro səviyyədə ümumilikdə investisiyaların dinamikasına təsir edir.

Qurulmuş ssenarinin gerçəkləşdirilməsi və nəticələrinin təhlil edilməsi qarşıya qoyulmuş məsələ haqqında əsaslı fikir söyləməyə imkan verə bilər. Bu məqsədlə, yuxarıda müəyyən edilmiş istiqamətlər üzrə qiymətləndirmələr AzMOD modeli vasitəsilə yerinə yetirilməyə çalışılacaqdır. İlk öncə qeyd edək ki, modeldə şoklar hissəsində vergilər 19 iqtisadi sahə üzrə verilmişdir və indeksli qiymətlərdir.Yuxarıda da qeyd edildiyi kimi, kapitaldan istifadəyə vergilər və kapitaldan istifadəyə digər vergilər 19 iqtisadi sahə üzrə artırılıb azaldılmışdır.

Analiz 1.

19 iqtisadi sahə timsalında kapitaldan istifadəyə vergiləri və kapitaldan istifadəyə digər vergiləri 10% artıraq. Qeyd olunan şok verildikdən sonra nəticələr əsasında təhlillərimizi aparaq.

Aparılmış qiymətləndirmə nəticəsində iqtisadi sahələr üzrə investisiyalara tələb dəyişmişdir. Aşağıdakı cədvəldə iqtisadi sahələr üzrə investisiyalara tələbin dəyişməsi verilmişdir. Verilmiş şok əsasında qeyd olunan sahələr üzrə investisiya mallarına tələb aşağı düşmüşdür (Şəkil 1). Qrafikdə dəyişmələr mənfi kimi əks olunur. Bu azalmaya səbəb kimi, qeyd olunan sahələrdə özəl sektorun investisiya qoyuluşlarının həcminin vergi artımına uyğun olaraq gəlirlərin azalması kimi izah etmək olar. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq iqtisadi sahəsinə çəkilən büdcə xərclərinin xüsusi çəkisi 3.5% təşkil edir [11].

**Şək.1.** İnvestisiya mallarına tələb (İstinada nəzərən faizlə fərq)




**Mənbə:** AzMOD əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Vergilərin artması dövlətin gəlir və xərclərinin dəyişməsinə səbəb olacaqdır (Şəkil 2). Belə ki, dövlətin gəlirləri artacaq və bununla da dövlət xərcləri və dövlətin qənaəti artacaqdır. Aşağıdakı qrafikdə AzMOD modeli əsasında dövlət xərclərinin artım dinamikası təsvir olunmuşdur.

**Şək.2.** Azərbaycan hökumətinin dövlət xərcləri




**Mənbə:** AzMOD əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Qrafikdəki artım rəqəmləri şok olmadığı halda modelin baza göstəricilərə əsasən proqnoz edilmiş rəqəmlərlə fərqlərini əks etdirir. Dövlət xərclərinin qeyd olunan artımı sahələr üzrə investisiyalara da təsir edəcəkdir. Belə ki, dövlət dəstəyinin olduğu sahələrdə, daha doğrusu daha çox dövlət investisiyalarının payının çox olduğu sahələrdə investisiyaların artımı müşahidə olunacaqdır.

O cümlədən, cədvəl 1-dən aydın görünür ki, sahələr üzrə investisiyaların həcmi istinada nəzərən faizlə fərq nəzərə alınmaqla əksər sahələrdə artmışdır.

**Cədvəl 1.** Sahələr üzrə investisiyalar (İstinada nəzərən faizlə fərq)

| Sahələr üzrə investisiya | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 4.12 | 4.22 | 4.30 | 4.30 | 4.26 |
| Mədən çıxarma sənayesi | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| Emal sənayesi | 2.23 | 2.18 | 2.14 | 2.16 | 2.27 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 0.55 | 0.46 | 0.26 | 0.04 | -0.17 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 3.21 | 3.21 | 3.14 | 3.01 | 2.86 |
| Tikinti | -0.76 | -0.81 | -0.72 | -0.66 | -0.61 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 2.08 | 1.99 | 1.82 | 1.62 | 1.41 |
| Nəqliyyat və anbar təsərrüfatı | 3.75 | 3.74 | 3.65 | 3.51 | 3.34 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 4.37 | 4.33 | 4.21 | 4.05 | 3.86 |
| İnformasiya və rabitə | 0.90 | 0.84 | 0.71 | 0.54 | 0.37 |
| Maliyyə və sığorta fəaliyyəti | -0.27 | -0.55 | -0.96 | -1.42 | -1.93 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 3.71 | 3.44 | 2.93 | 2.35 | 1.80 |
| Peşə, elmi və texniki fəaliyyət | 2.43 | 2.27 | 2.03 | 1.73 | 1.38 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 3.26 | 3.24 | 3.16 | 3.02 | 2.84 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 |
| Təhsil | 3.53 | 3.58 | 3.55 | 3.46 | 3.35 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 3.40 | 3.45 | 3.41 | 3.32 | 3.19 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 2.82 | 2.85 | 2.81 | 2.72 | 2.60 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 1.20 | 1.29 | 1.40 | 1.48 | 1.59 |

**Mənbə:** AzMOD əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Tikinti və maliyyə və sığorta fəaliyyəti iqtisadi sahələri üzrə isə azalma müşahidə olunur. Lakin ümumilikdə baxdıqda cəmi investisiyaların miqdarı azalacaqdır. Cəmi investisiyaların miqdarı 0.12% azalmışdır. Bu isə kapitaldan istifadəyə vergilərin tətbiqi nəticəsində yaranmış əks təsir kimi izah oluna bilər.

Cəmi investisiyaların azalmasına əsas səbəb (Şəkil 3) tikinti iqtisadi sahəsində investisiyaların miqdarının kəskin aşağı düşməsidir. Bildiyimiz kimi tikinti iqtisadi sahəsi əsas kapitala yönəldilmiş investisiyaların böyük hissəsini özündə cəmləşdirir. Tikinti iqtisadi sahəsinə yönəldilmiş investisiyaların daha çox hissəsi qeyri-dövlət bölməsinin payına düşdüyünə görə vergilərdə baş vermiş artım bu sahədə investisiyaların həcminə təsir edə bilmişdir.

**Şək.3.** Cəmi investisiyaların istinada nəzərən fərqlərinin dinamikası




**Mənbə:** AzMOD əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Makrosəviyyədə aparılmış təhlil əlbəttə ki, əsas olaraq makroiqtisadi göstəricilərdə də özünü büruzə verəcəkdir.

İxrac üzərində baş verən dəyişikliklərə diqqət yetirdikdə görmək mümkündür ki, bir neçə sahədə təsir müşahidə olunmasa da mədənçıxarma sənayesi iqtisadi sahəsindən başqa bütün sahələrin ixracının miqdarında artım olmuşdur. Lakin mədənçıxarma sənayesi iqtisadi sahəsindəki azalma cəmi ixracın azalmasına səbəb olmuşdur.

İdxal üzərində baş verən dəyişikliklər də eyni qayda ilə mədənçıxarma sənayesi iqtisadi sahəsindən başqa digər sahələrdə azalma olmuşdur. Bir neçə sahədə ümumiyyətlə, idxal və ixrac proseslərində dəyişiklik olmamışdır. Bu baxımdan biz ancaq dəyişiklik olan sahələri nəzərdə tuturuq. Mədənçıxarma sənayesi iqtisadi sahəsində idxalın miqdarında artma olmuşdur. Lakin buna baxmayaraq belə, cəmi idxal azalmışdır.

Makroiqtisadi göstəricilərə, əsas da ÜDM-ə təsir baxımından məsələyə yanaşsaq demək mümkündür ki, xalis ixrac artmışdır. ÜDM komponenti olaraq bu artım ÜDM-in həcminin artmasına müsbət təsir edən amildir.

Model nəticəsində alınmış diaqram vasitəsilə əsas makroiqtisadi göstəricilərin 2016-2020-ci illər aralığı üzrə dinamikaları verilmişdir (Şəkil 4). Bir növ xərclər üsulu ilə ÜDM-in hesablanması deməkdir. Modelin tarazlı işlədiyini yoxlaya bilərik. Yəni:

ÜDM=Şəxsi istehlak+Dövlət istehlakı+əsas kapitala investisiyalar+ixrac-idxal

Alınmış nəticələr qeyd olunan tarazlıq şərtlərini tam şəkildə ödəyir. Bu baxımdan da, model nəticələri test olunmuş hesab oluna bilər.

**Şək.4.** Real ifadədə makroiqtisadi effektlər (İstinada nəzərən faizlə fərq)




**Mənbə:** AzMOD əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Zaman aralığı nəzərə alınsa, 2015-2020-ci illər aralığı üçün nəticələr tarazlı alınır. Ümumi tarazlıq modellərinin əsas xüsusiyyətləri elə məhz nəticələr əsasında qurulmuş ifadələrin eynilik kimi ödənilməsidir.

Qeyd edildiyi kimi, burada alınan artıb azalmalar şokun təsiri olmadığı halla fərqlərə əsasən müəyyənləşmişdir. Yəni, hər hansı komponentin istinada nəzərən faizlə fərqinin mənfi olması o göstəricinin dinamikasının azalması demək deyildir, sadəcə şokun təsirinin mənfi təsir göstərdiyi mənasındadır.

ÜDM-nin komponentlərinin dinamikalarına ayrılıqda baxdıqda, şokun təsirinin dövlət istehlakına və xalis ixraca müsbət, digər ÜDM komponentlərinə isə mənfi təsir göstərdiyini görmək mümkündür. Aydındır ki, kapitaldan istifadəyə vergilərin artırılması dövlətin çox da uzun olmayan dövr ərzində gəlirlərini artıracaqdır. Bu baxımdan dövlət gəlirlərinin artması

dövlət xərclərinin artmasına səbəb olacaqdır. Lakin dövlətin xərclərindəki müəyyən qədər artım olmasına baxmayaraq, ÜDM-in digər komponentləri ciddi azalmalarla müşahidə olunur. Hansı ki, bu azalmalar ümumilikdə ÜDM-in azalmasına səbəb olmuşdur. Qrafikdən görünür ki, əsas kapitala investisiyaların həcmində də azalma müşahidə olunmuşdur. Bütün bu dəyişikliklər yekunda ÜDM-in azalmasına səbəb olmuşdur. Kiçik rəqəmlərlə olsa da, ÜDM-in azalması qənaətbəxş nəticə hesab olunmaz.

Analiz 2.

19 iqtisadi sahə timsalında kapitaldan istifadəyə vergiləri və kapitaldan istifadəyə digər vergiləri 10% azaldaq. Qeyd olunan şok verildikdən sonra nəticələr əsasında təhlillərimizi aparaq.

Məqsədimizə uyğun olaraq vergi dəyişikliyinin investisiyalara təsirlərinə nəzər salaq. 5 iqtisadi sahə (Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, Emal sənayesi, Tikinti, Ticarət; nəqliyyat vasitələrinin təmiri, Nəqliyyat və anbar təsərrüfatı) üzrə investisiya mallarına tələb aşağı düşmüşdür.

Qrafiki təsvirdən müşahidə olunduğu kimi investisiya mallarına tələb yuxarıda qeyd olunan iqtisadi sahələr üzrə artmışdır. Digər sahələr üzrə isə dəyişiklik olmamışdır (Şəkil 5).

**Şək.5.** İnvestisiya mallarına tələb (İstinada nəzərən faizlə fərq)




**Mənbə:** AzMOD əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Kapital qoyuluşlarına verginin azaldılması sahələr üzrə investisiya mallarına tələbi artıracaqdır. Qeyd edək ki, bu artımlar əsasən özəl sektorun payının yüksək olduğu sahələrdə investisiyaların miqdarının da artımına səbəb olacaqdır. Həmçinin, vergidən gəlirlərin aşağı düşməsi dövlətin gəlirlərini azaldacaqdır. Dövlət gəlirlərinin azalması isə dövlət xərclərinin və dövlət investisiyalarının aşağı düşməsinə səbəb olacaqdır. Əslində vergi dəyişiklikləri daha çox özəl investisiyaların, o cümlədən xarici investisiyaların həcminə birbaşa təsir edir. Lakin dövlət investisiyalarının həcminə dolayı yolla, yəni dövlətin gəlirlərinin azalması yaxud artması baxımından təsir edir.

Modelin nəticəsinə əsasən dövlət xərcləri aşağı düşmüşdür (Şəkil 6). Bu isə məntiqə uyğun hesab olunur. Çünki qeyd olunan zaman aralığında kapitaldan istifadəyə vergilərin azaldılması dövlətin vergi gəlirlərinə mənfi təsir edəcəkdir.

**Şək.6.** Azərbaycan hökumətinin dövlət xərcləri




**Mənbə:** AzMOD əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Cədvəl 2 19 iqtisadi sahə üzrə 2020-ci ilə qədər investisiyaların istinada nəzərən neçə faiz artıb azalmağını əks etdirir. Yəni, modelə şok verildiyi halda müəyyən dəyişikliklər müşahidə olunur ki, bu dəyişmələr də modelə heç bir şok verilmədiyi hal ilə müqayisə olunur. Nəticədə artıb azalmalar faiz olaraq hesablanır. Hansı ki, qeyd olunan cədvəldə verilmiş şok əsasında faiz payı ilə dəyişmələr verilmişdir. Bu azalmalar cəmi investisiyaların azalması mənasına gəlməz. Çünki, azalma və artma olan sahələrin cəmi investisiyalarda hansı paya sahib olması əsas hesab olunmalıdır. Bu baxımdan da, mütləq ifadədə verilməklə artıb azalma hesablanmalıdır. Cədvəldən də göründüyü kimi, tikinti və maliyyə və sığorta fəaliyyəti iqtisadi sahələrində artma, digərlərində isə azalma müşahidə olunmuşdur.

**Cədvəl 2.** Sahələr üzrə investisiyalar (İstinada nəzərən faizlə fərq)

| Sahələr üzrə investisiya | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | -3.92 | -4.02 | -4.08 | -4.08 | -4.04 |
| Mədən çıxarma sənayesi | 0 | 0 | 0 | 0 | 0 |
| Emal sənayesi | -2.14 | -2.09 | -2.04 | -2.06 | -2.16 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | -0.44 | -0.35 | -0.14 | 0.08 | 0.3 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | -3.06 | -3.07 | -3.00 | -2.88 | -2.73 |
| Tikinti | 0.73 | 0.77 | 0.69 | 0.64 | 0.58 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | -1.97 | -1.88 | -1.71 | -1.51 | -1.3 |
| Nəqliyyat və anbar təsərrüfatı | -3.59 | -3.58 | -3.49 | -3.35 | -3.19 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | -4.15 | -4.12 | -4.01 | -3.85 | -3.68 |
| İnformasiya və rabitə | -0.78 | -0.71 | -0.57 | -0.4 | -0.22 |
| Maliyyə və sığorta fəaliyyəti | 0.5 | 0.8 | 1.25 | 1.74 | 2.29 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | -3.54 | -3.3 | -2.82 | -2.27 | -1.74 |
| Peşə, elmi və texniki fəaliyyət | -2.29 | -2.13 | -1.90 | -1.60 | -1.25 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | -3.1 | -3.09 | -3.01 | -2.87 | -2.70 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 0 | 0 | 0 | 0 | 0 |
| Təhsil | -3.37 | -3.41 | -3.38 | -3.3 | -3.19 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | -3.26 | -3.31 | -3.27 | -3.18 | -3.06 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | -2.69 | -2.73 | -2.68 | -2.59 | -2.48 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | -1.05 | -1.14 | -1.24 | -1.32 | -1.43 |

Mənbə: AzMOD əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Cəmi investisiyalar yerinə yetirilmiş iqtisadi şok nəticəsində 2020-ci ilə qədər olan müddətdə 0.1% artmışdır (Şəkil 7). Həmçinin şəkildə illərə görə cəmi investisiyaların şok hesabına baş vermiş müsbət artımlarının qrafiki təsvir edilir. Yuxarıda qeyd olunan iki iqtisadi sahədə olan artım cəmi investisiyaların artmasına səbəb olmuşdur. Xüsusən də, tikinti iqtisadi sahəsində olan artım əsas götürülməlidir. Belə qənaətə gəlmək olar ki, tikinti iqtisadi sahəsinə yönəldilmiş investisiyaların cəmi investisiyalarda payı çox yüksəkdir ki, həmin sahədə baş verən dəyişiklik cəmi investisiyalara təsir edir.

**Şək.7.** Cəmi investisiyaların istinada nəzərən fərqlərinin dinamikası




**Mənbə:** AzMOD əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Nəticələr göstərir ki, mədənçıxarma sənayesi və emal sənayesi iqtisadi sahələri üzrə ixrac artmış, digər sahələr üzrə isə azalmışdır. Müəyyən sahələr üzrə isə ixracın miqdarı dəyişməmişdir. Kapital qoyuluşlarına vergilərin azaldılması ixracda artım olan iki sahə üzrə xarici investisiyaların həcmini artırır və qeyd olunan sahələr üzrə məhsullar isə daha çox ixrac olunduğu üçün ixracın həcmində artım olmuşdur. Ümumilikdə baxsaq, bütün sahələr üzrə cəmi ixrac artmışdır.

Aparılmış simulyasiya nəticəsində mədənçıxarma sənayesi iqtisadi sahəsindən başqa yerdə qalan əksər iqtisadi sahələrdə idxal artmış, müəyyən iqtisadi sahələrdə isə idxalın həcmində dəyişiklik olmamışdır. Lakin bu zaman mədənçıxarmada olan azalma cəmi idxalın azalmasına səbəb ola bilməmişdir. Ümumilikdə, cəmi idxal artmışdır. Makroiqtisadi göstəricilərin təhlilində əsas önəm kəsb edən ÜDM komponentlərinin hesabına dəyişikliklərə uğramışdır. Xalis ixrac mənfi olacaqdır, çünki idxaldakı artım ixracın artımından yüksəkdir.

Şəkil 8 ÜDM-in tərkib hissələrinin dinamikasını əks etdirir. Qeyd edək ki, yuxarıdakı qiymətləndirmədə olduğu kimi, burada da tarazlıq şərti, yəni ÜDM-in xərclər üzrə hesablanması düsturu eynilik kimi ödənilir. Bu şərti mütləq ifadədə ÜDM komponentlərinə baxdıqda görmək mümkündür. ÜDM-in komponentlərinə diqqət yetirsək, dövlət istehlakından başqa digər komponentlərin artım göstərdiyini görmək mümkündür. Qeyd edək ki, kapitaldan istifadəyə vergilərin azaldılması dövlətin gəlirlərini və o cümlədən xərclərini azaltmışdır. Xalis ixracın mənfi olmasına baxmayaraq digər ÜDM komponentlərinin ciddi artımı hesabına ÜDM artımla müşahidə olunmuşdur.

**Şək.8.** Real ifadədə makroiqtisadi effektlər (İstinada nəzərən faizlə fərq)




**Mənbə:** AzMOD əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Hər iki simulyasiya zamanı nəticələrin interpritasiyasını verdik. Bu zaman diqqəti çəkən digər bir məsələ əmək bazarı üzrə olan effektlərdir. Qeyd edək ki, kapitaldan istifadəyə vergilərin artırılması məşğulluğun və iqtisadi fəal əhalinin azalmasına və işsizlərinin sayının və işsizlik əmsalının artmasına səbəb olur. Bu isə demək olar ki, tamamilə əmək bazarına mənfi təsirlərin olması deməkdir. Kapitaldan istifadəyə vergilərin artması özəl sektorun kapitaldan istifadəsinə mənfi təsir etdiyi kimi qeyd olunan əmək bazarının əsas göstəricilərinə də mənfi təsir edir. Bu daha çox dövlət sektorunun payının artması mənasında qeyd oluna bilər. Lakin ikinci ssenari qiymətləndirməsi, yəni kapitaldan istifadəyə vergilərin azaldılması dövlət sektorunun payını azaldaraq özəl sektorun daha da inkişaf etməsinə səbəb olur. O cümlədən, əmək bazarının əsas göstəricilərinə müsbət təsir göstərir. Belə ki, məşğulluq və iqtisadi fəal əhali artır, işsizlərin sayı və işsizlik əmsalı azalır.

Alınmış nəticələr göstərir ki, kapitaldan istifadəyə vergilərin artması dövlət gəlirlərini və xərclərini artırmaqla dövlət sektorunun payının yüksək olduğu sahələrdə müsbət təsirlər edə-

cək, lakin ümumilikdə cəmi investisiyaların həcmini azaldaraq ÜDM-ə mənfi təsir edəcəkdir. Həmçinin vergilərin artırılması əmək bazarı, o cümlədən sosial-iqtisadi göstəricilərə də mənfi təsir etmişdir.

Eyni zamanda, kapitaldan istifadəyə vergilər və digər vergilər azaldılarkən dövlət gəlir və xərcləri azalmışdır. Xalis ixrac azalmış, lakin cəmi investisiyalar, ÜDM və əmək bazarı göstəricilərinə müsbət təsir etmişdir.

## 5. Nəticə və Təkliflər

Beləliklə, Azərbaycanın Ümumi Tarazlıq Modeli- AzMOD vasitəsilə aparılmış ssenari qiymətləndirməsi zamanı alınmış nəticələr aşağıdakı kimiümumiləşdirilmişdir.

Kapitaldan istifadə üzrə vergilərin dəyişilməsi əsasında Azərbaycanın Ümumi Tarazlıq Modeli -AzMOD vasitəsilə investisiyaların ölkə iqtisadiyyatına və onun ayrı-ayrı sahələrinin inkişafına təsiri müəyyənləşdirilmişdir və bu əsasda ssenari qiymətləndirmələri bir sıra effektləri müəyyən etməyə imkan vermişdir: (a) kapitaldan istifadəyə vergilərin artırılması cəmi investisiyalara tələbi, əsas kapitala investisiyaları, cəmi investisiya qoyuluşlarını, ixracı azaldır, dövlət gəlir və xərclərini artırır, nəticədə ÜDM-in azalmasına səbəb olur; (b) kapitaldan istifadəyə vergilərin azaldılması isə tamamilə əks mənzərə yaradır. Qiymətləndirmələr göstərir ki, investisiyalar daha çox əlavə dəyər yaradan, elm və innovasiya tutumlu sahələrə yönəldilməlidir.

### İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLARIN SİYAHISI

1. Həsənli Y.H. Azərbaycan iqtisadiyyatının sahələrarası əlaqələrinin modelləşdirilməsi. Bakı: Elm, 2011, 202s.
2. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun "Azərbaycan Respublikasının Ümumi Tarazlıq Modelinin hazırlanması üzrə görülmüş işlər barədə" hesabatı, Bakı 2012, 120 s.
3. Mehdiyev M. M. İqtisadi siyasət ssenarilərinin simulyasiyasının təşkili // İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun Elmi Əsərlər Toplusu, 2011, XI buraxılış, s.120-127.
4. Süleymanov A.S., Ələkbərov E.E, Rüstəmov E.Ş. Azərbaycan iqtisadiyyatı üçün kapital qoyuluşlarının sahəvi təsirlərinin qiymətləndirilməsi // AMEA-nın İqtisadiyyat İnstitutunun Elmi Əsərlər Toplusu, 2016, №3, s.55-63.
5. Süleymanov A.S. Müasir makroiqtisadi modellərin təhlili // Azərbaycan Vergi Jurnalı, 2016, № 1, s.121-132.
6. A Summary of the Fact Finding Mission: Phase 1 Support in Economic Policy Analysis using CGE Modelling in Georgia. Warwick Institute for Employment Research, 2013, 15p.
7. Dynamic General Equilibrium Model for Azerbaijan Economy. Technical Report AzMOD, EcoMOD 2012, 52p.
8. Lofgren H., Harris R.L., Robinson Sh., Thomas M., El-Said M A Standard Computable General Equilibrium (CGE) Model in GAMS // International Food Policy Research Institute, 2002, 79p.
9. Mitra K., Benjamin H. (2008) Debunking the Myths of Computable General Equilibrium Models // Schwartz Center for Economic Policy Analysis and Department of Economics, The New School for Social Research, Working Paper Series, 2008, 93p.
10. Rozental A. A. İnternal Financing of Economic Development: The role of the hybrid investment trust // American Journal of Economics and Sociology, July 1958, v.17, No 4, pp.353-365.
11. http://azerbaijan.az/_Economy/_Agriculture/_agriculture_a.html
12. www.economy.gov.azAzərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin internet səhifəsi
13. www.cbar.az Azərbaycan Respublikası Mərkəzi Bankının internet səhifəsi

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2018. Volume 2, Number 2* *Pages 129-133*

***UOT: 33:005***

# QEYRİ-NEFT SEKTORUNUN İXRAC POTENSİALININ TƏNZİMLƏNMƏSİNİN QANUNVERİCİLİK BAZASI VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Cavanşir ƏSƏDOV, Sədaqət İBRAHİMOVA**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
*asadovj@gmail.com*

**XÜLASƏ**

Qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün ilk növbədə milli iqtisadiyyatın özünün diversifikasiyalaşdırılması və modernləşdirilməsi prosesləri başa çatdırılmalı, innovasiyalaşdırılması sürətləndirilməlidir. Bundan əlavə, qeyri-neft sektorunun ölkənin təbii resursları və iqtisadi amilləri nəzərə alınmaqla, dərindən tədqiq edilməsi, onun potensialının obyektiv qiymətləndirilməsi zərurəti diqqəti cəlb edir.

Bu proseslərdə strateji vəzifələrdən biri də müasir dövrdə Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının dərin təhlilinin aparılması, adekvat meyarlar çərçivəsində bu sahənin imkanlarının müəyyənləşdirilməsi, ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin aşkar edilməsidir. Baxdığımız tədqiqat işində sözügedən qeyri-neft sənayəsinin istehlak məhsullarının ixrac potensialının qiymətləndirilməsi və təzahür meyllərin analiz olunub. Tədqiqat işi həmçinin ixrac potensialı və prosesinin qanunauyğunluğunun tənzimləməsi məsələlərinə toxunmuşdur.

**Açar sözlər:** qeyri-neft sektoru, ixrac potensialı, tənzimləmə, qanunvericilik.

## ЗАКОНОДАТЕЛЬНАЯ БАЗА ДАННЫХ ПО ЭКСПОРТНОМУ ПОТЕНЦИАЛУ ДЛЯ НЕ НЕФТЯНОГО СЕКТОРА И ЕГО СОВЕРШЕНСТВОВАНИЕ

**РЕЗЮМЕ**

Для развития экспортного потенциала ненефтяного сектора в первую очередь должен завершиться процесс диверсификации и модернизации национальной экономики страны, должны ускориться инновационные процессы. Помимо этого, учитывая экономические аспекты и естественные ресурсы страны, полномасштабное изучение неняфтяного сектора и необходимость в объективной оценке его потенциала является постоянным и актуальным вопросом. Одна из стратегических должностей всего этого процесса – это всесторонний анализ потенциала ненефтяного сектора Азербайджана, определение возможностей этих отраслей с помощью объективных критериев, обнаружение способа усовершенствовать контроль над использованием экспортного потенциала.

В рассматриваемой работе была проанализирована оценка экспортного потенциала потребительского товара ненефтяного сектора и факторов, обуславливающих его появление на рынке. Исследовательская работа также коснулась темы экспортного потенциала и закономерного урегулирования вышеуказанного процесса.

**Ключевые слова:** ненефтяной сектор, экспортный потенциал, регулирование, законодательство.

## LEGISLATIVE DATABASE ON EXPORT POTENTIAL FOR THE NON-OIL SECTOR AND ITS IMPROVEMENT

**ABSTRACT**

For the development of the export potential of the non - food sector, first of all, the process of diversification and modernization of the national economy has to be completed, the innovation process is supposed to be disrupted. Positive, learning economic aspects and natural resources, full-fledged learning and non-profitability in the objective value of its potential is being persistently urgent and actual. It is the strategic objective of this process - to analyze the potential of the non-recessionary sector of Azerbaijan, to define the possibilities of identifying objective criteria, to exploit control over the export potential.

In the prospect of evaluating the potential of the export potential of the consumer goods sector, the factor of the non - sectorial sector and the factors that are supposed to be introduced in the market. The research work also touched upon the topics of export potential and legalization of the above - mentioned process.

**Keywords:** non-oil sector, export potential, regulation, legislation.

## 1. Giriş

Bütün iqtisadi prioritet mənsub olduqları xalqın iqtisadi strategiyasında ilk sırada dayanıqlı və davamlı, daim işləyən qanunvericilik bazasına sahib olmalıdır. Qanunvericilik əsası, uyğun ölkə qanunvericiliyini, normativ sənədləşmələri, iqtisadi sistemləri, qaydalar mövcud olmadan prioritet iqtisadi siyasət yönlərinin tərəqqisinin sürətləndirilməsi, sahənin məsələlərinin mənimsənilməsi və həll olunması mümkün deyildir [6].

Hələ, neft sənayesi siyasətinin həyata keçməyə qədəm qoyduğu ilk illərdən bəri Azərbaycanda müxtəlif qeyri-neft sahəsi məqsədlərinə görə ölkədə həyata keçirilən planlarla qarşılaşılmışdır. Bu sektorda ilk sırada fərqli-fərqli sferalar üzrə qanunvericilik aktlarının yaradılması, baxılması və qəbul olunması prosedurları yeyinləşdirilmişdir.

## 2. Qeyri - neft sənayesinin əsas təzahür sahələri

Heç şüphə yoxdur ki, qeyri-neft sahəsinin ixrac gücünün nizamlanmasının qanunvericilik əsasının yaradılması və onun ehtiyyac duyulduqca inkişaf etdirilməsi problemlərinə daha çox qayğı göstərilmişdir. Bu sektorda qanunların nöqsansız olmağı və daim fəaliyyətdə olması vacib şərtlər kimi özünü göstərmişdir. Sözügedən əsas faktorların əsasında aşağıda göstərilən amillər xüsusi yer almışdır [7]:

- Dünya dövlətləri ilə iqtisadi münasibətlərin genişləndirilməsinə imkan yaradılmalı;
- Dünya dövlətləri ilə ticarət əlaqəsində olan iştirakçıların dünya bazarına çıxışına sərhəd qoyan maneələrin minimuma salınması və qeyri-təbii müdaxilələrə adekvat işləmə prinsiplərinin işlənilməsinin siğortalanması;
- Ixrac proseslərinin asanlaşdırılması və ixracın həvəsləndirilməsi;
- Ixrac prosesinin stimullaşdırılması, bu sektorun tərəqqisinə şərait yaradan dövlət köməyi sistemlərinin qanunlarla nizamlanması;
- Ixracın başlıca iştirakçıları kimi xarici investorların hüquqlarının mühafizəsi, fəaliyyətlərinin nizamlanması.

Respublikamızda qeyri-neft sferasının tərəqqisi, onun ixrac imkanının yüksəldilməsi prosedurlarının nizamlanması və inkişaf etdirilməsi vacibiyyəti ilk öncə respublikada investisiya qoyuluşlarını yetərincə nizamlayan qanun və normativ aktların yaradılmasını vacib faktor kimi qələmə verir. Hamımızın bildiyi kimi, əksər dövlətlərdə invsetisiya yatırımlarının nizamlanması ümumi qanunlar əhatəsində həyata keçirilir və daha çox ölkə konstitusiyasına əsasən izlənilir.

Respublikamızın Konstitusiyasında qeyd edilmişdir ki, mülk toxunulmazdır və onu dövlət mühafizə edir. Məhkəmə qərar vermədən hansısa fərdin mülkiyyətdən məhrum olunması qeyri - mümkündür. Sözügedən qanunlar Azərbaycan vətəndaşları ilə birlikdə, xarici ölkə vətəndaşlarına da aid edilir. "Xarici investisiya qoyuluşlarının mühafizəsi" nə aid olan Qanunun 11-ci bəndində milliləşdirməyə üçün dövlət təminatı qeyd olunmuşdur. Qanunun bu maddəsinə görə, milliləşdirmə barəsində qərarı ancaq Milli Məclis qəbul etmə hökmünə sahibdir. Bu vəziyyətdə isə xarici investisiya yatırımçılarına təcili, şəffaf və effektivli təzminat ödənməlidir [2].

İnvestisiya qoyulması fəaliyyətinin dövlət tərəfindən nizamlanmasının inkişaf etdirilməsi, qanunvericilik əsaslarının möhkəmləndirilməsi öz sırasında Azərbaycanın mineral və xam-

mal ehtiyyatlarından daha sərfəli yararlanılmasına, yeni rəqabət bacarıqlı ixrac təyinatlı mal və məmulatlarının növlərinin çoxaldılmasına, ixracın intensivləşdirilməsinə, hazır sənaye məmulatlarının ixracının əhatə dairəsinin böyüməsinə, ümumilikdə ölkədə investisiya aktivliyinin daha geniş vüsət almasına, qeyri-neft sektorunun tərəqqisinin yeyinləşməsinə və onun ixrac imkanının vacib dərəcədə inkişaf etdirilməsinə şərait formalaşdırır, bu prosedurlarda hüquqi-normativ əsasın dayanıqlılığı, işləkliliyini çoxaldır və s.

## 3. Qeyri - neft sənaye sahəsinin tərəqqi meylləri

Respublikamızda neft sahəsi ilə birlikdə qeyri-neft sahəsinin tərəqqisinə bu gün məxsusi fikir verilir. Tədqiqatçı alimlərin söylədiklərindən qeyd edilmiş prioritetlərin həyata keçirilməsində, bu yönlərdə qeyri neft sənaye sahəsinin və ixrac imkanının əhatələndirilməsi ilə əlaqədar yenilikçi adekvat nizamlamaların, yeni dövlət sistenləşmənin, qanunvericilik aktlarının vacibiyyət rolunda çıxış etməsi başa düşüləndir. Əslinə qalsa ixrac imkanının nizamlanması mexanizmləri hər zaman, beyəlxalq əmtəə bazarlarında baş verən hadisələrlə, iqtisadi prosedurların tərəqqi meyllərinin formalarının dəyişmələrinə, yeni istiqamətlənmələrin, bölgələrarası və ölkə qruplaşmaları ilə ixrac sferasındakı əməkdaşlığın məqsədlərinə adekvat nizamlanır və inkişaf etdirmələrin çatışmazlığı ehtiva edir [3].

Hər bir dövlətin ixrac imkanının yüksəldilməsi yönündə ciddi planların yerinə yetirilməsi vacibliyi, dövlət mexanizmlərinin inkişaf etdirilməsi vacibliyi eləcə də, Azərbaycanın iqtisadi rəqabət bacarığının dünya üzrə olan şkalada artırılması ilə bilavasitə əlaqəlidir. R. Məmmədov bildirir ki, Respublikamız axırıncı 15 ildə ümumdxili məhsulun bir nəfərə düşən tutumunun çoxalmasına görə beynəlxalq dərəcədə ən yüksək yerlərdən birinə sahibdir. 2007-ci ildən etibarən kimi Azərbaycan səmərəli iqtisadiyyat siyasətini həyata keçirən, 2010-cu ildən bu günə kimi isə iqtisadiyyatda innovativ strategiya izləyən dövlətlər qrupuna aid edilmişdi. Buna baxmayaraq, respublikamızın ixracında neft və neft məmulatlarının xüsusi tutumunun 75-80 % -ə qədər çatması, hələlik, Azərbaycanı istehsal yönümlü rəqabət bacarıqlı ölkələr arasında yerini qorumuşdur.

Qeyri-neft sənaye sahəsinin ixrac imkanının çoxaldılmasında sənaye sahəsinin ixracetmə imkanının xeyli çoxalması ilə əlaqədar nizamlayıcı qanunvericilik əsasının, fərqli inkişaf etdirmə sistemlərinin də vaciiyyəti əsas əhəmiyyət kəsb edən amillər arasındadır. Ümümdünya ölkələrinin iqtisadi tərəqqi mərhələlərində və ixrac imkanının labüdlük səviyyədə çıxarılmasında sənayenin ixraca istiqamətlənən məmulatlarının rolu xeyli böyükdür [5].

Sözügedən sahəsnin rəqabət bacarıqlı məmulatları ümumdünya əmtəə bazarlarında öz yerini gücləndirərsə, sahib olduğu dövlətin ixrac üstünlüyünün hərtərəfli formada yüksəlməsinə səbəb ola bilər. Bəhs olunan faktorların dövlətimizin iqtisadi strategiyasında üstləndiyi faktiki nümunəsi sənaye sahəsinin tərəqqisi və onun ixrac imkanının çoxaldılması ilə əlaqədar sənədlərdə özünü biruzə vermişdir.

## 4. Qeyri - neft sənaye sektorunun ixrac potensialının qiymətləndirilməsi

Qeyri-neft sahəsinin ixrac imkanının nizamlanmasına dair qanunvericilik əsasının inkişaf etdirilməsi prosedurları şkalası son 10 il müddətində kənd təsərrüfatı və aqrar sənaye sahəsində də xeyli yüksəlmişdir. Sözügedən sektorda həyata keçirilən tarixi torpaq tədbirlərindən, ev və fermer təsərrüfatçılarının fəallığı prosedurlarının daha çox bazar iqtisadiyyatı meylləri üstündə yaranmasından bir müddət sonra, ən yeni texnologiya, investisiya ehtiyyatlarının cəlb olunması, ixrac istiqamətində məmulatların növünün çoxalmasına ehtiyyac meydana gəlmişdir [8].

Buna missal olaraq, "2012-2020-ci illər ərzində AR-da üzümçülüyün inkişafı ilə əlaqədar Dövlət Proqramı"nın təsdiqi barəsində Prezidentimizin fərmanında əsas faktorlara ölkədə üzümçülüyün əhatəsinin genişləndirilməsi, aqrar sahənin səmərəliyinin və ixracat imkanının yüksəldilməsi, kənd sakinlərinin maddi vəziyyətinin yaxşılaşdırılması aid edilmişdir. Sözügedən proqramın başlıca prinsipi isə sakinlərin təzə və yüksək keyfiyyətli yeyinti məhsullarına olan ehtiyyaclarının hərtərəfli qarşılanması, şərabçılıq və üzüm emalı təşkilatlarının işlənməmiş məhsul təchizatının yüksəldilməsi, şərab və üzüm məhsullarının ixrac prosesinin intensivləşdirilməsi məqsədilə ölkədə üzümçülüyün tərəqqisini həvəsləndirməkdən təşkil olnmuşdur. 2014-cü ilin ilk yarısından etibarən, kənd təsərrüfatı sektorlarının və aqrar sferanın qanunvericilik əsasının inkişaf etdirilməsi yönündı yeni işlər görülmüşdür. Bununla birlikdə, bu sektorda fəaliyyətin inkişafının davamlılığının təminatı baxımından tədbirlərinin həyata keçirilməsi haqqında prezidentimiz 16 yanvar 2014-cü ildə Sərəncamı imzalamışdır. Həmin sərəncamda qeyd edilir ki, qeyri-neft sahəsinin, eləcə də, kənd təsərrüfatının tərəqqisi dövlətin iqtisadi strategiyasının başlıca meyllərindən biri kimi təyin olunmuşdur. Sərəncamda həmçinin respublikamızda aqrar sənaye təşkilatlarının tərəqqi strategiyası"nın formalaşdırılması, kənd təsərrüfatı kooperasiyasının tərəqqisi, aqrar və ərzaq məmulatlarının ixracının çoxaldılmasına və bu sahədə proseslərin asanlaşdırılmasına aid icra quruluşlarına uyğun işlər tapşırılmışdır [5].

Bütün bu sadaladıqlarımızdan başqa, aqrar sahədə idarəetmənin hər tərəfli inkişaf etdirilməsi və institusional tənzimləmələrin intensivləşdirilməsi ilə əlaqədar tədbirlər barəsində ölkə prezidentin 16 aprel 2014-cü il tarixində Fərmanı imzalanmışdır. Sözügedən fərmanda aqrarosənayedə idarəetməni hal-hazırki dövrün ehtiyyaclarına uyğunlaşdırmaq, bununla birlikdə xarici investorların cəlb olunması, ölkə ərazisində kənd təsərrüfatı təyinatlı texnologiyanın istehsal prosesinin formalaşdırılması, "Kənd təsərrüfatı kooperasiyası barəsində" layihənin yaradılması və başqa vacib problemlər haqqında hökümət qurucularına və icra dairələrinə uyğun işlərin yerinə yetirilməsi ilə əlaqədr göstərişlər verilmişdir .

## 5. Nəticə

Qeyri-neft sənaye sahəsinin bütünlükdə yeni iqtisadi tərəqqi prosedurlarına ədalətli formada uyğun olaraq onun qanunvericilik əsasının inkişaf etdirilməsi yönündə görülən işləri intensivləşməkdədir. Sözügedən işlərin arasında ixrac imkanlarının qanunvericilik əsası və onun inkişaf etdirilməsi problemləri prioritet xüsusiyyətlərə malikdir və bunun siması kimi qəbul olunacaq qanun və Qərarlarda öz əksini görəcəkdir. Bütün bu sadaladıqlarımızla birlikdə, qeyri-neft sənayesinin mövcud halı, hazırki zamanda Azərbaycanın qeyri-neft sferasının ixrac imkanı və onun dəyərləndirilməsinə görə tədqiqatlar yönündən təqdim etsək, vurğulamaq mümkündür ki, qeyri-neft sənayesinin ixrac imkanının nizamlanması prosedurları daha da inkişaf etdirilməli və bu sahənin imkanlarından sərfəli şəkildə yararlanmanın təmin olunması amillərinə uyğun olmalıdır. Analoji faktorlar da də diqqətə alınmaqla, qloballaşma vəziyyətində qeyri-neft sənayesinin ixrac imkanından yararlanmanın inkişaf etdirilməsi üsullarının da araşdırılmasına ehtiyyacın meydana gəldiyini qeyd edə bilərik.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. 2011-2013-cü illər üçün qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair tədbirlər planı. AR Nazirlər Kabinetinin Sərəncamı №40, 8 fevral 2011-ci il, Bakı.
2. Abdullayeva S. Qeyri-neft sektorunun ÜDM-də payı gələn ildə 61,5 %-ə qədər yüksələcək. http://www.sia.az.
3. Alıyev İ.H. və Soltanlı İ.Q. Milli iqtisadi inkişaf modelinin formalaşmasının qanunauyğunluqları və xüsusiyyətləri. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya. III Beynəlxalq konqres. Bakı, 15-17 oktyabr 2013.
4. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2004-cü il tarixli 128 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli Strategiya"sı. http://www.oilfund.az.
5. Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları. AR Prezidentinin 24 iyun 1997-ci il tarixli, 609 nömrəli Fərmanı ilə təsdiq olunmuşdur. Bakı, 1997.
6. Доклад о торговле и развитии, 2013 год. Доклад секретариата Конференции Организации Объединенных Наций по торговле и развитию. Нью-Йорк и Женева, 2013 г.
7. Исмайлов С.Ф. Реформирование и развитие промышленных предприятий в условиях переходной экономики. Баку, “Элм”, 2006. – 340 с.
8. Кахраманов Н.Т. Перспективы развития нефтехимической и химической промышленности Азербайджана // Азербайджанское нефтяное хозяйство. № 4, Баку, 2006. С.47-51.

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2018. Volume 2, Number 2* *Pages 134-142*

*UOT:338;658;658.5*

# EĞİTİMDE PROJE TABANLI ÖĞRENME YAKLAŞIMININ ÜNIVERSİTE-SANAYİ İŞBİRLİĞİNİN GELİŞMESİNDEKİ ROLÜ

**İsa QASIMOV**
Bakü Mühendislik Üniversitesi
*iqasimov@beu.edu.az*
Bakü, AZERBAYCAN

**Ensar LOKMANOĞLU**
Recep Tayyip Erdogan Üniversitesi
TÜRKİYE
*ensar.lokmanoglu@erdogan.edu.tr*

## ÖZET

Dünyada değişen ihtiyaçlara göre personel eğitimi ve bilimsel araştırmalarda başarılı ve katma değeri olan sonuçlara ulaşmanın yollarından biri de eğitim sürecinde proje temelli yaklaşım metodolojisinin uygulanmasıdır. Üniversite ve sanayi kuruluşları arasında iyi bir işbirliğinin her iki tarafın çıkarlarını tanımlayan ve tatmin eden, gerçekten kendi kendini düzenleyen ve motive edebilen, ayrıca geliştiren özelliklere sahip olması durumunda sürecin müsbet sonuçlar verebilme olasılığı vardır. Proje tabanlı ders zamanı araştırılan sorunlar sanayi kuruluşlarının çözemediği konular olduğu ve eğitim ve araştırmalar sonucunda kazanılan ürün veya hizmet yenilikçi ve katma değere sahip olduğu sürece verimli bir işbirliği oluşabilir. İşbirliğinin başlaması ve sürdürülebilir olmasını sağlamak iletişim faktörlerinin doğru değerlendirilmesi ve uygulanmasına bağlıdır. Bu araştırmada proje tabanlı eğitim uygulamasının üniversite-sanayi işbirliğinin gelişmesi açısından rölü incelenmekte ayrıca bu süreci etkileyen iletişim faktörleri ele alınmaktadır.

**Anahtar kelimler:** proje tabanlı eğitim, üniversite-sanayi işbirliği, rekabetçi, iletişim faktörleri.

## THE ROLE OF PROJECT-BASED APPLICATION IN EDUCATION ON THE DEVELOPMENT OF UNIVERSITY-INDUSTRY COOPERATION

## ABSTRACT

One of the ways to achieve successful and value-added results in the field of personnel training and scientific research according to changing needs in the world is the implementation of project-based approach methodology in the education process. There is a possibility that the process will provide positive results if the cooperation between university and industrial organizations defines and satisfies the interests of the parties, is truly self-regulating and motivating, and has improving features. As long as project-based problems cannot be solved by industrial organizations and the product or service gained as a result of education and research is innovative and has added value, an efficient cooperation can be created. Ensuring that cooperation starts and is sustainable depends on the correct evaluation and implementation of communication factors. In this research, besides revealing the role of project-based education on the development of university-industry cooperation, the communication factors that affect this process are revealed.

**Key words:** project based education, university-industry cooperation, competitive, communication factors.

## РОЛЬ ПРОЕКТНОГО ПОДХОДА К ОБУЧЕНИЮ В СФЕРЕ ОБРАЗОВАНИЯ, В РАЗВИТИИ, УНИВЕРСИТЕТСКАЯ ПРОМЫШЛЕННОЕ СОТРУДНИЧЕСТВА

## АННОТАЦИЯ

В соответствии с меняющимися потребностями в мире один из способов достижения успешных и дополнительных результатов обучения персонала и научных исследованиях является внедрение методологии проектного подхода в образовательном процессе. Существует вероятность того, что хорошее сотрудничество между университетом и промышленными организациями может дать дополнительные результаты, если обе стороны будут определять и удовлетворять интересы сторон будут по - настоящему саморегулирующимся и самомотивирующимися, и будут иметь улучшенные характеристики. Исследуемые проб-

лемы во время проектного урока могут создать эффективные сотрудничество, если промышленные организации не могут решить эти вопросы и продукт или услуга, полученные в результате обучения исследований, имеет инновационную и дополнительную ценность. Обеспечение начатия и устойчивости сотрудничества зависит от правильно оценки и реализации факторов коммуникации. В этом исследования рассматривается роль проектного образования с точки зрения развития сотрудничества между университетами и промышленностью, а также обсуждаются факторы коммуникации, влияющие на этот процесс.

**Ключевые слова:** проектное образовании, университетско-промышленная кооперация, конкурентно способность, коммуникационные факторы.

## Giriş

Küreselleşmenin getirdiği hızlı değişimlerin yanı sıra, yüksek teknolojilerin üretim ve uygulamalarının etkileri de yenilikçi ve katma değer ifade eden yaklaşımlara ihtiyacı arttırmaktadır. Sosyal ve ekonomik piyasanın karşılaştığı (veya oluşturduğu) şartlar, bu süreci daha da güncelleştirmektedir. Bilgi toplumunun ihiyaçlarına uygun olarak sosyal, politik ve ekonomik süreçlerde rekabet gücünün sağlanması için durum veya sonuçların analiz edilmesine olan önem de artmaktadır.

Sanayi toplumunda üretim araçlarının üretimi daha fiili veya daha kârlı olarak kabul edilirken, bilgi toplumunda büyük bilgi tabanlarının oluşumu ve analizi ön plandadır. Sosyo-ekonomik gelişme ve değişimler, aynı zamanda dünya nüfusunun ihtiyaç ve taleplerini de değiştirmektedir. Bu ve buna benzer faktörler, olaylara ve süreçlere farklı ve katma değeri daha fazla olan yaklaşımları talep etmektedir.

Katma değer yaratan çalışmaların ve bunların sonuçlarının geliştirilmesi ve uygulanması, değişen talepler doğrultusunda bilgi ve beceri, hatta yeni meslek alanlarının meydana gelmesini gerektirir. Bu süreç bazı alanların daha güncel olmasını sağladığı gibi, bazı meslek alanlarına olan talebi ise azaltmaktadır. Değişiklikler yeni meslek alanlarına ihtiyaç oluşturmakla birlikte, varlığını devam ettiren bazı meslek alanlarının da değişmesine neden olmaktadır. Yüksek öğretim kurumlarında yürütülen personel eğitimi ve bilimsel araştırmalar, kamunun ve iş dünyasının ihtiyaçlarını karşılamak zorundadır. Endüstride otomasyon süreci çok büyük ihtiyaca dönüşmektedir. Bazı alanlarda otomosyon uygulaması daha etkili ve rekabetçi olduğundan robotlara olan talep artmaktadır.

Değişen ihtiyaçlara göre personel eğitimi ve bilimsel araştırmalarda başarılı ve katma değeri olan sonuçlara ulaşmanın yollarından biri de eğitim sürecinde proje temelli yaklaşım metodolojisinin uygulanmasıdır.

Üniversitelerin sürekliliği ve gelişiminde başlıca iki unsur (araştırma ve eğitim) rol oynadığı halde, bazı üniversitelerde yaklaşımın yalnız öğretim yönünde olması, eğitim müesseseleri ya da kuruluşlarının gelişmesi ve yenilenmesi sürecinde ciddi sorunlara neden olabilir. Diğer yandan, eğitim-öğretim süreci toplumun sorunlarına daha verimli çözümler getirmek ve geleceğe hesaplanmış katma değerler üretmek zorundadır. Aksi halde, eğitim sürecinin başaralı olması mümkün olmadığı gibi, bireylerin ve toplumun eğitimden beklentileri de yok olabilir veya önemli düzeyde azalabilir. Dolayısı ile, eğitim sürecinde yenilenme ve piyasa talepleri doğrultusunda değişimleri sağlamak için farklı uygulamalara ihtiyaç duyulmaktadır. Son dönemlerin en yaygın ve verimli sonuçları ile dikkat çeken yöntemlerden biri de eğitim-öğretimde proje temelli ders metodolojisidir.

Eğitim-öğretim sürecindeki "proje tabanlı ders" (veya proje tabanlı ders) yöntemi özellikle üniversitenin genel performansının; dolayısıyla iyi bir eğitim ile toplumda katma değer oluş-

turabilen insan kaynaklarının oluşumunu ve gelecekte bu potansiyelin araştırmaya dayalı gelişimini sağlamaktadır. Dolayısıyla, "proje tabanlı ders" yöntemi ile yapılan eğitim süreci, sadece öğretmenlerin bilgi ve becerilerinden ileri gelen yeteneklerin değil, aynı zamanda öğrencilerin bilgi ve becerilerinin fikir ileri sürme potansiyellerinin tanımı ve gelişimiyle de daha etkili kapsam alabilmektedir.

Öğrenenlerin hızla değişen talep-teklif kriterlerine uygun olarak, yeni yaklaşımlar üretmek ve uygulamak, ayrıca müfredat dışı faaliyetlerin de etkin kullanımını sağlanmak için "proje temelli ders" yöntemi güncel olarak kabul edilir. Proje tabanlı eğitim yöntemine dayalı organizasyonel yaklaşımlar, sadece öğretmenler açısından değil, aynı zamanda öğrencilerin performansının iyileştirilmesi açısından da olumlu bir etkiye sahiptir. Bu tip ders yönteminde proje uygulamaları, öğrencilerde konuya proje bazından yaklaşma ve problem çözme becerilerini geliştirmek maksadını da taşır. Her zaman yeni kullanıcılar ve müşteriler arayışında olan şirketler için de proje bazlı yöntemlerin uygulanması ile alınan sonuçlar, insan kaynaklarının geliştirilmesi, girişimci yaklaşımlar, rekabet gücünün arttırılması ve ekonomik büyümenin sağlanması açısından ilgi çekici olmaktadır. Proje tabanlı eğitim piyasası, sorunları öğrenmek ve bu sorunlara dair çözüm arayışını sürdürmek zorundadır. Bu açıdan baktığımızda üniversite öğrencilerinin yenilikçi bakışları doğrultusunda önerilen çözümler bir taraftan öğrencilerin pratik gelişimini sağlamakla birlikte, diğer yandan var olan bazı sorunların daha verimli çözülebilmesi için iyi çözümler getirebilmektedir. Sonuçta, eğitim kurumları ile şirketler arasında kendi-kendini düzenleyen ve geliştiren bir işbirliğinin oluşturulması, böyle bir süreçle birlikte mezunların piyasa için beklenen düzeyde olmasına ve girişimciliğin daha yaygın bir hal almasına da vesile olabilir.

Üniversite ve sanayi kuruluşları arasında iyi bir işbirliğinin oluşması durumunda, her iki tarafın çıkarlarını tanımlayan ve tatmin eden, gerçekten kendi-kendini düzenleyen ve motive edebilen müspet sonuçlar verme olasılığı vardır. Proje tabanlı ders zamanı araştırılan sorunlar, sanayi kuruluşlarının çözemediği konular olduğu ve eğitim ile araştırmalar sonucunda kazanılan ürün veya hizmet yenilikçi ve katma değere sahip olduğu sürece verimli bir işbirliği oluşabilir. İlk bakışta farklı alanlarda çalışır gibi görünen akademisyen ve sanayicinin bir araya gelmeleri veya herhangi bir sorunun çözülmesi konusunda hemfikir olmaları çok önemlidir. Değer oluşturmak için daha fazla zamana ihtiyaç olduğunu kabullenmek sanayicilere kıyasla, akademisyenler tarafından daha kolay kabul edilebilir. Sanayici kısa sürede harcadığı yatırımın karşılığını fazlası ile almak isteyebilir. Bazen ise, piyasa şartları bunu zorunlu hale getirebilir. Bu veya bunun gibi durumlar akademisyenlerle sanayicilerin diyaloğunun başarısızlığına neden olabilir. Böylesi durumlarda iyi bir üniversite-sanayi işbirliği için tarafların çıkarları doğrultusunda kurulmasını sağlayan iletişim faktörleri değerlendirilmelidir. İşbirliğinin başlaması ve sürdürülebilir olması, iletişim faktörlerinin doğru değerlendirilmesi ve uygulanmasına bağlıdır.

İnvestisiyanın cəlbi üçün ilk növbədə nəzərə alınan amillərdən biri həmin ölkədə mövcud olan iqtisadi azadlığın coğrafiyası ilə birbaşa bağlıdır. Sərmayənin sərbəst hərəkəti üçün iqtisadi "orqanizmdə" qanın sərbəst dövretmə imkanı yaratmalıdır ki, "qanın" yenilənməsi və təmizlənməsi baş versin. Bu mənada hər bir ölkədə iqtisadi azadlıqların təmin olunması və dövlətin bazara müdaxilə etməməsi mühüm əhəmiyyət kəsb edir. Dövlətin müxtəlif tənzimləmə alətləri (fiskal siyasət, monetar aspekt üzrə, qanunvericilik aktları və s.) vasitəsilə bazar oyunçularına yönəlik hər hansı bir addımı qəbul edilə bilər. Eyni zamanda müxtəlif iqtisadi kombinasiyalar şəklində prosesə nəzarət və intervensiya edə bilər. Amma dövlətin mütəmadi olaraq müdaxiləsi olarsa, xarici sərmayə ölkədən çıxabilər. Harvard Universitetinin iqtisadçı professoru Dani Rodrik empirik araşdırmalar nəticəsində xarici risk nəzarət altına alınmadan xaricə açılma nisbəti artarsa, dövlətin iqtisadiyyatdakı çəkisinin də artmasını müşahidə etmişdir [14]. Ona görə, dövlətlər iqtisadiyyatda təsir gücünü artırmaqdansa, bazarda müşahidəçi statuslarını qoruyaraq bazar iştirakçıları arasında rəqabəti təşviq edən addımları atsalar, bu həmin ölkənin iqtisadiyyatının daha çox güclənməsini təmin edə bilər, nəinki əks addımların atılması. Bir dövlətin iqtisadiyyatda payı artıq olduqca o iqtisadiyyatda investisiyanın axınından böyük gözləntisi ola bilməz. Onun iqtisadiyyatda payı az olarsa, tərəfsiz orbitr iddiaçısı kimi qalmağa daha çox üstünlük verəcək. Əgər onun iqtisadiyyatda xüsusi çəkisi yüksək olacaqsa, o zaman iqtisadiyyatın işlərini qarışmaq şansları da yüksək olacaq. Azərbaycanda özəlləşdirməyə başlayan zaman özəl sektorun ÜDM-də payı faktiki olaraq 10%-dən az olmasına baxmayaraq, hazırda onun xüsusi çəkisi 85%-ə çatmışdır [3]. Müqayisə üçün bildirək ki, 10 il bundan qabaq, yəni 2007-cı ildə bu rəqəm 81 faiz təşkil edirdi. İldən-ilə iqtisadiyyatda dövlətin payının azalması iqtisadiyyatda onun oyunçu olaraq gözə daha az dəyməsinə gətirib çıxarmalıdır. Bu zaman iqtisadi azadlıqlar üçün daha böyük imkan açılmış olar. Amma iqtisadiyyatda iştirak imkanları ilə yanaşı eyni zamanda iqtisadi azadlıqların önünün açılması üçün bir neçə istiqamətdə təsirli tədbirlərin görülməsinə də marağı artırmalıyıq.

Bunun üçün "Heritage" Fondunun metadologiyasında bir neçə indikatorlarla yaxından tanış olmalıyıq ki, həmin istiqamətlər üzrə mövqelərimizdə hansı çatışmazlıqlar var və onların yaxşılaşdırmasını necə təmin edə bilərik. Bildiyimiz kimi, aparılan bu tədqiqatın məqsədi balanslaşdırılmış siyasət ilə iqtisadi vəziyyəti öyrənməkdir. Bu indeks iqtisadi inkişafı göstərmir və hər bir indikator eyni çəkiyə malikdir. Əsasən bir neçə indikatorlar üzrə aparılan tədqiqatda bu istiqamətlər əsas sayılır: hüququn aliliyi (mülkiyyət hüququ, korrupsiyadan azad olma), məhdud hökumət (fiskal azadlıq, büdcə xərcləri), tənzimlənmənin səmərəliliyi (azad sahibkarlıq, əmək azadlıqları, monetar azadlıqlar), açıq bazar (ticarət, investisiya, maliyyə azadlıqları), mülkiyyət hüquqları, korrupsiyanın səviyyəsi, azad ticarət və s. Bizim hazırda çətinlik çəkdiyimiz sahələr kimi azad iqtisadiyyat üçün dərin və sistemli institusionalreformalar, mülkiyyət hüquqları, kölgə iqtisadiyyatının miqyası və korrupsiyadan azad olma kimi pozisiyalar üzrə mövqeləri yaxşılaşdırmağa daha çox çalışmalıyıq. Çünki, iqtisadi azadlıqlar reytinqində mövqeyimiz nə qədər yaxşılaşsa, bundan təkcə dövlət udmur, eyni zamanda vətəndaşlarımız da qazanır.

## İqtisadi Azadlıq İndeksinin investorlar üçün əhəmiyyəti

Vaşinqtonun Heriteyc Təşkilatı hər il bütün dünya ölkələrini "çox azad"dan "az azad"a doğru sıralamaqla İqtisadi Azadlıq İndeksi nəşr edir. İllər ərzində aparılan müqayisələr nəticəsində müəyyən edilmişdir ki, bazar hökumət müdaxiləsindən nə qədər azad olarsa, orta səviyyəli insanın iqtisadi imkanları bir o qədər geniş olar. Biznes uğuru müəyyən bir məhsul ilə bazara daxil olub insanlarla rəqabətdə öz məhsulunuzu sata bilmək bacarığınızdan asılıdır. Azad bazar, adi insana, heç bir kapitala malik olmadan, yalnız ideya və işləmək həvəsi ilə başlayıb, böyük iş qurmaq imkanı verir. Sizin borcunuz bu sistemi anlamaq və lazım gəldikdə qorumaqdır. [7]. Amma şirkətlər bir ölkəyə investisiya qoymağa qərar verən zaman bir neçə mənbəyə istinad edirlər. Onların uzun müddətli qərar qəbuletmə prosesi zamanı investisiya kəşfiyyatı edirlər. Həmin kəşfiyyatın istinad olunası digər mənbəsi də Dünya Bankının "Doing Business" Hesabatı olur. Bu hesabatda biznesin səmərəliliyi üzrə bir neçə ardıcıl prosedurlar biri-biri ilə qarşılıqlı əlaqədədir. Biznesin yaradılması, idarə olunması və bağlanmasına sərf olunan resurlar göstərilir. Təbii ki, məqsəd daha səmərəli sistemin qurulmasıdır. "Doing Business" hesabatında isə əsasən aşağıdakı meyarlardan istifadə olunur: biznesi başlatmaq – prosedurlar, biznesi başlatmaq - vaxt (gün sayı, adambaşına düşən gəlir, minimal kapital), lisenziyanın əldə olunması - prosedurlar (vaxt, xərc) və s. Hər iki hesabatda azad sahibkarlıqla bağlı aksent xüsusi qırmızı xətlə keçir. Yəni, azad sahibkarlıqla bağlı qiymətləndirmədə tənzimlənmə qaydaları və prosedurlar ilə əlaqəli olduğuna görə investorların diqqətlərini bu məqamlar xüsusilə çəkir. İnvestisiya azadlığı olan yerdə dövlətlər daha çox şey qazanır, nəinki bazara müdaxilə etdiyi zaman. Çünki, dövlət müdaxilələri ümumi monetar siyasəti və xarici investisiyanı zəiflədir.

Bildiyimiz kimi kapital, xüsusilə xarici kapital, axınlarının sərbəstliyini qiymətləndirən göstəricidir. Azad iqtisadi ölkələrdə investisiya va ya kapitalın axınına heç bir baryer yoxdur. Bu həm sektorlar arasında daxili bazarda, həm də xarici bazara çıxışda problem yaratmır. Bir çox ölkədə bu tip baryerlər mövcuddur. Xüsusilə xarici valyutanın bazara gətirilməsi, transferlər üzrə baryerlər, bəzi sahələrin xarici investisiyaya bağlı olması, süründürməçilik, zəif infrastruktur, siyasi vəziyyətin çətin olması və s. buna təsir edə bilir. Başqa məşhur qiymətləndirmə (illik deyil) Avropa Yenidənqurma və İnkişaf Bankının "Results of Business Environment and Enterprise Performance Survey, (BEEPS)" hesabatıdır [4]. Yuxarıda qeyd edilən bütün qiymətləndirmə göstəriciləri arasında oxşarlıqlar az deyil. İlk növbədə biz bunu nəzərə alınan amillər və göstəricilər siyahılarından görə bilərik.

## İqtisadi azadlıqların qazandırdığı üstünlüklər

Bu yanaşmaları ümumiləşdirərək deyə bilərik ki, iqtisadi azadlığın təmin edildiyi ölkədə fəaliyyət göstərmək o deməkdir ki: (ı) siz çox asan və qısa müddətdə özəl şirkət və ya digər sahibkarlıq subyekti yarada bilərsiniz, (ıı)sizin xariclə ticarətinizdə tətbiq edilən tariflər ağır deyil, (ııı)sizin gəlirlərinizdən ödənilən vergilər böyük deyil, (ıv) sizin biznesiniz dövlət və özəl mülkiyyətdə olan müəssisələrin haqsız rəqabəti ilə qarşılaşmır; (v)sizin işlərinizə dövlət əsasssız müdaxilə etmir,(vı) sizin biznesiniz yüksək inflyasiya və qiymətlərin dövlət tərəfindən tənzimlənməsi şəraitində baş vermir, (vıı) siz işçilərinizin işə qəbulunda və işdən azad edilməsində dövlətin ağır tənzimləyici qaydalarından əziyyət çəkmirsiniz, (vııı) sizin biznesinizlə əlaqəli sərmayə yatırımları və axınları sərbəstdir, (ıx) sizin bank sirriniz qorunur, (x) sizin mülkiyyət hüquqlarınız dövlət tərəfindən tam qorunur (xı) və siz hakimiyyət qollarının korrupsiya təzyiqlərinə məruz qalmırsınız.

Yuxarıda qeyd edilən iqtisadi azadlıq və biznes mühitinin qiymətləndirmələrini bəzi qeyri-demokratik ölkələr bəyənməyə bilərlər, lakin nəzərə almalıyıq ki, bu qiymətləndirmələrə dünyada hörmətlə yanaşma mövcuddur (aparıcı dövlətlər, beynəlxalq maliyyə qurumları, beynəlxalq təşkilatlar, investorlar). Hər metodolojinin arxasında isə dünya səviyyəli alimlər durur. Çünki, alimlərin elmi əsaslarla gəldikləri qənaətlər investorların ölkələr üzrə qiymətləndirmələri üçün olduqca ciddi mənbə rolun oynayır. İnvestorların sabit yer axtarması və zəif səviyyəli müdaxilə etmədiyi bazarlar axtarırlar. "Kapital hay-küydən və döyüşdən qaçır, çünki öz təbiəti etibarı ilə qorxaqdır... Lakin kifayət qədər mənfəət olduqda isə kapital cəsarətlənir. 10% mənfəət olsa kapital hər şəkildə işlədilməsinə razı olur; mənfəət 20% olduqda kapital cuşə gəlir (qızışır); 50 % olduqda isə hətda başını da verməyə razıdır; mənfəət 100 % olduqda kapital bütün bəşər qanunlarını tapdalayır; mənfəət 300 faiz olduqda, o hətta (dar ağacından da asılacağını göz önündə tutmalı olsa da, heç bir cinayətdən geri durmaz)" [13]. Nə qədər obrazlı ifadələrlə bəzənməsinə baxmayaraq, amma investisiyanın bazar payı və mənfəət norması yüksək olarsa, o zaman investor bütün gücü ilə həmin bazara yürüyəcək. İqtisadi açılımların olması isə investorun sürət həddini daha da artıracaq. Ölkələrdə inkişaf səviyyələri müxtəlifdir. Lakin bu inkişafın hansı amillər hesabına təmin edilməsi olduqca fərqli nəticələr çıxarmağa imkan verir.

## Demokratik idarəetmə və iqtisadi azadlıqlar arasındakı əlaqə

Demokraotik idarəçiliklə davamlı iqtisadi inkişaf arasında bir bağlılığın olması çoxsaylı tədqiqatlarda yer alır. Demokratiyanın qlobal xəritəsinə baxanda isə daha fərqli mənzərənin şahidi oluruq. Bir neçə il bundan öncə aparılan bir tədqiqatda Demokratiya İndeksinə görə ölkələr qruplaşdırılmışdı. The Economist Intelligence Unit-in (Britaniya jurnalının Economist analitik bölməsi) tədqiqat şirkəti "dünyanın ölkələrinin demokratiyasının İndeksi 2011-ci ili" (Democracy Index 2011) üçün hesabatı olduqca maraqlı nəticələri ortaya çıxardı. Bu araşdırma dünyanın 167 ölkəsi üzrə aparılıb. Bu araşdırmada hakimiyyətin demokratiya ilə şərtlənən 4 formada ifadə ediblər. Tam (dolu) demokratiya, kifayət etməyən demokratiya, hibrid rejim və nüfuzlu rejim. Dolu demokratiya kriteriyasına dünyada cəmi 25 ölkə düşür. Bu isə dünya əhalsinin cəmi 12%-nin tam demokratik idarəetmə sistemində yaşadığını ortaya çıxarır. Bunlar, başda Norveç olmaqla əsasən Avropa İttifaqına daxil olan ölkələrdirlər. "Kifayət etməyən demokratiya" bölməsində isə ölkələrin 30%-dən azı olan 53 ölkə var. Demokratiya və avtoritar elementlərin birləşdiyi və şərti olaraq "Hibrid rejimlər" blokda isə 37 ölkə daxildir. "Nüfuzlu rejimlər" adlanan, əslində isə sərt idarəçilik, xalqlara sırınmış "xarizmatik" liderlərin və polis rejiminin möhkəm olduğu adlanan ölkələrin sayı isə 52-dir. Belə ölkələrdə yaşayan insanların sayı dünya əhalisinin 2,5 milyardını təşkil edir. "Nüfuzlu rejimlər" qrupuna daxil olan Çin bu əhali payında xüsusi çəkiyə malikdir. Yəni, bütün bu bölgü onu bir daha göstərir ki, dünya ölkələri əsrin əvvəllərindən daha sürətli start götürən demokratiyaya doğru irəliləməkdədir. Bu marafon yarışından xalqları saxlayan və ya ləngidən isə "mental düşmən" anlayışı yox, idarəçilik sistemləri, iqtisadi və siyasi azadlıqların olmaması ilə bağlıdır. İqtisadi azadlıqlar da daxil olmaqla bütün növ azadlıqlar təmin olunanda ölkə cəlbedici məkana çevrilir. İnvestorların daha çox can atdıqları həmin iqtisadiyyat isə davamlı iqtisadi artıma və rifaha sürətlə qovuşur.

Çoxsaylı təcrübələr göstərir ki, ölkələrdə iqtisadi azadlıqların daha az verildiyi ölkələr təbii resurslarla zəngin ölkələrdir. Resurs üstünlüyünə görə böyük iqtisadi artıma nail olan hökumətlərə elə gəlir ki, bu davamlı olaraq ÜDM-in genişlənməsi ilə uzun müddətli "resurs iynəsi" üzərində otura biləcəklər. Lakin, həmin hökumətlər adətən sosial gərginliyin spontan

artmasını heç cürə proqnozlaşdıra bilmirlər. Həmin ölkələrdəki hakimiyyət budaqları arasında asılılığın və yaxşı idarəetmənin olmaması, təbii resursların satışından cəmiyyətin xəbərsiz olması üçün qapalı sistem yaratmasında daha çox maraqlı olurlar. Yaradılan sistem daha çox cəmiyyətin məlumatsızlaşmasına proyeksiyalandığından qapalı sistem yaratmağa çalışırlar. Çünki açıq sistemlər daha çox bölüşmə və ya paylaşma siyasəti və mədəniyyəti tələb edir. "Kapitalın intibahı" təşkilatının ekspertləri 150 ölkənin son 60 illik tarixində apardıqları araşdırmanın nəticələrinə görə, istənilən bir dövlətdə zəngin subyektlərin (biznes oyunçularının, ev təsərrüfatların) avtoritar sistemə adaptasiya edərək yaşamasını qeyri-mümkün hesab edirlər.

Fundamental tədqiqatlar isə göstərir ki, adambaşına düşən ÜDM səviyyəsi demokratik sistem arasında bir qarşılıqlı əlaqə var. Tədqiqat nəticələrinə görə, o ölkələrdəki, adambaşına düşən ÜDM-in səviyyəsi 3000 ABŞ dolları həddindədir, orada demokratiyanın elementlərindən olsa-olsa danışmağa dəyər. Əgər adambaşına düşən 6000 dollardan söhbət gedirsə, həmin ölkədə demokratiyanı əzmək elədə asan deyil. Sanki, bu hədd demokratiyaya keçid həddindədir. Əgər adambaşına düşən ÜDM-in səviyyəsi 10 min dollar və ya onun üzərindədirsə, həmin ölkədə demokratiyanın geridönməzliyindən danışmaq lazımdır. Həmin o geridənməz və "ölməz" demokratik ölkələr kateqoriyasına daxil olan arasında Meksika, Braziliya, Türkiyə və Cənubi Koreya da var. Təbii ki, Avropa İttifaqına daxil olan ölkələrdə bu rəqəm olduqca böyükdür. Tədqiqatın müəlliflərindən olan Çarlz Robertson hesab edir ki, əhalinin gəlirləri aşağı düşəndə, əhalinin sosial-iqtisadi vəziyyəti gözlənilmədən aşağı düşürsə, demokratiyaya ciddi təhlükə yaranır: "Gəlin baxaq, nə vaxt ki, biz toxuq, mənzil problemlimizi həll edirik və maşın almaq haqqında düşünürük, o zaman siyasi hüquqlarımızı tələb edirik "Bütün mənalarda demokratiyaya alternativ yoxdur. Əgər bir ölkədə demokratik idarəçilik varsa, həmin ölkədə siyasi və iqtisadi azadlıqlardan da danışmaq mümkün olur. İqtisadi azadlıqların olduğu ölkələrdə isə yüksək milli gəlir formalaşır. Yüksək milli gəlir isə qapalı idarəçiliyin mövcud olduğu halda uzun müddət mümkün ola bilmir. Beynəlxalq Açıq Büdcə İndeksinin (OBİ) tədqiqat nəticələrində qeyd edilir ki, yüksək səviyyədə olan milli gəlirə malik ölkələrdə büdcə şəffaflığa da istiqamətində meyllilik aşağı səviyyədə olur. Məsələn, nisbətən rifah səviyyəsi yüksək olan Səudiyyə Ərəbistanı Trinidad, Tobaqo və Malayziya kimi ölkələrdə fiskal boşluqlar var. Fiskal boşluqların aradan qaldırılması üçün dövlət maliyyə idarəçiliyində şəffaflıq, səmərəlilik və hesabatlılıq çox mühüm amillərdir. Məhz bu amillər fiskal idarəçiliyin "sac ayaqlarını" təşkil edir.

### İnvestisiyanın siyasəti, yoxsa siyasətin investisiyanı şərtləndirməsi?

Dövlətlər ölkə sərhədləri daxillərində bazar iştirakçılarına maksimum sərbəstlik verməyən aparmaq istədikləri siyasət pozitiv nəticələrə gətirib çıxara bilməz. Onların siyasətləri investorlara təsir etsə, o zaman onlar davamlı iqtisadi artıma da nail ola bilməyəcəklər. Yuval Noah Harari özünün əsərində [16] yazır: "Sərmayə siyasətə sərbəst şəkildə təsir etməlidir, amma siyasətin sərmayəyə təsir etməsinə yol verməmək olmaz. İqtisadi artıma nail olmaq üçün dövlət mümkün qədər az müdaxilə etməlidir." Çünki, az müdaxilə isə bazar sərbəstliyi deməkdir. Azad bazar isə investorların daha çox sevdiyi özünüifadə meydanıdır. Onlara bu meydanı verdikcə, bazarda rəqabət artacaq ki, bu rəqabətdən yaranmış enerji isə ölkənin xaricinə yox, daxilinə axacaq. Bu cür enerjini, gücü özünə qazandırmağı bacaran dövlətlər təkcə iqtisadi azadlıqları verən ölkələr olmurlar, həm də azad ölkə olurlar.

Dünya Bankının "Doing Business" hesabatına görə, 2018-ci ildə Azərbaycan 190 ölkə içərisində öncəki ilin 65-ci mövqeyindən 70,19 bal ilə 57-ci yerə gəlmişdir. Aşağıdakı cədvəl 1-

dən görə bilərik ki, Azərbaycanın reytinqi Polşa, Rusiya, Ruminiya, Bolqarıstan və regional ortalamadan aşağıdır. Bunun əksinə, "biznesə başlama" indeksində Azərbaycan, dünyada 18-ci ölkədir. 2017-ci ildə Azərbaycan 5-ci sırada olmasına baxmayaraq, indiki vəziyyəti ilə də sadalanan ölkələrdən və həmçinin regional ortalamadan qabaqdadır. Buna baxmayaraq, ölkənin ümumi indeksini aşağı salan "kredit götürmə" indeksidir. Bel' ki, 2016-cı ildəki 109-cu pillədən 122-ci ölkə sırasına düşmüşdür. Müqayisə üçün deyək ki, Azərbaycan bu indeksdə 2010-cu ildə dünyada 183 ölkə içərisində 15-ci ölkə idi.

**Qrafik 1.** Azərbaycanın ümumi "Doing Business" (solda) və onun içində "Biznesə başlama" indeksində mövqeyi (sağda)




**Mənbə:** http://www.doingbusiness.org/data/exploreeconomies/azerbaijan

Bununla yanaşı, "Kiçik investorların qorunması" indeksində ölkə 2016-ci illə müqayisədə 26 ölkə qabağa gələrək 10-cu yerdədir. "Şirkətin bağlanma proseduru" və ortaya çıxan öhdəliklərin həllində 2016-cı illə müqayisədə 37 ölkə yuxarı gələrək 47-ci sıradadır. Bundan başqa, "Xarici ticarətin aparılması" indeksində də 11 ölkə irəliləməsi, Azərbaycanın ümumi mövqeyini 6 ölkə yuxarı çıxartmışdır. Bunun əksinə, "Tikintiyə icazə" göstəricisində 47 ölkə aşağı düşərək dünyada 161-ci ölkə olmuşdur.

**Cədvəl 1.** Azərbaycanın190 ölkə içərisində və 100 ballıq sistemdə "Doing Business" şkalasında yeri və balı (2016-2018)

| Sahələr | DB 2016 sırası | DB 2017 sırası | DB 2018 sırası | DB 2016 balı | DB 2017 balı | DB 2018 balı | Balın dəyişməsi % | Ölkə sırasının dəyişməsi |
|---|---|---|---|---|---|---|---|---|
| **Ümumi qiymət** | 63 | 65 | 57 | 67.8 | 67.07 | 70.19 | **2.39** | **-6** |
| **Biznesə başlama** | 7 | 5 | 18 | 97.75 | 97.74 | 94.36 | **-3.39** | **11** |
| **Tikintiyə icazə** | 114 | 127 | 161 | 65.79 | 63.63 | 54.9 | **-10.89** | **47** |
| **Elektrik əldə etmə** | 110 | 105 | 102 | 63.01 | 64.83 | 67.98 | **4.97** | **-8** |
| **Əmlak qeydiyyatı** | 22 | 22 | 21 | 82.55 | 82.52 | 82.07 | **-0.48** | **-1** |
| **Kredit alma** | 109 | 118 | 122 | 40 | 40 | 40 | **0** | **13** |
| **Kiçik investorların qorunması** | 36 | 32 | 10 | 63.33 | 65 | 75 | **11.67** | **-26** |
| **Vergilərin ödənməsi** | 34 | 40 | 35 | 83.77 | 83.52 | 84.21 | **0.44** | **1** |
| **Xarici ticarətin aparılması** | 94 | 83 | 83 | 69.59 | 72.28 | 73.56 | **3.97** | **-11** |
| **Müqavilələrin icrası** | 40 | 44 | 38 | 67.51 | 65.66 | 67.51 | **0** | **-2** |
| **Şirkətin bağlanma proseduru** | 84 | 86 | 47 | 44.68 | 44.77 | 62.27 | **17.59** | **-37** |

**Mənbə:** [9] hesabatları əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

"Heritage" fondu hesabatına görə, Azərbaycan, biznes, əmək, pul və ticarət azadlıqları indekslərində yüksək bala sahibdir və vergi yükü və maliyyə möhkəmliyində isə digərlərindən daha yuxarı olmaqla dünyada 33-cü və 22-ci yerdədir. İqtisadi Azadlıq İndeksində 10 faktor üzrə Azərbaycanın orta qiyməti 1996-cı ildə 30% səviyyəsindən 2010-cu ildə 60% dünya ortalamasına yüksəlmişdir və 2017-ci ildən dünya ortalamasını keçmişdir.

**Qrafik 2.** Azərbaycanın İqtisadi Azadlıq İndeksində 12 faktor üzrə mövqeyi




**Mənbə:** Qrafik [10] məlumatları əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

**Qrafik 3.** Azərbaycanın İqtisadi Azadlıq İndeksində müqayisəli ortalaması, 1996-2017-ci illər




**Mənbə**: [10]

2017-ci il üçün Azərbaycanın maliyyə (+1.1), biznes (+6.7) və əmək azadlığı (15.6) reytinqi dünya ortalamasından yuxarıdır, lakin investisiya(-4.7), ticarət (-2) və maliyyə azadlığı (-3.1) indekslərində ortalamanın aşağısındadır. Bununla yanaşı, vergi yükü indeksi(+10) dünya ortalamasının üstündə olsa da, dövlət xərcləri (-8), dövlətə inam (-4.8) və mülkiyyət haqqı (-1.7) indeksləri qrupu aşağıdır. Son illərdə yaşanan iqtisadi artım, yaxşı coğrafi mövqeyi, rəqabətli mallar, ucuz və keyfiyyətli işçi qüvvəsi, çoxlu sayıda qarşılıqlı ticarət anlaşmaları, Azərbaycan iqtisadiyyatının güclü tərəfləridir. Lakin, bürokratiya səviyyəsi, qeyri-neft sektorunda investisiya səviyyəsini azaldır. [22]. Azərbaycanın "Korrupsiya indeksi" 2012-ci ildə 27 baldan 2016-cı ildə 30-a, yəni 176 ölkə içərisində 123-cü yerə düşmüşdür. [20]. İnsani inkişaf indeksi (HDI) isə 2000-ci ildəki 0.64 səviyyəsindən cüzi artaraq 2010-cu ildə 0.741 səviyyəsinə və 2016-cı ildə 188 ölkə içərisində 78-ci mövqeyə və 0.759 səviyyəsinə çatmışdır [23].

Azərbaycanın statusu, infrastruktur, ticarət, biznes sertifikatı mövzularında Şərqi Avropa və Asiya ölkələri qrupunda və orta gəlirli ölkələr sırasından çox yüksəkdir. Ancaq, *rüşvət* və *korrupsiya* və həmçinin *ədalətli məhkəmə düşüncəsi* ortalamadan aşağıdır [4]. "Doing Business" hesabatına görə, Azərbaycanın *investorları qoruma indeksi* region ortalamasından yuxarıdır. Belə ki, *Köçürmə şəffaflığı indeksi* ən yüksək (10), *Menicer məsuliyyəti indeksi* (5.0) region ortalaması kimi, *Səhmdarların gücü indeksində* (7.0) ortalamadan yuxarıdır.

İqtisadi azadlıq yönündə hökümət tərəfindən güclü addımlar atılmışdır. Biznes qurmaq üçün bürokratik əngəllərin azaldılması məqsədiylə inzibati və hesabat sənədlərinin təqdim edilməsi üçün *"tək pəncərə" sistemi* yaradılmışdır. Bunun nəticəsində, 2007-ci ilin 25 Oktyabrından yeni biznes qurmaq proseduru15-dən 1-ə düşmüş və bunun üçün artıq 30 gün yox, 3 gün lazım olur. Bununla yanaşı, 2009-cu ildə Fövqəladə Hallar Nazirliyi qısa müddətə tikintiyə icazə almaq üçün də belə sistem qurmuşdur. Həmin sistemin gömrük rəsmiləşdirilməsində tətbiqi, iqtisadi azadlıq indeksini yüksəltmişdir. Biznesi stimullaşdırmaq üçün edilən başqa önəmli addım kimi, lisenziya üçün lazım olan sənədlərin azaldılması göstərilə bilər [2].

Azərbaycan hökuməti tərəfindən aparılmış məqsədyönlü addımlardan biri *İnvestisiya Təşviqi Sənədi*nin tətbiqidir. Bu sertifikat yüksək önəmə sahib sənaye sahələrində 7 il müddətinə xüsusi imtiyazlar verir. Bu imtiyazlardan əsasları, fiziki və hüquqi şəxslərin gəlir vergisinin yarısından azad olma, torpaq və əmlak vergisindən tam azad olma, texnologiya və digər məhsulların idxalında ƏDV və gömrük rüsumlarından tam azad olma qiymətləndirilə bilər və 2017-ci ilin Aprel ayına dəyəri 1.2 milyard manat olan 121 layihə bu imtiyazdan istifadə etmişdir. [18, 19].

2016-cı ilin Yanvar ayında Azərbaycan Respublikasının prezidenti milli iqtisadiyyatın strateji yol xəritəsini təyin etdi və 2017-ci ilin Mart ayında isə paytaxt Bakıdan 65 km cənubda 400 hektarlıq Bakı Beynəlxalq Dəniz Limanı da içində olan Azad İqtisadi Zona yaradıldı [21]. 2008-ci ildən əvvəl, ölkədə biznes qurmaq üçün 2 ay vaxt lazım olan 5 fərqli orqanda qeydiyyat, 15 prosedur, 33 sənəd tələb olunurdu. Lakin e-qeydiyyat sisteminə görə, sahibkarlar7 sənədi və 6 proseduru keçməklə həyata keçirirlər və bunun sahibkarlara illik təxmini 8.4 milyon dollar qənaət edəcəklər. (Bagaudinova, Khalifa, &Petriashvili, 2009). Şirkət qurmaq üçün rüsum MMC üçün 11 manat, kənd təsərrüfatı sahəsində isə 3 manat təşkil edir. Bununla yanaşı, xarici şirkətin yerli nümayəndəliyinin açılmasına 220 manat lazımdır. 2005-ci ildə isə Azərbaycanda biznes qeydiyyatı üçün 123 gün tələb olunurdu. [9]

Biznesin idarəedilməsinin hüquqi bazasının inkişafı baxımından atılan ən önəmli addımlardan biri də, 2012-ci ildə qurulan *Asan Xidmət* mərkəzləri olmuşdur. Belə ki, sahibkarlar bürokratik əngəllərə ilişmədən, çox sadə yollarla və qısa müddətə bir çox növ lisenziya, VÖİN və digər işlərinin həll edir. 2015-ci ilin Noyabr ayından etibarən sahibkarlara yönəlik bütün növ yoxlamalar iki illik dayanadırıldı və sonradan bu 2021-ci ilə qədər uzadıldı. [2], [24]. Xarici investorların qanun və lazımi sənədlələ birbaşa tanış olmaları üçün 2011-ci ildə "İcazələrin elektron informasiya portalı" yaradılmışdır ki, indiyədək 400 min adama köməklik göstərilmişdir. [17].

Azərbaycan son illərdə bir sıra regional və qlobal layihələrdə iştirak etmişdir. 2017-ci ilin Oktyabr ayında İpək Yolu adlandırılan Avropa və Asiyanı birləşdirən Bakı-Tiflis-Qars sərnişin və yük dəmiryolu layihəsi başlandı. Bakı-Tiflis-Ceyhan neft kəməri və Bakı-Tiflis-Ərzurum qaz xətti də regionda iqtisadi əməkdaşlığı artırır. 2015-ci ildə Avropanın enerji probleminin həlli üçün Trans-Anadolu qaz kəməri layihəsinə başlanıldı.

İnvestisiyaların qarşılıqlı qorunması sazişi Türkiyə, Rusiya, BƏƏ, Səudiyyə Ərəbistanı, ABŞ, BB, Almaniya və Polşa daxil olmaqla 49 ölkə ilə bağlanmışdır. Həmçinin, 2002-ci ildən investisiyaların çox tərəfli qorunması sazişi OPEC –in Beynəlxalq İnkişaf Fondu (*OFID*) ilə razılaşdırılmışdır. Bununla yanaşı, 40 ölkə ilə ikiqat vergiləndirmə müqaviləsi bağlanmışdır. 2016-cı ilin Fevral ayında, hökümət maliyyə sektoruna nəzarət və tənzimləmək üçün və çirkli pulların yuyulmasına, terrorizmin maliyyələşdirilməsinə qarşı və şəffaflığın artırılması üçün *Maliyyə Bazarlarına Nəzarət Palatası* yaratmışdı. [1,6, 8]

**Qrafik 2.** Azərbaycan iqtisadiyyatına qoyulan Birbaşa Xarici İnvestisiyaların (BXİ) dinamikası




**Mənbə:** Dünya Bankı məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. https://data.worldbank.org/

İqtisadi Azadlıq İndeksində bu növ yaxşılaşdırmalar, nəticədə BXİ axımını sürətləndirmişdir. Belə ki, 2000-ci ildə 1.3 milyard dollardan az olan BXİ 2012-ci ildə ənyüksək həddinə çatmış (5.3milyard dollar) və 2016-cı ildə 4.5 milyard dollar olmuşdur. Bununla yanaşı, BXİ axımının ÜDM-dəki payı azalmışdır. Həmçinin, Azərbaycan iqtisdiyyatı 2003 neft bumu dövründən sonar çox sürətlə inkişaf etmiş və ölkəyə BXİ axımı sürətlənmişdir. Bu azalmanı, ÜDM-nin artım sürəti ilə və digər ölkələrə qoyulmuş investisiyalarla əlaqələndirmək olar. 2013-cü ildə, ÜDM-nin artımına baxmayaraq, ölkəyə BXİ-ın həcmi 2 dəfə, ölkədən BXİ-ın həcmi isə 3 dəfə azalmışdır. Eyni zamanda, həmin il, DNF-dan ən çox tranfretlə dövlət büdcəsi ən yüksək səviyyəsinə çatmışdır. Belə ki, müsbət saldo ilə dövlət əsas layihələrin maliyyələşməsinə xarici sərmayeyə ehtiyac duymamışdır.

## Nəticə və təkliflər

Azərbaycanda, 1994-cü ildə özəlləşdirmə prosesi başlayarkən 10%-dən az olan özəl sektor, 2017-cı ildə 85% -ə qədər artmışdır. Dövlət sektoru müqayisədə kiçilərkən, iqtisadi azadlıq şansı artmışdır. Həmçinin, regional və qlobal müqavilələrin artmasıyla, Azərbaycan regionda logistik və enerji şəbəkəsinə çevrilmişdir. İqtisadi nəzəriyyənin dediyi kimi, iqtisadi azadlığın artmasıyla ölkəyə BXİ həcmi artmışdır. Belə ki, 2000-ci ildə 1.3 milyard dollardan az olan BXİ, 2004-cü ildən artaraq, 2012-ci ildə ən yüksək həddinə (5.3milyard dollar) çatmışdır. Bununla yanaşı, BXİ axımının ÜDM-dəki payı azalmışdır. Azərbaycanın iqtisadi azadlıq səviyyəsi artaraq 2013-cü ildən "orta azad" qiymətləndirilərək dünya ortalamasını (+2.7 bal) üstələmiş vəziyyətdədir. Bu əsasən, maliyyə və vergi siyasəti nəticəsində olmuşdur. Lakin, hələ də "Qanun" və "Açıq bazar" qrupları indekslərində problemlər qalır. Bu sahədə aşağıdakı təklifləri ümumiləşdirmək olar:

- İqtisadi artımı fakt olaraq deyil, onun hansı amillər hesabına strukturunun genişlənməsini dərindən təhlil etməli,iqtisadi nəticələrdən daha çox, onun sektoral dəyərləndirilməsinə önəmi artırmaqla, investorların növbəti illərdə davranışlarını proqnozlaşdırmaq;
- İnvestorların maraqlarının həmin ölkəyə daşımaq və onun cəzaibədarlığını artıran, epizodik tədbirlər deyil, daha çox həmin ölkədəki iqtisadi azadlıqların yüksək səviyyədə təmin olunması hesabına cəlbinə nail olunmasına fokuslanmalı;
- Təbii resursla zəngin ölkələrin resurs gəlirlərinə arxayın olaraq qeyri-resurs sektorunun inkişafını kənarda saxlamalı yox, post-resurs dövründə daha əlverişli investisiya mühiti yaratmaqdan ötrü resurs üstünlüyü olduğu zaman kəsiyini iqtisadi azadlıq göstəriciləri

üzrə hazırlıq mərhələsi olmasını nəzərə alması; Bunun üçün dövlət-özəl sektor (PPP) ortaqlığı artırılmalıdır.

- İqtisadi Azadlıqlar İndeksi üzrə ölkələrin mövqeyinin yaxşılaşdırması üçün tələb olunan indikatorlar üzrə pozitiv dəyişiklər etməklə, çox vektorlu reformların reallaşdırması vasitəsilə daha cazibədar məkana çevrilməyə proyeksiallanması;
- Dövlət siyasətlərinin investisiya siyasətindən əlahiddə şəkildə müəyyənləşməsinin strateji baxımdan yanlış olduğuna görə, investisiya siyasətinin dövlət siyasətində nəzərə alınması üçün koordinasiyalı fəaliyyətin prioritet təşkil etməsi;
- İnvestisiyaları cəlb etmək üçün iqtisadi azadlıq indekslərini artıracaq layihə və siyasətlərin həyata keçirilməsi vacibdir: ÜTT-yə üzv olmaq önəmli addım sayıla bilər.
- Xarici investisiya siyasəti, dövlətin iqtisadi strategiyasının mərkəzində olmalıdır.

**ƏDƏBİYYAT**


1. ABŞ İxracat Departamenti, https://www.export.gov/article?id=Azerbaijan-Bilateral-Investment-Agreements;
2. Alirzayev and Abdurazzakov (2016), "*Government Support for Entrepreneurship: Case of Azerbaijan*", 9th International Conference for Entrepreneurship, Innovation and Regional Development, 24 June 2016, Bucharest, Romania
3. Aras Osman Nuri, Suleymanov Elçin. Azərbaycan iqtisadıyyatı. Şərq Qərb mətbəəsi. Bakı. 2016.
4. Avropa Yenidənqurma və İnkişaf Bankının "Results of Business Environment and Enterprise Performance Survey, (BEEPS)" Hesabatları və raportları
5. Beynəlxalq Açıq Büdcə İndeksi Hesabatları
6. BMT-nin (UNCTAD), Investisiya Siyasəti Raportu http://investmentpolicyhub.unctad.org/IIA/CountryBits/13
7. Brayan Treysi: "Uğurun 100 qanunu" (Biznes uğurunun inkaredilməz qanunları) , Bakı-2014
8. CLS (2016) Guide on Doing Business in Azerbaijan, Capital Legal Services LLC, Baku, Azerbaijan
9. Dünya Bankı (WB) Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) illik "Doing Business" Hesabatları, 2005-2018 ci illər
10. "Heriteyc" Təşkilatının Hesabatları (The Heritage Foundation Report, 2017)
11. Beynəlxalq Maliyyə Təşkilatı (2009), Azerbaijan Business Registration Report, WBG Investment Climate Advisory Services program, International Finance Corporation,Washington DC. , http://www.ifc.org/wps/wcm/connect/f0e1e2804a1d4c838f809f02f96b8a3d/OSS_report_eng.pdf?MOD=AJPERES&CACHEID=f0e1e2804a1d4c838f809f02f96b8a3d
12. "Kapitalın İntibahı" Təşkilatının Hesabatları
13. Marks, K "Kapital", I cild, Bakı, 1969, s.758
14. Rodrik, Dani Why do more open economicies have higher governments?, Journal of Political Economy, 106(5) 997-1032, 1998, ISBN: 0-88132-241-5
15. Talıblı, M. "Korelyasiya: Iqtisadi artim və siyasi azadlıqlar", Bakı-2012
16. Yuval Noah Harari: "Sapiens: Bəşəriyyətin Qısa Tarixi", Bakı-2017, səh. 262
17. http://icazeler.gov.az/en/news/over-390-thousand-people-use-wwwicazelergovaz-portal/
18. http://www.privatization.az/index.php/en/business-guide/investment-protection ;
19. http://en.apa.az/azerbaijan_business/azerbaijan-gives-investment-promotion-certificate-to-121-projects.html
20. www.transparency.org/cpi
21. https://www.state.gov/e/eb/rls/othr/ics/2016/eur/254339.htm
22. https://www.nordeatrade.com/dk/explore-new-market/azerbaijan/investment
23. http://hdr.undp.org/en/2016-report
24. http://www.e-qanun.az/framework/31093

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2018. Volume 2, Number 2* *Pages 159-163*

***UOT: 330.12; 338.48***

# KƏND ƏHALİSİNİN HƏYAT SƏVİYYƏSİNİN YAXŞILAŞDIRILMASINDA KƏND TURİZMİNİN ROLU VƏ ONUN MÖVCUD VƏZİYYƏTİ

**ƏLİYEVA JALƏ R.**
AMEA, İqtisadiyyat İnstitutu,
*jale-2015@rambler.ru*

**XÜLASƏ**

Məqalədə son illər kənd turizminə marağın artması və turizmin inkişafı istiqamətində dövlətin apardığı siyasətdən bəhs edilir. Kənd turizmi kənd yerlərində yaşayan əhalinin gəlirlərinin artmasında, onların həyat səviyyəsinin yaxşılaşmasında əhəmiyyətli rol oynaya bilir. Bu baxımdan kənd əhalisinin turizm xidmətləri göstərmələrinə mane olan səbəblər araşdırılmış, onların məişət-abadlıq şəraiti təhlil edilmişdir. Məqlənin sonunda kənd turizminin inkişafının genişləndirilməsinə səbəb ola biləcək təklif və tövsiyyələr irəli sürülmüşdür.

**Açar sözlər:** kənd turizmi, həyat səviyyəsi, əhalinin gəlirləri, abadlıq şəraiti, məşğulluq.

**THE ROLE OF RURAL TOURISM IN IMPROVING THE LIVING STANDARDS OF THE RURAL POPULATION AND ITS CURRENT STATE**

**RESUME**

The article talking about increasing interest to rural tourism in the last years and the policy of the state for the development of tourism. Rural tourism can play an important role in increasing cash incomes of rural populations and improving their living standards. In this regard were investigated the reasons that impede the provision of tourism services to the rural population were analyzed their living and living conditions. At the end of the article gave suggestions and recommendations for expanding tourism development.

**Key words:** rural tourism, living standards, income of the population, household amenities, employment.

**РОЛЬ СЕЛЬСКОГО ТУРИЗМА В ПОВЫШЕНИИ УРОВНЯ ЖИЗНИ СЕЛЬСКОГО НАСЕЛЕНИЯ И ЕГО ТЕКУЩЕЕ СОСТОЯНИЕ**

**РЕЗЮМЕ**

В статье в последние годы обсуждается увеличение интереса к сельскому туризму и политика проводимая государством в области развития туризма. Сельский туризм может играть важную роль в увеличении доходов населения живущей в сельской местности и повышения их уровня жизни. С этой точки зрения были исследованы причины препятствующие предоставлению сельскому населению, туристических услуг и проанализированы их условия жизни. В конце статьи были сделаны предложения и рекомендации о развитии сельского туризма.

**Ключевые слова:** сельский туризм, уровень жизни, доходы населения, удобства, условия проживания, занятость.

## Giriş

Dünyada son illər ərzində iqtisadiyyatın digər sahələrində olduğu kimi turizm sahəsində də mühüm dəyişikliklər baş vermişdir. Belə ki, turistlərin sayında, turizmdən gələn gəlirlərin həcmində artımlar baş vermiş, müalicə-sağlamlıq, kommersiya, idman, dini, ekoturizm və kənd turizmi kimi yeni turizm növləri inkişaf etməyə başlamışdır. Son illər dünya turizm sənayesində kənd turizmi mühüm yer tutur. Xüsusilə böyük meqapolislərin əhalisi üçün şəhərin səs-küyündən uzaqda səfalı, yaşıllıqlarla zəngin, sakit və daha təbii ərazilərdə istirahət cəlbedici görünür. Təbiətlə təmasda olmaq, ekoloji cəhətdən təmiz, orqanik ərzaqlarla qidalanmaq istəyi kənd həyat tərzinə, mədəniyyətinə və adət-ənənələrinə maraq iri sənaye şəhərlərində yaşayanlarda kəndlərdə istirahət etmək arzusu yaradır.

Turizmin bu növünün inkişafı kəndlərin və kənd təsərrüfatının inkişafında, sosial-mədəni xidmət sahələrinin yaradılmasında və onların göstərdiyi xidmətlərin səviyyəsinin yüksəldilməsində, əhalinin məşğulluğunun təmin edilməsi və gəlirlərin artırılmasında əhəmiyyətli rola malikdir.

## Kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasında kənd turizminin rolu

Qeyd etdiyimiz kimi, kənd yerlərində turizm təsərrüfatının inkişafı müstəsna sosial-iqtisadi əhəmiyyətə malikdir. Belə ki, turizmin bu növünün inkişafının bir sıra üstünlükləri vardır. Turizm təsərrüfatının bu sahəsinin inkişafı prosesində qədim adət-ənənələr, məişət qaydaları, unudulmuş və ya unudulmaqda olan bütün adətlər yada salınır, mədəni-tarixi əhəmiyyəti olan mərkəzlər, folklor sənəti nümunələri müxtəlif adlar altında turistlərə təqdim olunur, bayramlar, yarmarkalar, sərgilər təşkil olunur. Kənd əhalisi əl işləri ilə hazırlanan məhsulların, yerli, ənənəvi, regiona xas yeməklərin, onların bişirilməsi üçün lazım olan ərzaq məhsullarının satışından, turistlərə nəqliyyat xidmətinin göstərilməsindən, təbiətin mənzərəli yerlərinə və muzeylərə bələdçilik etməklə də gəlir əldə edə bilmə imkanından faydalana bilirlər. Həmçinin turizmin bu növünün inkişafı kənd əhalisinin istehsal etdikləri məhsullarının satışı üçün yeni bazarların əldə edilməsində, bu sahədə xidmət infrastrukturunun gücləndirilməsində və xidmət mədəniyyətinin yüksəldilməsində, kənd əhalisinin mövcud mənzil ehtiyatlarından səmərəli istifadə olunmasında əhəmiyyətli rola malikdir. Digər tərəfdən kənd yerlərində daimi və il boyu fəaliyyət göstərən əlavə gəlir mənbələri yaranır, kəndlərdə yeni iş yerləri açılır ki, nəticədə məşğulluq xüsusilə qadınların məşğulluğu artmış olur.

Kənd turizminin digər turizm növləri ilə müqayisədə üstün cəhətlərindən biri isə daha az vəsait hesabına başa gəlməsidir.

## Turizmin inkişafı dövlətin marağındadır

Məlumdur ki, kənd yerlərində yaşayan əhalinin pul gəlirlərinin şəhər əhalisi ilə müqayisədə aşağı olması, əmək şəraitinin çətinliyi, kənd təsərrüfatında gəlirililiyinin aşağı olması, işsizliyin kənd yerlərində yüksək olması, kənd yerlərində mövsümi işlərin yüksək olması kənd turizminin inkişafını labüd edir. Qeyd edək ki, respublikada 4253 kənd yaşayış məntəqəsi vardır ki, bunlarında əksəriyyəti yaşıllıqlar qoynunda və dağlıq ərazilərdə yerləşir. Bu baxımdan respublikada kənd turuzminin inkişaf etdirilməsi üçün kifayət qədər potensial vardır.

Son illər respublikada keçirilən beynəlxalq yarışlar dünyanın bir sıra ölkələrində ölkəmizə marağı artırmaqla turist axınına müsbət təsir göstərməkdədir. Gələn turistlərin paytaxtla yanaşı regionlara da səfər etməsi, regionlarda istirahətlərinin təşkili üçün kənd turizminin inkişafına nail olunması zəruridir.

Hazırda respublikamızda turizmin inkişafı ilə bağlı mühüm tədbirlər görülməkdədir. Belə ki, regionlarda infrastrukturun formalaşması istiqamətində işlər görülür, yeni otellər, əyləncə mərkəzləri və s. tikilib istifadəyə verilir. Regionlarda turizmin inkişafının ölkənin iqtisadi və mədəni inkişafına əsaslı təsir göstərməsini nəzərə alaraq, bu sahənin inkişafı istiqamətində mühüm addımlar atılmaqdadır. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 27 avqust tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı” qəbul edilmişdir. Bu siyasətin davamı olaraq respublikada yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 6 aprel tarixli Sərəncamı ilə

"Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq edilmiş, turizm sektorunun daha da inkişaf etdirilməsi və turizm fəaliyyəti üçün əlverişli şəraitin yaradılması zərurətini nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 1320 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasında 2011-ci il "Turizm ili" elan edilmişdir. Məlum olduğu kimi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş milli iqtisadiyyatın inkişaf strategiyasında prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmış turizm sənayesinin inkişafına dair strateji yol xəritəsi görülən işlərin davamlılığına xidmət edir. Strategiya yerli və regional turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi, davamlı turizm potensialının gücləndirilməsi, o cümlədən kənd turizminin inkişaf etdirilməsi məqsədi daşıyır. Sənədə əsasən kənd yerlərində fərdi sahibkarlıq vərdişlərinin aşılanması, kənd yerlərində kommunal xidmətlərin inkişafı, əhalinin məşğulluğunun artırılması məqsədilə davamlı turizm potensialından istifadə ilə bağlı bir sıra məqsədyönlü tədbirlər həyata keçirilməsi nəzərdə tutulmuşdur. Tədbirlər planına əsasən, kəndlərdə çörəkbişirmə, xalçaçılıq və s. kimi mövcud olan bir sıra ənənələrin təbliğatı məqsədilə qısamüddətli kurslar təşkil edilməsi, ixtisaslaşmış kənd təsərrüfatı məhsullarının brendləşdirilməsi üzrə tədbirlərin görülməsi həyata keçirilməsi nəzərdə tutulmuşdur [1].

## Kənd yerlərində əhalinin məişət şəraiti və turizmlə məşğul ola bilmə imkanları

Qeyd edək ki, son illər gəlir əldə etmək məqsədilə kənd əhalisi öz evlərini icarəyə verməkdə maraqlı olsalar da, lazımi məişət şəraitinin olmaması səbəbindən onların əksəriyyəti xidmətlərin aşağı səviyyədə təqdim olunması daha çox turistə, xüsusilə də xarici turistlərə xidmət göstərmələrinə mane olur. Hazırda kəndlərə daha çox yerli turistlər səfər edirlər ki, bu da kənd evlərinin icarə qiymətlərinin otel və kurortlarla müqayisədə münasib olması ilə əlaqədardır.

Kənd turizminin inkişafı, kənd əhalisinin bu fəaliyyət növündən istifadə edə bilmələri üçün onların lazımi məişət şəraitinin olması vacibdir. Təəssüf ki, turizmin bu növü ilə məşğul olmaq istəyən kənd əhalisi arasında məişət şəraitinin turistləri qane edə biləcək səviyyədə olmayanların sayı az deyil. Sanitar-gigiyenik normalara cavab verən sanitariya qovşaqlarının və mətbəxin olmaması, bir çox kəndlərdə evlərin su, işıq və digər kommunal təchizatının aşağı səviyyədə olması turizm xixmətlərinə maneə yaradır. Turistləri cəlb etmək üçün kifayət qədər komfortlu mənzilin, kanalizasiya sisteminin, su təchizatının bir sözlə məişət şəraitinin olması zəruridir.

DSK-nin materialları əsasında tərtib etdiyimiz 1 saylı cədvəl məlumatlarının təhlili göstərir ki, kənd əhalisinin abadlıq şəraitində son illər yaxşılaşma baş versə də şəhər yerləri ilə müqayisədə aşağı olmuşdur.

Mənzillərin qızdırılmasında mərkəzi istilik sistemi ilə kənd əhalisinin dövrün əvvəlində 2,9%-i, dövrün sonunda isə 5,4%-i, şəhər əhalisinin isə müvafiq olaraq, 26,7 və 25,4%-i təmin olunmuşdur. Kənd əhalisi qış aylarında mənzillərin qızdırılmasında daha çox odun və qazla işləyən sobalardan istifadə etmişlər. Mənzillərin qızdırılmasında kənd əhalisinin dövrün əvvəlində 89,3%-i, dövrün sonunda isə 85%-i məhz bu məişət cihazından istifadə etmişlər. Şəhər yerləri ilə müqayisədə kənd əhalisi 52,1 və 31,7% faiz bənd az təmin olunmuşdur.

Dövrün əvvəlində kənd əhalisinin 83,3%-i, şəhər əhalisinin isə 99,6%-i, dövrün sonunda isə müvafiq olaraq, 96,8 və 99,9%-i kanalizasiya sistemi ilə təmin olunmuşdur.

**Cədvəl 1.** Kənd əhalisinin abadlıq şəraiti və təchizatı, faizlə

| | 2005 | | 2010 | | 2015 | |
|---|---|---|---|---|---|---|
| | şəhər | kənd | şəhər | kənd | şəhər | kənd |
| Orta hesabla bir nəfər sakinə düşən ümumi sahənin ölçüsü, $m^2$ | 16.6 | 19.2 | 16,0 | 20,6 | 17.6 | 22.5 |
| Orta hesabla bir nəfər sakinə düşən yaşayış sahəsinin ölçüsü, $m^2$ | 11.7 | 13.5 | 11,2 | 14,2 | 12.4 | 15.7 |
| Aşağıdakılarla təmin olunmuş ev təsərrüfatlarının xüsusi çəkisi | | | | | | |
| mərkəzi isitmə sistemi | 26.7 | 2.9 | 22,2 | 1,5 | 25.4 | 5.4 |
| soba (qaz, odun) | 44.7 | 89.3 | 42,4 | 83,2 | 44.5 | 85.0 |
| telefon | 82.8 | 30.7 | 85,9 | 47,3 | 91.3 | 59.6 |
| kanalizasiya | 99.6 | 83.3 | 99,3 | 88,2 | 99.9 | 96.8 |
| vanna, duş, hamam | 91.6 | 41.7 | 89,2 | 43,1 | 94.2 | 79.0 |
| elektrik plitəsi | 0.1 | 0.1 | 0,0 | 0,0 | 0.0 | 0.0 |
| şəbəkə qazı | 92.1 | 13.9 | 89,2 | 47,6 | 97.8 | 74.1 |
| sıxılmış qaz | 21.0 | 66.6 | 20,3 | 64,0 | 13.3 | 49.5 |
| qaraj | 10.6 | 8.5 | 11,9 | 12,0 | 11.7 | 14.5 |
| isti su təchizatı | 79.6 | 23.6 | 77,0 | 26,7 | 77.8 | 46.1 |
| su kəməri | 97.4 | 47.6 | 96,8 | 44,7 | 98.2 | 64.2 |
| Evində su kəməri olmayanlar | 2.6 | 52.4 | 3,2 | 55,3 | 1.8 | 35.8 |
| onlardan suyu götürürlər: | | | | | | |
| Həyətdəki quyu | 19.7 | 19.7 | 40,2 | 21,3 | 44.3 | 40.8 |
| Ümumi həyət kranı | 44.5 | 33.0 | 25,6 | 31,4 | 13.2 | 29.6 |
| Ümumi quyu | 3.1 | 9.1 | 1,4 | 15,0 | 2.4 | 8.5 |
| Bulaq, çay, nohur | 0.4 | 24.2 | 0,8 | 14,0 | 2.4 | 9.7 |
| Su maşını | 32.3 | 14.0 | 32,0 | 18,2 | 37.7 | 11.4 |
| İçməli su mənbəyinə məsafə | | | | | | |
| Cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| 50 metrə qədər | 73.1 | 46.7 | 52,8 | 54,1 | 58.3 | 40.8 |
| 50-100 metr | 22.9 | 43.1 | 46,5 | 34,3 | 13.2 | 29.6 |
| 100-200 metr | 0.8 | 6.8 | 0,8 | 11,1 | 2.4 | 8.5 |
| 200-500 metr | 0.9 | 3.1 | - | 0,4 | 2.4 | 9.7 |
| 500 metrdən çox | 2.3 | 0.3 | - | 0,2 | 23.7 | 11.4 |
| Nəqliyyat dayanacağına məsafə | | | | | | |
| Cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| 5 dəqiqədən az | 36.8 | 16.4 | 40,0 | 19,8 | 42.8 | 23.0 |
| 5-15 dəqiqə | 51.9 | 50.5 | 50,7 | 53,5 | 48.5 | 53.6 |
| 15-30 dəqiqə | 10.5 | 30.2 | 9,3 | 26,6 | 8.7 | 23.3 |
| 30 dəqiqədən çox | 0.8 | 2.8 | - | - | - | 0.1 |

[2,3]

Kənd turizminin inkişafı xüsusilə rayon mərkəzlərindən uzaq dağ kəndlərinin elektrikləşdirilməsinin, qazlaşdırılmasının vacibliyini ortaya çıxarır. Şəbəkə qazından istifadə 60,2 faiz bənd qədər genişlənsədə, dövrün sonunda kənd əhalisinin 74,1%-i ondan istifadə edə bilmişdir. Bu göstərici ilə şəhər əhalisinin 97,8%-i təmin olunmuşdur.

Su ilə təmin olunma nəinki turizm xidmətlərinin göstərilməsində, həmçinin kənd əhalisinin özünün sağlamlığında, sanitar gigiyena qaydalarına əməl olunmada müstəsna əhəmiyyətə malik olsada, müqayisə edilən dövrün əvvəlində kənd əhalisinin bu vacib nemətlə təminatında ciddi çatışmazlıqlar olmuşdur. İsti su ilə kənd əhalisinin dövrün əvvəlində 23,6%-i, dövrün sonun da isə 46,1%-i, su kəməri ilə isə müvafiq olaraq, 47,6 və 64,2%-i təmin olunmuşdur. Baxmayaraq ki, kənd yerlərində təbii su mənbələrinin sayı çoxdur, şəhər əhalisinin su ilə təminatı daha yaxşı olmuşdur.

2015-ci ildə suya olan tələbatını evində su kəməri olmayan kənd əhalisinin 40,8%-i həyətdəki quyu, 29,6%-i ümumi həyət kranı, 8,5%-i ümumi quyu, 9,7%-i bulaq, çay, nohur, 11,4%-

isə su maşınlarının köməyi ilə ödəyə bilmişlər. Su təminatı ilə bağlı problemlərdən biri də içməli su mənbəyinə olan məsafənin uzaqlıqda olmasıdır. Müqayisə edilən dövr ərzində yaxşılaşma baş versədə 11,4% kənd əhalisi içməli su əldə etmək üçün 500 metrdən çox məsafə qət etməli olurlar.

Kənd əhalisinin abadlıq şəraitinin yaxşılaşdırılmasında nəqliyyat sisteminin rolu böyükdür. Yolların təmiri, körpülərin tikilməsi ilə əlaqədar olaraq işlər görülsədə 23,3% kənd əhalisi nəqliyyat dayanacağına çatmaq üçün ən azı 15-30 dəqiqə vaxt sərf etməli olurlar.

Qeyd edək ki, turistlərin istəyinə uyğun şəraitin yaradılması, onlara müvafiq xidmətin göstərilməsi müəyyən maddi xərclər tələb etsədə gələcəkdə xərclər artıqlaması ilə ev sahibinə qayıda bilər. Kənd yerlərində abadlıq şəraitinin yaxşılaşdırılması məqsədilə kiçik keditlərin verilməsi onların bu turizm növündən əldə edə biləcəkləri gəlirləri artıra bilər.

Kəndlərin, xüsusi ilə də magistral yollardan kənarda yerləşən ərazilərin kənd turizmi sahəsinə daxil olması və turistlərin həmin ərazilərə cəlb edilməsi üçün məlumatlandırıcı reklamlara ehtiyac vardır. İstirahət bölgəsi barədə internetdə və KİV-də məlumat yerləşdirmək, yerli turizm şirkətləri ilə müqavilələr bağlamaq, gələn turistlərə yüksək xidmət göstərməklə turistlərin cəlb edilməsi mümkündür.

**Kənd yerlərində yoxsulluğun azaldılması, kənd turizminin inkişafının genişləndirilməsi istiqamətində aşağıdakı tövsiyyələr verilə bilər:**

- kənd turizminin inkişafı və genişləndirilməsi üçün kənd əhalisinin lazımi informasiya ilə təmin edilməsi və onların bu sahədə bacarıqlarının artırılması istiqamətində treninqlərin keçirilməsi, gənclərin dil kurslarına cəlb edilməsi;
- kənd təsərrüfatının xüsusilə geniş yayılmadığı kəndlərdə əhalinin məşğulluğunu təmin etmək üçün kənd turizminin inkişaf etdirilməsi;
- kənd turizminin davamlılığı məqsədilə əlavə xidmətlərin yaradılması və inkişaf etdirilməsi;
- kəndlərin, kənd arası yolların bərk örtüklü avtomobil yolları ilə örtülməsi;
- kənd yerlərində elektrik, rabitə təsərrüfatlarının əsaslı şəkildə yenidən qurulması;
- kənd əhalisinin keyfiyyətli su mənbələrinə çıxışının təmin olunması, su mənbələrinin təmizləyici qurğularla təmin olunması;
- kənd turizminin inkişafında beynəlxalq təcrübənin öyrənilməsi və kənd turizmi sahəsində zəngin təcrübəsi olan ölkələrlə əməkdaşlığın genişləndirilməsi;
- turizmə sərmayə qoyan sahibkarlara müəyyən güzəştlərin edilməsi;
- ali və orta ixtisas məktəblərini bitirmiş gənclərin kənd iqtisadiyyatına cəlbinin stimullaşdırılması tədbirlərinin hazırlanması və s.

**ƏDƏBIYYAT SIYAHISI:**

1. https://mida.gov.az/documents/Turizm_s%C9%99nayesinin_inki%C5%9Faf%C4%B1na_dair_strateji_yol_xeritesi.pdf;
2. 2005-ci ildə ev təsərrüfatları tədqiqatının əsas yekunları. Bakı: 2006, 223 s;
3. 2015-ci ildə ev təsərrüfatları tədqiqatının əsas yekunları. Bakı: 2011, 177 s;

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2018. Volume 2, Number 2* *Pages 164-169*

***UOT:330.146; 330.34;330.35***

# AZƏRBAYCANDA BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN İQTİSADİ ARTIMA TƏSİRLƏRİ: EMPİRİK BİR ANALİZ

**Nigar HACIYEVA**
*nigar.haji@icloud.com*
*Bakı, Azərbaycan*

**XÜLASƏ**

Bu tədqiqatda birbaşa xarici investisiyaların iqtisadi artıma təsirləri Azərbaycan iqtisadiyyatı nümunəsində 1995-2017-cı illər aralığının rəsmi məlumatları istifadə edilərək kointeqrasiya yanaşmaları ilə qiymətləndirilmişdir. Əldə edilən nəticələrə görə dəyişənlər arasında uzunmüddətli dövrdə kointeqrasiya əlaqəsi vardır. Bundan başqa qiymətləndirmə nəticələri göstərir ki,bir başa xarici investisiyaların iqtisadi artım üzərində təsirimüsbət və statistik olaraq əhəmiyyətlidir. Yəni ki, bir başa xarici investisiyalar 1% artarsa ÜDM 0.63% artar.

**Açar sözlər:** Birbaşa xarici investisiyalar, kointeqrasiya, Azərbaycan iqtisadiyyatı.

**THE IMPACT OF FDI ON ECONOMIC GROWTH IN AZERBAIJAN: AN EMRICAL ANALYSIS**

**ABSTARCT**

This paper examines the impact of foreign direct investment on economic growth in Azerbaijan employing cointegrationtechniques to the data ranging from 1995 to 2017. The results confirm the existence of a long-run relationship among the variables. Also, we find that there is a positive and statistically significant impact of foreign direct investment on economic growth. Estimation results show that a 1% increase in foreign direct investment increases economic growth by 0.63%

**Keywords:**Foreign direct investment (FDI), cointegration techniques, Azerbaijan economy.

## Giriş

İnkişaf Etməkdə Olan Ölkələrdə (İEOÖ) Milli Gəlir səviyyəsinin aşağı olması yığımın qeyri-qənaətbəxş olmasına gətirib çıxarır. Yığım səviyyəsinin aşağı olması yeni investisiyalar üçün istifadə olunacaq kapitalın az olması ilə nəticələnir.Yığımlarınazlığı səbəbi iləhəyata keçirilə bilməyən investisiyaların reallaşdırılması üçün ölkələr birbaşa xarici investisiyalara köklənib stimullaşdırıcı siyasət tətbiq ediblər.E.Graham və P. Kruqmana görə, birbaşa xarici investisiyanın və artan ticarətin faydaları bunlardır:Birincisi, müqayisəli üstünlük nəzəriyyəsindən məlum olduğu kimi, ticarətin artması ixtisaslaşma nəticəsində daha çox qazanmağa imkan yaradır.İkincisi, ticarət, ölkələrə miqyasa görə artan gəlirlərin üstünlüyünü əldə etməyə imkan verir. Məhsullar sərhədlərarası fərqli xərclərdə istehsal edildikdə, ölkələr daha effektik miqyasda istehsal edə bilərlər.Üçüncüsü, ticarət rəqabəti artırır, buna görə də, yerli istehsalçıların inhisar gücü azalır.Nəhayət, ticarət, texnologiya transferi kimi müsbət təsirlər yaradır. Neoklassik iqtisadçılar bu faydaları yalnız ticarət üçün söyləyirlər.Lakin, beynəlxalq ticarətə olan maraqlarınagörə, qazanclar birbaşa xarici investisiyalara da aid edilir və ticarətəhəm vəkil həm də tamamlayıcı xüsusiyyətdaşıyır.Birbaşa investisiyaların digər müsbət xüsusiyyəti məşğulluğa olan təsiridir.Bilik və bacarıqları olan işçi qüvvəsi bütün iqtisadi fəaliyyətlərdə istehsalın vacib elementidir. İstehsal fəaliyyətində məşğul edilən əmək miqdarı adətən istehsal və gəlirlərin artmasında böyük rol oynayır. Məşğulluqdakı artım bilik və bacarıqlara sərmayə qoyaraq məşğulluq keyfiyyətinin yüksəlməsi ilə müşayiət olunarsa, hər bir işçinin əlavə dəyərində artım baş verər, əmək haqqı artar və iş şəraiti yaxşılaşar.Bundan əlavə, məşğulluğun yaradılması və təkmilləşdirilməsi ölkələr üçün gəlirlərin ədalətli bölüşdürülməsi və minimum rifah

standartları baxımından mühüm vasitədir.Bu səbəblərə görə,İEOÖ-lər xarici investisiyaların cəlb edilməsi üçün dövlət siyasəti yeridir və iqtisadi artım və iqtisadi inkişafdaİEÖ-lərə çatmağı hədəfləyirlər.

Birbaşa xarici investisiyalar, gəlir əldə etmək və müəssisənin idarə edilməsində iştirak etmək məqsədilə şirkətin nizamnamə kapitalına və əsas vəsaitlərə qoyulan investisiyadır. Bir başqa ifadə ilə, bir başa xarici investisiyalar bir ölkədə bir firmanı satın almaq vəya yeni qurulan bir firma üçün nizamnamə kapitalını təmin etmək və ya mövcud bir firmanın kapitalını artırmaq yoluyla, başqa bir ölkədə qurulan firmalar tərəfindən digər ölkədə qurulan firmalara yatırılan və özü ilə birlikdə texnologiya, menecment bilgisi və sərmayədarın nəzarət səlahiyyətini də bərabərindəgətirən investisiyalardır. Yəni ki, bir ölkədə rezidendlərin (fiziki və ya hüquqişəxslərin) ölkə sərhədlərinin xaricindəsərvət əldə etmələrinə (istehsal müəssisəsi qurmaq vəya mövcud istehsal müəssisələrini satın almaq) beynəlxalq investisiya və ya birbaşa xarici investisiyalar deyilməkdədir [1].

Dünyada birbaşa xarici investisiyalar bilgi və kommunikasiya texnologiyalarının inkişafı ilə birlikdə böyük bir artış göstərmişdir. Dünya Bankının məlümatlarına görə 1993-cü ildə 70 milyard ABŞ dolları olan məcmu birbaşa xarici investisiyalar 2017-ci ildə 1.957 trilyon ABŞ dollarına çatmışdır. Bir başa xarici investisiyalar xüsusilə Şərqi Asya və Latın Amerika ölkələrinə daha çox istiqamətləndiyi görülür. Belə ki, dünyadakı məcmu birbaşa xarici investisiyaların təxminən 70%-i bu ölkələrə qoyulmaqdadır. Dünya Bankının məlumatlarından da göründüyü kimi, yüksək rəqəmlərə çatan bir başa xarici investisiyalar günümüzdə yaşanan qloballaşma və beynəlxalq iqtisadi inteqrasiyanın yüksək səviyyələrə varmasında birbaşa inkar edilməz bir funksiyanı yerinə yetirməkdədir.

Xüsusilə inkişaf etməkdə olan ölkələrdəki bir başa xarici investisiyalar, maliyyə resurslarından istifadəni, infrastruktur investisiyalarını və texnoloji inkişafı artırmaqla iqtisadi artıma yol açır. Bu baxımdan, iqtisadi nəzəriyyədə birbaşa xarici investisiyalar və iqtisadi artım arasında müsbət əlaqənin olduğu qəbul edilir. Bununla yanaşı, bir başa xarici investisiyalar milli iqtisadiyyatlara informasiya və texnologiyanın ötürülməsi, sahibkarlıq mədəniyyətinin inkişafı, beynəlxalq ticari inteqrasiyasının artırılması, yerli müəssisələrin rəqabət qabiliyyətinin və insan kapitalının artırılması kimi müsbət təsirlər də vardır.

Ölkənin iqtisadi inkişafını sürətləndirən, investisiyalarıneffektliliyini və məhsuldarlıq səviyyəsini yüksəldən, texnologiya transferində önəmli bir vasitə olan bir başa xarici investisiyaların Azərbaycana axınınınplanlı bir şəkildə daimi təşviq edilməsinə ehtiyac vardır. Bunun üçün birbaşa xarici investisiyaların Azərbaycan iqtisadiyyatına təsirlərinin empirik olaraq araşdırılması çox vacibdir. Bu məqsədlə tədqiqatda birbaşa xarici investisiyaların iqtisadi artım üzərindəki təsirləri Azərbaycan iqtisadiyyatı baxımından ekonometrik model qurularaq analiz ediləcəkdir.

Çalışma ümumi olaraq giriş və iki hissədən ibarətdir. Birinci hissədə birbaşa xarici investisiyalara aid əvvəlki empirik tədqiqatlar ələ alınacaq, ikinci hissədə hissədə isə rəsmi məlumatlar əsasında hazırlanmış ekonometrik modelləşdirmə və onun nəticələri izah ediləcəkdir.

## Empirik ədəbiyyat xülasəsi

Birbaşa xarici investisiyaların iqtisadi artım üzərində təsirlərini analiz edən çox sayıda tədqiqat vardır. Bu tədqiqatlar analiz edilən ölkələr, istifadə edilən metodlar və əldə olunan nəticələr baxımından fərqliliklər göstərir. Bəzi tədqiqatlarda müəyyən ölkə qrupları analiz edilər-

kən bəzilərində isə tək ölkə analiz edilmişdir. Bu tədqiqatlardan bəzilərində, birbaşa xarici investisiyaların iqtisadi artım üzərində müsbət təsirə malik olduğu nəticəsinə gəlinmişdi.

Belə tədqiqatçılardan Ledyaeva və Linden Rusya üçün [2], Li and Liu 84 ölkə üçün[3], Alfaro və CharltonOECD-ə üzv 22 ölkə üçün[4], Mun və başqaları Malayziya üçün [5], Chowdhary və KushwahaHindistan üçün [6], Gürsoy və Kalyoncu Gürcüstan üçün [7], Şimşek və Behdioğlu [8], Koyuncu [9] və Şahin [10] isəTürkiyə üçün apardıqları tədqiqatlarda birbaşa xarici investisiyaların iqtisadi artım üzərində müsbət təsirinin olduğunu ortaya qoymuşdurlar.

Carkovic və Levine [11], Menciger [12] və Choong və başqaları [13] kimi tədqiqatçılar isə tədqiqatlarında birbaşa xarici investisiyalar ilə iqtisadi artım arasında ya mənfi ya da heç bir əlaqənin olmadığı nəticəsinə gəlmişdirlər. Bununla bərabər 17 keçid iqtisadiyyatı nümunəsində birbaşa xarici investisiyaların iqtisadi artım arasında əlaqəni tədqiq edənAleksynska və başqaları [14]tədqiqatlarında birbaşa xarici investisiyalar ilə iqtisadı artım arasında zəif bir əlaqənin olduğunu müəyyən etmişdirlər.

Azərbaycan üçün edilən araşdırmalara baxdıqda isə, birbaşa xarici investisiyalar ilə iqtisadi artım arasındakı əlaqəni yoxlamaq üçün Lyroudi və başqaları [15], Ağayev [16], Melnyk və başqaları [17], Bostan və başqaları [18], Kelleci və Firat [19] kimi tədqiqatçılar tərəfindən empirik tədqiqatlar aparılmışdır. Bu tədqiqatçılardan Kelleci və FiratGranger səbəbiyyət testi istifadə edərək birbaşa xarici investisiyalar ilə iqtisadi artım arasındakı əlaqəni araşdırmış və birbaşa xarici investisiyalardan iqtisadi artıma doğru tək tərəfli səbəbiyyət əlaqəsinin olduğunu tapmışdırlar.Baxmayaraq ki, Azərbaycan üçün bir sıra tədqiqatlar aparılmışdır, lakin onlar əsasən panel göstəricilər vasitəsilə edilmişdir. Sözügedən tədqiqatlarda daha çox keçid iqtisadiyyatlarına ölkələr qrupu olaraq fokuslanılmış və Azərbaycana xas xüsusiyyətlər diqqətə alınmamışdır. Bizim tədqiqatımız isə 1995-ci ildən etibarən Azərbaycana qoyulan birbaşa xarici investisiyaların iqtisadi artıma təsirləri Azərbaycan nümunəsində kointeqrasiya testləri vasitəsi ilə tədqiq ediləcəkdir.

### Ekonometrik model və verilənlər

Bu tədqiqatda birbaşa xarici investisiyaların iqtisadi artım üzərindəki təsirləri Dinamik Ən Kiçik Kvadratlar Metodu (DOLS) yanaşması istifadə edilərək qiymətləndirilmişdir. Bunun üçün əvvəlcə dəyişənlərin stasionarlığı Genişləndirilmiş Dikey-Fuller (ADF) [20] vahid kök testi ilə yoxlanmış, daha sonra isə DOLS metodu ilə qurulan model əsasında dəyişənlər arasında uzunmüddətli dövr əlaqəsinin varlığı Parkın dəyişən əlavə etmə kointeqrasiya yanaşması ilə test edilmiş və nəticədə dəyişənlər arasında əlaqənin ekonometrik modeli qurulmuşdur.

Stock və Watson [21] tərəfindən irəli sürülən DOLS metodunda kointeqrasiya sistemində qarşılıqlı təsiri və ya endogenlik problemini aradan qaldıran qiymətləndirmə metodologiyası təklif edilir. DOLS uzunmüddətli dövr üçün dəyişənlər arasında potensial eynizamanlılıq meyilliyi üçün korreksiya olunmuş tarazlığın qiymətləndirilməsində istifadə olunur [22]. Bundan əlavə, Stock və Vatson [23] da Monte-Karlo simulyasiyaları (Monte Carlo Simulations) əsasında DOLS-in digər alternativ metodlarla müqayisədə kiçik ölçülü nümunə qruplar üçün daha yaxşı olduğunu göstərir.

Daha dəqiq nəticə əldə etmək üçün bu tədqiqatda DOLS ilə yanaşı Tam Modifikasiya Olunmuş Ən Kiçik Kvadratlar Metodu (FMOLS) [24] və Kanonik Kointeqrasiya Reqressiyası (CCR) [25] yanaşmalarından da istifadə edilərək qiymətləndirmə aparılacaq. Çünki, DOLS kointeq-

rasiya yanaşması ilə əldə olunan nəticələrin bu metodların tətbiqi ilə təkrar gözdən keçirilməsi daha etibarlı təhlil aparılmasına imkan verir. Çox texniki məsələ olduğundan yuxarıda qeyd olunan kointeqrasiya metodlarının və Parkın dəyişən əlavə etməkointeqrasiya testinin riyazi hesablama qaydası təqdim edilməyəcək.

Bu tədqiqat üçün istifadə ediləcək məlumatlar 1995-2017-cı illəri əhatə edən aşağıdakı göstəricilərdir:

* *ÜDM (GDP)*- milyon manatla, ölkədə istehsal olunan əlavə dəyərlərin cəmi formasında ölçülmüşdür.
* *Birbaşa xarici investisiyalar (FDİ)*- milyon manatla ölçülmüş və ölkəyə daxil olan xalis investisiyaları əhatə edir.

Bütün məlumatlar Dünya Bankı və Dövlət Statistika Komitəsinin məlumatlarında qeyd edilən rəsmi göstəricilərdən əldə edilmişdir.

## Empirik nəticələr

Modelin qiymətləndirilməsi aparılmazdan əvvəl vahid kök testləri vasitəsilə dəyişənlərin stasionarlığının yoxlanılması vacibdir. Bu məqsədlə dəyişənlərin stasionarlığını yoxlamaq üçün Genişləndirilmiş Dikey-Fuller (ADF) testi istifadə edilmişdir. Əldə olunan nəticələr Cədvəl 1-də verilmişdir. Test nəticələrindən də göründüyü kimi bütün göstəricilər birinci tərtib fərqdə stasionardır, yəni I(1)-dir.

**Cədvəl 1:** Genişləndirilmiş Dikey-Fuller (ADF) vahid kök testlərinin nəticələri

| | | | | | |
|---|---|---|---|---|---|
| **Səviyyədə** | | | | | |
| | t-Statistikası | p-qiymәti | Gecikmə uzunluğu * | Testin sərhəd qiymətləri ** | |
| GDP | -1.9647 | 0.587 | 0 | 1% | -4.4407 |
| FDI | -1.0392 | 0.917 | 0 | 5% | -3.6329 |
| | | | | 10% | -3.2547 |
| **1-ci tərtibfərqdən** | | | | | |
| | t-Statistikası | p-qiymәti | Gecikmə uzunluğu * | Testin sərhəd qiymətləri ** | |
| ΔGDP | -3.6752 | 0.047 | 0 | 1% | -4.6162 |
| ΔFDI | -3.6748 | 0.053 | 2 | 5% | -3.7104 |
| | | | | 10% | -3.2978 |

(*) Şvars meyarı əsasında seçilmişdir
(**)MacKinnonun (1996) təktərəflitestiüçün p-qiymətləri.

Daha sonra dəyişənlər arasında kointeqrasiya münasibətinin varlığını DOLS kointaqrasiya yanaşması ilə qurulan modelə əsasən yoxlamışıq. Bu məqsədlə Parkın dəyişən əlavə etmə yanaşması kointeqrasiya testi istifadə olunmuşdur və test nəticələri cədvəl 2-də verilmişdir. Parkın dəyişən əlavə etmə yanaşması testlərinin nəticələrinə əsasən bütün hallarda *p-qiymәti* 5%-dən böyük olmuşdur. Nəticə olaraq bu o deməkdir ki, dəyişənlər arasında uzunmüddətli dövrdə kointeqrasiya əlaqəsi vardır. Hər bir halda, "kointeqrasiya əlaqəsi yoxdur" sıfır hipotezi 5% əhəmiyyətlilik dərəcəsində rədd olunur.

**Cədvəl 2:** Parkın dəyişən əlavə etmə kointeqrasiya testi nəticələri

| | **Qiymət** | **df** | **p-qiymәti** |
|---|---|---|---|
| Ki-kvadratı | 3.692 | 2 | *0.158* |

**Qeyd:** asılı dəyişən - $\ln(GDP)_t$. Sıfırhipotezi – *dəyişənlər arasında kointeqrasiya əlaqəsivardır*; ***, ** və * sıfır hipotezinin müvafiq olaraq 1%, 5% və 10% əhəmiyyətlilik dərəcəsində rəddolunduğunu göstərir; Optimal gecikmə ölçüsü Schwarz kriteriyasıəsasındamaksimum 2 period gecikmə olmaqla seçilib;

Kointeqrasiya testi olaraq istifadə olunan Parkın dəyişən əlavə etmə yanaşmasının nəticələrinə əsasən qiymətləndirilən reqressiya tənliklərini uzunmüddətli dövr tənliyi kimi qəbul edərək şərh vermək olar. Cədvəl 3-də DOLSmetodu ilə yanaşı FMOLS və CCR kointeqrasiya metodları istifadə olunmaqla əldə olunan uzunmüddətli dövr üzrə elastiklik əmsalları təsvir olunmuşdur.Bu isə nəticələrin etibarılılığı və inandırıcılığı baxımından çox vacibdir. Metodologiya hissəsində ifadə edildiyi kimi əsasən DOLS metoduna görə ətraflı şərh veriləcəkdir. Bununla yanaşı,bütün metodlara görə əldə edilən əmsallarla bağlı vahid fikir söyləmək mümkündür. Bütün modellərdə birbaşa xarici investisiyları ifadə edən sərbəst dəyişənin əmsalı nəzəriyyə ilə də gözlənildiyi kimi müsbət və statistik olaraq əhəmiyyətlidir. Eyni zamanda əldə edilən əmsallar biri birinə çox yaxındır.

**Cədvəl 3.** Uzunmüddətli dövr əlaqəsinin qiymətləndirmə nəticələri

| Dəyişən | DOLS | FMOLS | CCR |
|---|---|---|---|
| FDI | 0.63*** | 0.63*** | 0.76*** |
| *Sabit* | 10.67*** | 10.43*** | 7.73*** |

Qeyd: Asılıdəyişən; GDP. ***, ** və * sıfırhipotezininmüvafiqolaraq 1%, 5% və 10% əhəmiyyətlilikdərəcəsindərəddolunduğunugöstərir. Qiymətləndirməperiodu 1995-2017.

Qiymətləndirmə nəticələri göstərir ki, digər dəyişənlər sabit qalarsa bir başa xarici investisiyalar 1% artarsa ÜDM 0.63% artar.Bu isə həm birbaşa xarici investisiyaların iqtisadi artıma təsirləri ilə bağlı nəzəriyyə, həm də bir sıra başqa tədqiqat nəticələri ilə üst-üstə düşməkdədir və Azərbaycan iqtisadiyyatı üçün adekvat sayıla bilər.

## Nəticə

Bu tədqiqatda birbaşa xarici investisiyaların iqtisadi artım üzərindəki təsirləri müxtəlif kointeqrasiya metodları iləAzərbaycan iqtisadiyyatı baxımından qiymətləndirilmişdir. Model 1995-2017-cı illərin müvafiq rəqəmsal göstəricilərindən istifadə edilərək qurulmuşdur. Qiymətləndirmə nəticələrinə əsasən birbaşa xarici investisiyalar Ümumi Daxili Məhsula (ÜDM) müsbət təsir göstərir.

Bu çalışmanın nəticəsi həmçinin bir sıra başqa tədqiqatların nəticələri ilə də üst-üstə düşməkdədir. Belə ki, əvvəl edilən bəzi araşdırmalarda da birbaşa xarici investisiyalar ÜDM ilə düz mütənasiblik təşkil edərək onu artırdığı müşahidə edilməkdədir. Göründüyü kimi iqtisadi artıma nail olmağın digər bir yolu da birbaşa xarici investisiyalardan səmərəli istifadə edilməsidir. Bu investisiyaların qeyri-neft sektorunun istehsalının və ixracının stimullaşdırılması məqsədilə səmərəli şəkildə təşkili ölkənin ixracatının şaxələnməsinə və həmçinin əsas prioritet məsələlərdən olan qeyri-neft sektorunun inkişafına səbəb olacaqdır.

### ƏDƏBİYYAT SİYAHISI


1. Seyidoğlu H. (2003). *Uluslararası İktisat: Teori Politika ve Uygulama,* 15-ci nəşr, İstanbul, Güzem Can Yayınları,
2. Ledyaeva S. and Linden M. (2006), Foreign Direct Investment and Economic Growth: Empirical Evidence From Russian Regions, *Bofit Discussion Papers*, Paper no. 17/2006.
3. Li X. and Liu X. (2004). Foreign Direct Investment and economic growth: An increasingly endogenous relationship, *World Development*, 33(3), 393-407.
4. Alfaro L. and Charlton, A. (2007). Growth and the quality of foreign direct invesment equal?. Working Paper. *Harward University.*
5. Mun H.W., Lin T.K. and Man Y.K. (2008). FDI and Economic Growth Relationship: An Empirical Study on Malaysia. *International Business Research*, 1, 11-18.

6. Chowdhary R., and Kushwaha V. (2013). Domestic investment, foreign direct investment and economic growth in India since economic reforms. *Journal of Transformative Entrepreneurship,* 1(2), 74–82.
7. Gürsoy F. and Kalyoncu H. (2012). Foreign Direct Investment and Growth Relationship in Georgia, *International Journal of Economics and Financial Issues*, 2(3), 267-271.
8. Şimşek M. veBehdioğlu S. (2006), Türkiye'de Dolaysız Yabancı Sermaye Yatırımlarının Ekonomik Büyüme ÜzerindekiEtkisi: UygulamalıBirÇalışma, *Atatürk ÜniversitesiİktisadiveİdariBilimlerFakültesiDergisi, 20*, 47-65.
9. Koyuncu F.T. (2011), DoğrudanYabancıYatırımlarınİktisadiBüyümeyeEtkisi: Türkiye için Bir Ekonometrik Analiz. *Anadolu International Conference in Economics*, 15-17.
10. Şahin D. (2015),Türkiye'deDoğrudanYabanciSermayeYatirimlariVeEkonomikBüyümeİlişkisi: ArdlSinir Testi Yaklaşimi. *AkademikSosyalAraştırmalarDergisi 19,*159-172
11. Carcovic M. and Levine R (2002), Does Foreign Direct Investment Accelerate Economic Growth?, Financial Globalization: A Blessing or Curse", *World Bank Conference Washinghton.*
12. Mencinger J. (2003) Does Foreign Direct Investment Always Enhance Economic Growth?,*Kyklos*, 56(4), 491-508.
13. Choong C.K., Baharumshah A.Z., Yusop Z. and Habibullah M.S. (2010), Private Capital Flows, Stock Markets and Economic Growth in Developed and Developing Countries: A Comparative Analysis, *Japan and the World Economy*, 22, 107-117.
14. Aleksynska M., Gaisford J. And Kerr W. (2008), Foreign Direct Investment and Growth in Transition Economies, *University Library of Munich MPRA Paper*, No. 7668.
15. Lyroudi K., Papanastasiou J. and Vamvakidis A. (2004), Foreign Direct Investment and Economic Growth in Transition Economies. *South Eastern Europe Journal of Economics,* 2(1),
16. Ağayev S. (2010), DoğrudanYabancıSermayeYatırımlarıveEkonomikBüyümeİlişkisi: Geçiş Ekonomileri Örneğinde Panel Eştümleşmeve Panel NedensellikAnalizleri, *Gazi Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi* 1(1), 159-184.
17. Melnyk L., Kubatko O. and Pysarenko S. (2014). The impact of foreign direct investment on economic growth: case of post communism transition economies. *Problems and Perspectives in Management,* 12(1). 17-24
18. Bostan A.,Kelleci S.U.veYilmaz A. (2016). Doğrudan Yabanci Sermaye Yatirimlari Ve Ekonomik Büyüme Arasindaki İlişki: Avrasya Ekonomileri Örneği. *Manas Journal of Social Studies.* 5(5), 23-36
19. Kelleci S.Ü. veFırat E. (2017), Relationship Between Foreign Direct Investments and Economic Growth: The Azerbaijan Sample.*International Conference on Eurasian Economies*, 361-366.
20. Dickey, D.A. and Fuller W.A. (1981), Likelihood Ratio Statistics for Autoregressive Time Series with a Unit Root, *Econometrica,* 49(4), 1057-1072.
21. Stock J.H., Watson M. (1993), A simple estimator of cointegrating vectors in higher order integrated systems. *Econometrica,*61, 783-820.
22. Narayan P. K. (2004), An econometric model of tourism demand and a computable general equilibrium analysis of the impact of tourism: the case of the Fiji Islands / *PhD thesis, Department of Economics,*Monash University, Melbourne, Australia,
23. Stock J. H., Watson M. W. *Introduction to econometrics*. Boston: Addison Wesley, 2003.
24. Phillips P.C. B., HansenB. E. Statistical inference in instrumental variables regression with I (1) Processes. *Review of Economics Studies*, 57, 99-125.
25. Park J. Y. Canonical cointegratingregressions ,*Econometrica,* 60, 119-143.

# INSTRUCTIONS FOR AUTHORS

1. "The Baku Engineering University Economics and Administration" accepts original unpublished articles and reviews in the research field of the author.
2. Articles are accepted in English.
3. File format should be compatible with **Microsoft Word** and must be sent to the electronic mail (**journal@beu.edu.az**) of the Journal. The submitted article should follow the following format:

- Article title, author's name and surname
- The name of workplace
- Mail address
- Abstract and key words

4. The title of the article should be in each of the three languages of the abstract and should be centred on the page and in bold capitals before each summary.
5. **The abstract** should be written in **9 point** type size, between **100** and **150** words. The abstract should be written in the language of the text and in two more languages given above. The abstracts of the article written in each of the three languages should correspond to one another. The keywords should be written in two more languages besides the language of the article and should be at least three words.
6. . **UDC** and **PACS** index should be used in the article.
7. The article must consist of the followings:

- Introduction
- Research method and research
- Discussion of research method and its results
- In case the reference is in Russian it must be given in the Latin alphabet with the original language shown in brackets.

8. **Figures, pictures, graphics and tables** must be of publishing quality and inside the text. Figures, pictures and graphics should be captioned underneath, tables should be captioned above.
9. **References** should be given in square brackets in the text and listed according to the order inside the text at the end of the article. In order to cite the same reference twice or more, the appropriate pages should be given while keeping the numerical order. For example: [7, p.15].

Information about each of the given references should be full, clear and accurate. The bibliographic description of the reference should be cited according to its type (monograph, textbook, scientific research paper and etc.) While citing to scientific research articles, materials of symposiums, conferences and other popular scientific events, the name of the article, lecture or paper should be given.

**Samples:**

a) ***Article:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomerrik and dimeric conapeetes of carnosine üith zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Book:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Conference paper:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information – Commu-nication Technologies in Science and education. II International Conference.”*Higher Twist Effects In Photon- Proton Collisions”, Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

References should be in 9-point type size.

10. The margins sizes of the page: - Top 2.8 cm. bottom 2.8 cm. left 2.5 cm, right 2.5 cm. The article main text should be written in Palatino Linotype 11 point type size single-spaced. Paragraph spacing should be 6 point.
11. The maximum number of pages for an article should not exceed 15 pages
12. The decision to publish a given article is made through the following procedures:

- The article is sent to at least to experts.
- The article is sent back to the author to make amendments upon the recommendations of referees.
- After author makes amendments upon the recommendations of referees the article can be sent for the publication by the Editorial Board of the journal.

# YAZI VƏ NƏŞR QAYDALARI

1. "Journal of Baku Engineering University-İqtisadiyyat və İdarəetmə"- əvvəllər nəşr olunmamış orijinal əsərləri və müəllifin tədqiqat sahəsi üzrə yazılmış icmal məqalələri qəbul edir.
2. Məqalələr İngilis dilində qəbul edilir.
3. Yazılar **Microsoft Word** yazı proqramında, (**journal@beu.edu.az**) ünvanına göndərilməlidir. Göndərilən məqalələrdə aşağıdakılara nəzərə alınmalıdır:

- Məqalənin başlığı, müəllifin adı, soyadı,
- İş yeri,
- Elektron ünvanı,
- Xülasə və açar sözlər.

4. **Məqalədə başlıq hər xülasədən əvvəl** ortada, qara və böyük hərflə xülasələrin yazıldığı hər üç dildə olmalıdır.
5. **Xülasə** 100-150 söz aralığında olmaqla, 9 punto yazı tipi böyüklüyündə, məqalənin yazıldığı dildə və bundan əlavə yuxarıda göstərilən iki dildə olmalıdır. Məqalənin hər üç dildə yazılmış xülasəsi bir-birinin eyni olmalıdır. Açar sözlər uyğun xülasələrin sonunda onun yazıldığı dildə verilməklə ən azı üç sözdən ibarət olmalıdır.
6. Məqalədə UOT və PACS kodları göstərilməlidir.
7. Məqalə aşağıdakılardan ibarət olmalıdır:

- Giriş,
- Tədqiqat metodu
- Tədqiqat işinin müzakirəsi və onun nəticələri,
- İstinad ədəbiyyatı rus dilində olduğu halda orjinal dili mötərzə içərisində göstərməklə yalnız Latın əlifbası ilə verilməlidir.

8. **Şəkil**, **rəsm**, **grafik** və **cədvəllər** çapda düzgün, aydın çıxacaq vəziyyətdə və mətn içərisində olmalıdır. Şəkil, rəsm və qrafiklərin yazıları onların altında yazılmalıdır. Cədvəllərdə başlıq cədvəlin üstündə yazılmalıdır.
9. **Mənbələr** mətn içərisində kvadrat mötərizə daxilində göstərilməklə məqalənin sonunda mətn daxilindəki sıra ilə düzülməlidir. Eyni mənbəyə iki və daha cox istinad edildikdə əvvəlki sıra sayı saxlanmaqla müvafiq səhifələr göstərilməlidir. Məsələn: [7,səh.15].

Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans, və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir.

**Nümunələr:**

a) ***Məqalə:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitab:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, 2002

c) ***Konfrans:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. "*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Mənbələr 9 punto yazı tipi böyüklüyündə olmalıdır.

10. **Səhifə ölçüləri:** üstdən 2.8 sm, altdan 2.8 sm, soldan 2.5 sm və sağdan 2.5 sm olmalıdır. Mətn 11 punto yazı tipi böyüklüyündə, **Palatino Linotype** yazı tipi ilə və tək simvol aralığında yazılmalıdır. Paraqraflar arasında 6 punto yazı tipi aralığında məsafə olmalıdır.
11. Orijinal tədqiqat əsərlərinin tam mətni bir qayda olaraq 15 səhifədən artıq olmamalıdır.
12. Məqalənin nəşrə təqdimi aşağıdakı qaydada aparılır:

- Hər məqallə ən azı iki ekspertə göndərilir.
- Ekspertlərin tövsiyələrini nəzərə almaq üçün məqalə müəllifə göndərilir.
- Məqalə, ekspertlərin tənqidi qeydləri müəllif tərəfindən nəzərə alındıqdan sonra Jurnalın Redaksiya Heyəti tərəfindən çapa təqdim oluna bilər.

# YAZIM KURALLARI

1. “Journal of Baku Engineering University- Ekonomi ve Yönetim" önceler yayımlanmamış orijinal çalışmaları ve yazarın kendi araştırma alanın-da yazılmış derleme makaleleri kabul etmektedir.
2. Makaleler İngilizce kabul edilir.
3. Makaleler Microsoft Word yazı programında, (**journal@beu.edu.az**) adresine gönderilmelidir. Gönderilen makalelerde şunlar dikkate alınmalıdır:

- Makalenin başlığı, yazarın adı, soyadı,
- İş yeri,
- E-posta adresi,
- Özet ve anahtar kelimeler.

4. **Özet** 100-150 kelime arasında olup 9 font büyüklüğünde, makalenin yazıldığı dilde ve yukarıda belirtilen iki dilde olmalıdır. Makalenin her üç dilde yazılmış özeti birbirinin aynı olmalıdır. Anahtar kelimeler uygun özetin sonunda onun yazıldığı dilde verilmekle en az üç sözcükten oluşmalıdır.
5. Makalede UOT ve PACS tipli kodlar gösterilmelidir.
6. Makale şunlardan oluşmalıdır:

- Giriş,
- Araştırma yöntemi
- Araştırma
- Tartışma ve sonuçlar,
- İstinat Edebiyatı Rusça olduğu halde orjinal dili parantez içerisinde göstermekle yalnız Latin alfabesi ile verilmelidir.

7. **Şekil, Resim, Grafik** ve **Tablolar** baskıda düzgün çıkacak nitelikte ve metin içerisinde olmalıdır. Şekil, Resim ve grafiklerin yazıları onların alt kısımda yer almalıdır. Tablolarda ise başlık, tablonun üst kısmında bulunmalıdır.
8. **Kullanılan kaynaklar**, metin dâhilinde köşeli parantez içerisinde numaralandırılmalı, aynı sırayla metin sonunda gösterilmelidir. Aynı kaynaklara tekrar başvurulduğunda sıra muhafaza edilmelidir. Örneğin: [7,seh.15].

Referans verilen her bir kaynağın künyesi tam ve kesin olmalıdır. Referans gösterilen kaynağın türü de eserin türüne (monografi, derslik, ilmî makale vs.) uygun olarak verilmelidir. İlmi makalelere, sempozyum, ve konferanslara müracaat ederken makalenin, bildirinin veya bildiri özetlerinin adı da gösterilmelidir.

**Örnekler:**

a) ***Makale:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and Electronic Structure of Monomerik and Dimeric Conapeetes of Carnosine Üith Zinc,* Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitap:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Kongre:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. “*Higher Twist Effects In Photon- Proton Collisions”, Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Kaynakların büyüklüğü 9 punto olmalıdır.

9. **Sayfa ölçüleri**; üst: 2.8 cm, alt: 2.8 cm, sol: 2.5 cm, sağ: 2.5 cm şeklinde olmalıdır. Metin 11 punto büyüklükte **Palatino Linotype** fontu ile ve tek aralıkta yazılmalıdır. Paragraflar arasında 6 puntoluk yazı mesafesinde olmalıdır.
10. Orijinal araştırma eserlerinin tam metni 15 sayfadan fazla olmamalıdır.
11. Makaleler dergi editör kurulunun kararı ile yayımlanır. Editörler makaleyi düzeltme için yazara geri gönderilebilir.
12. Makalenin yayına sunuşu aşağıdaki şekilde yapılır:

- Her makale en az iki uzmana gönderilir.
- Uzmanların tavsiyelerini dikkate almak için makale yazara gönderilir.
- Makale, uzmanların eleştirel notları yazar tarafından dikkate alındıktan sonra Derginin Yayın Kurulu tarafından yayına sunulabilir.

13. Azerbaycan dışından gönderilen ve yayımlanacak olan makaleler için,(derginin kendilerine gonderilmesi zamani posta karşılığı) 30 ABD Doları veya karşılığı TL, T.C. Ziraat Bankası/Üsküdar-İstanbul 0403 0050 5917 No’lu hesaba yatırılmalı ve makbuzu üniversitemize fakslanmalıdır.

# ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. «Journal of Baku Engineering University» - Экономика и управление публикует оригинальные, научные статьи из области исследования автора и ранее не опубликованные.

2. Статьи принимаются на английском языке.

3. Рукописи должны быть набраны согласно программы **Microsoft Word** и отправлены на электронный адрес (**journal@beu.edu.az**). Отправляемые статьи должны учитывать следующие правила:

- Название статьи, имя и фамилия авторов
- Место работы
- Электронный адрес
- Аннотация и ключевые слова

4. **Заглавие статьи** пишется для каждой аннотации заглавными буквами, жирными буквами и располагается по центру. Заглавие и аннотации должны быть представлены на трех языках.

5. **Аннотация**, написанная на языке представленной статьи, должна содержать 100-150 слов, набранных шрифтом 9 punto. Кроме того, представляются аннотации на двух других выше указанных языках, перевод которых соответствует содержанию оригинала. Ключевые слова должны быть представлены после каждой аннотации на его языке и содержать не менее 3-х слов.

6. В статье должны быть указаны коды UOT и PACS.

7. Представленные статьи должны содержать:

- Введение
- Метод исследования
- Обсуждение результатов исследования и выводов.
- Если ссылаются на работу на русском языке, тогда оригинальный язык указывается в скобках, а ссылка дается только на латинском алфавите.

8. **Рисунки, картинки, графики и таблицы** должны быть четко выполнены и размещены внутри статьи. Подписи к рисункам размещаются под рисунком, картинкой или графиком. Название таблицы пишется над таблицей.

**9.** **Ссылки** на источники даются в тексте цифрой в квадратных скобках и располагаются в конце статьи в порядке цитирования в тексте. Если на один и тот же источник ссылаются два и более раз, необходимо указать соответствующую страницу, сохраняя порядковый номер цитирования. Например: [7, стр.15]. Библиографическое описание ссылаемой литературы должно быть проведено с учетом типа источника (монография, учебник, научная статья и др.). При ссылке на научную статью, материалы симпозиума, конференции или других значимых научных мероприятий должны быть указаны название статьи, доклада или тезиса.

**Например:**

**a)** ***Статья:*** Demukhamedova S.D., Aliyeva I.N., Godjayev N.M. *Spatial and electronic structure of monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Книга:*** Christie on Geankoplis. *Transport Processes and Separation Process Principles.* Fourth Edition, Prentice Hall, 2002

c) ***Конференция:*** Sadychov F.S, Fydin C,Ahmedov A.I. Appligation of Information-Communication Nechnologies in Science and education. II International Conference. *"Higher Twist Effects In Photon-Proton Collision",* Bakı,01-03 Noyabr, 2007, ss.384-391

Список цитированной литературы набирается шрифтом 9 punto.

10. **Размеры страницы:** сверху 2.8 см, снизу 2.8 см, слева 2.5 и справа 2.5. Текст печатается шрифтом **Palatino Linotype**, размер шрифта 11 punto, интервал-одинарный. Параграфы должны быть разделены расстоянием, соответствующим интервалу 6 punto.
11. Полный объем оригинальной статьи, как правило, не должен превышать 15 страниц.

12. Представление статьи к печати производится в ниже указанном порядке:

- Каждая статья посылается не менее двум экспертам.
- Статья посылается автору для учета замечаний экспертов.
- Статья, после того, как автор учел замечания экспертов, редакционной коллегией журнала может быть рекомендована к печати.